# 10 May – Ümummilli lideri xalqımıza bəxş edən gün


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 96 (30500) 10 may 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


# Faşizm üzərində Qələbədən Qarabağ Zəfərinə gələn qəhrəmanlıq yolu

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva faşizmlə savaşda həlak olmuş azərbaycanlıların xatirəsini ehtiramla anıblar

**Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 79 il ötür.**



Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstəsi qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

*(ardı 2-ci səhifədə)*

## Müstəqil və bütöv Azərbaycan Heydər Əliyev siyasi irsinin təntənəsidir



**Ulu öndər Heydər Əliyev fərqli siyasi sistemlər şəraitində Azərbaycan xalqının dövlətçilik irsinin qorunub saxlanması, müstəqil dövlət ideyasının gerçəkləşməsi prosesində ölkəmizi mürəkkəb, olduqca təlatümlü mərhələlərdən fövqəladə siyasi uzaqgörənliyi ilə çıxararaq Ümummilli lider səviyyəsinə yüksəlmiş tarixi şəxsiyyət və böyük dövlət xadimidir. İstər sovet, istərsə də müstəqillik dönəmində Azərbaycan xalqını təhdidlərdən qorumağı, dövlətçilik prinsiplərini sağlam təməllər üzərində möhkəmləndirməyi, Vətənin bütövlüyünü, xalqımızın milli-mənəvi dəyərlərini yaşatmağı həyatının əsas amalına çevirmiş Ulu öndər öz şəxsiyyəti və mübarizə yolu ilə gələcək nəsilləri yeni qələbələrə ilhamlandıran nümunə yaratmışdır.**

Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur". Tam məsuliyyətlə deyə bilərik ki, hər bir vətənpərvər insanın yaddaşında əbədiləşmiş möhtəşəm obrazı, prinsiplərinə sadiqliyi və fədakar mübarizəsi ilə Heydər Əliyevin həyat yolu Azərbaycan xalqının mənəvi xəzinəsidir.

*(ardı 3-cü səhifədə)*

# Heydər Əliyev inamının reallıqları

**Azərbaycanın çoxəsrlik tarixində görkəmli dövlət xadimi Heydər Əliyevin müstəsna yeri vardır. Ümummilli lider Azərbaycan xalqının dövlətçilik ənənələrinin əsasında formalaşan və yaşadığı dövrün siyasi-ideoloji çağırışlarını qabaqlayan, böyük dövlətçilik istedadına malik olduğunu əməli fəaliyyəti ilə təsdiq etmiş tarixi şəxsiyyətdir.**



Çoxəsrlik Azərbaycan dövlətçiliyi tarixində Heydər Əliyev yeni tarix yaratmış böyük dövlət xadimidir. Ulu öndərin çoxşaxəli fəaliyyətində böyük siyasətlə yüksək peşəkarlıq nümunəsi olan dövlət idarəçiliyi bir-birini tamamlamışdır. O, böyük siyasətin də, dövlət idarəçiliyinin də zirvəsini fəth etmişdir. Buna görədir ki, Heydər Əliyevdən söz açanların hamısı birmənalı şəkildə bu dahi şəxsiyyətin siyasəti fəaliyyətindəki böyük məharətdən bəhs etdikləri səviyyədə onun əsl dövlətçilik istedadından da ürək dolusu söz açıblar. Yüksək dövlətçilik məharəti ilə tarixə dərin izlər salmış Heydər Əliyev düşünülmüş siyasəti ilə də onu əhatə edən rəsmi və siyasi dairələri mat qoymuşdur. Ona görə də mükəmməl dövlətçilik məktəbi yaratmış Ulu öndər həm də eyni səviyyədə böyük siyasətin qrossmeysteri kimi qəbul olunmuşdur.

Ümummilli lider Heydər Əliyev Azərbaycan SSR-ə və müstəqil Azərbaycan dövlətinə rəhbərlik etdiyi dövrlərdə mənsub olduğu xalqı və başçısı olduğu ölkəni ictimai-siyasi böhrandan və iqtisadi-mədəni gerilikdən çıxararaq, hərtərəfli yüksəlişə nail olmağı bacarmışdır. Qüdrətli dövlət xadimi kimi, o, Azərbaycanı böyük çətinliklər bahasına qazanılmış dövlət müstəqilliyini itirməkdən xilas etmiş, ölkəmizdə müstəqil dövlətçiliyin möhkəm əsaslarını yaratmışdır. SSRİ kimi nəhəng imperiyanın əsas rəhbərlərindən biri olaraq da Heydər Əliyev dünya miqyaslı görkəmli dövlət xadimi olduğunu isbat etmişdir. Bunu böyük siyasətçilər, görkəmli dövlət xadimləri də dönə-dönə etiraf etmişlər.

*(ardı 5-ci səhifədə)*

## Mehriban xanım Əliyeva 9 May Qələbə Günü münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 9 May – Qələbə Günü münasibətilə sosial şəbəkə hesabında paylaşım edib.**

Paylaşımda deyilir: "Faşizm üzərində Qələbənin 79-cu ildönümü münasibətilə bütün veteranlarımızı təbrik edirəm! Hər birinizə möhkəm cansağlığı, Vətənimizə sülh və əmin-amanlıq arzulayıram!".

**AZƏRTAC**

## Almatıdan Cənubi Qafqaza sülh müjdəsi gələcəkmi?



Səhifə ⇨ 11

## AMEA-da "Dostluğun siması" sənədli filminin və "Heydər Əliyev – Gürcüstan" kitabının təqdimatı

Səhifə ⇨ 10

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva faşizmlə savaşda həlak olmuş azərbaycanlıların xatirəsini ehtiramla anıblar



(əvvəli 1-ci səhifədə)

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz edilib.

Bu müharibədə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman ehtiramla anılıb. Xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərib, onları "xalqımızın qızıl fondu" adlandırıb.

Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayır, 9 May – Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir. Azərbaycan Prezidentinin 2024-cü il 2 may tarixli sərəncamı ilə 1941–1945-ci illər müharibəsində iştirak etmiş şəxslərə 2000 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1000 manat məbləğində birdəfəlik maddi yardım verilib. Bütün bunlar bir daha sübut edir ki, müharibə veteranlarına hərtərəfli diqqət və qayğı Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.

Azərbaycan xalqı artıq dördüncü ildir ki, 1941–1945-ci illər müharibəsində faşizm üzərində Qələbəni 44 günlük Vətən müharibəsi nəticəsində əldə olunmuş böyük Zəfərin doğurduğu sevinc hissi ilə birgə ikiqat qürurla qeyd edir. Xalqımızın 30 il uğrunda mübarizə apardığı ədalət nəhayət, Zəfər çaldı, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə və 1941–1945-ci illər müharibəsində canlarından keçmiş bütün oğul və qızlarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

**AZƏRTAC**

# Ulu öndər Moskvada yad edildi

**Azərbaycanın Rusiyadakı səfirliyi Heydər Əliyev Fondunun Moskvadakı nümayəndəliyi ilə birgə ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş xatirə gecəsi təşkil edib.**




Mərasimin qonaqları 1984-cü ildə Baykal–Amur Magistralına səfəri zamanı Heydər Əliyevi müşayiət edən "Vostoçno-Sibirskaya Pravda" qəzetinin əməkdaşı Valeri Karasyovun çəkdiyi fotolardan ibarət sərgi ilə tanış olublar. Ust-Kutdan Sakit okeana qədər bütün yol boyu Karasyov Ulu öndərin BAM-ın yerli rəhbərliyi və qəhrəmanları ilə görüşlərini lentə alıb.

Toplantını açan Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy qeyd edib ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev 1990-cı illərin birinci yarısında baş vermiş iğtişaşlar dövründə ölkəni xilas edib. "O, bütün Sovet İttifaqı üçün çox işlər görüb", – deyə Şvıdkoy bildirib.



"Mən bu gün onun formalaşmasının bəzi mərhələlərini və əlbəttə ki, Naxçıvan Məclisinin sədri olduğu zaman onun Naxçıvana qayıtması, Azərbaycanın dağıldığı bir vəziyyətdə necə siyasət qurması, ölkədə baş verən üsyanlara necə müqavimət göstərməsini izlədim, oxudum, xatırladım. Bu, onun böyük daxili gücündən və bütün bunların nə üçün edildiyini dərk etməsindən xəbər verir. Bu isə Azərbaycanın çiçəklənməsi naminə edilirdi. Əsası Heydər Əlirza oğlu tərəfindən qoyulan işlər bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən gerçəkləşdirilir", – deyə Şvıdkoy qeyd edib.

Rusiya Liberal Demokrat Partiyasının sədri, Dövlət Dumasının deputatı Leonid Slutski çıxışında müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin xatirəsinin Rusiyada da dərin ehtiramla anıldığını qeyd edib.

"Heydər Əlirza oğlu iqtisadiyyatın ən mühüm, elmtutumlu sahələrinə nəzarət etməklə Sovet İttifaqındakı yüksək dövlət postunda da çox işlər görüb. Baykal-Amur Magistralının tikintisi Heydər Əliyevin adı ilə ayrılmaz şəkildə bağlıdır", – deyə Slutski bildirib.

Siyasətçi vurğulayıb ki, bu gün Azərbaycan Prezidenti İlham Əliyev dahi atasının işini layiqincə davam etdirir. "Dahi atasının ən vacib nəsihətlərindən birini yerinə yetirən İlham Heydər oğlu Qarabağı azad edib. Bu, Heydər Əlirza oğlunun rəhbərliyi ilə, indiki Prezident İlham Heydər oğlu Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının bütün bu illər ərzində nail olmaq istədiyi nəticə, bütün bu postsovet illərinin müqəddəs və nəcib yekunudur", – deyə Slutski bildirib.

Deputat qeyd edib ki, Azərbaycan bu gün Rusiyanın ən etibarlı tərəfdaşıdır. "Heydər Əliyev Azərbaycan ilə Rusiya arasında konstruktiv, çoxşaxəli qarşılıqlı fəaliyyətin əsasını qoyub. Azərbaycan ən yaxın vaxtlarda hələ böyük uğurlara nail olacaq. O, artıq böyük nailiyyətlər əldə edib. Bu, Azərbaycan xalqının davamlı, əziyyətli əməyinin nəticəsidir. Mən qardaş Azərbaycan xalqına, Azərbaycanın Prezidenti İlham Əliyevə davamlı firavanlıq arzu edirəm", – deyə Slutski vurğulayıb.

Mərasimdə TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın "İlham Əliyev. And: 20 il sonra" sənədli filmi nümayiş olunub.

Tədbir konsert proqramı ilə davam etdirilib.

# Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1** Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Eldarov Ömər Həsən oğlu
Əliyeva Böyük Xanım Həsənbala qızı
Həşimzadə Xanlar Allahverdi oğlu
İsrafilov Fərhad Ramazan oğlu
Məlikov Aqil Qədəşbala oğlu
Məmmədəliyeva Sevda Yusuf qızı
Mustafayeva Laləzar Bəşir qızı.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 may 2024-cü il**

# İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002 ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1** Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abas-bəyli Könül Eldar qızı
Abaszadə Mələk Fuad qızı
Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdullayev İlkin Əşrəf oğlu
Abdullayeva Xurşud Lütfəli qızı
Abdurahmanov Yusif Fikrət oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Ağasiyev Tural Aydın oğlu
Ağayev Miraslan Əzizəli oğlu
Ağayeva Həcər Maqsud qızı
Allahverdiyev Ceyhun Kərim oğlu
Allahverdiyev Həbib Rəşad oğlu
Allahverdiyeva Naibə Siyavuş qızı
Aşurov Mustafa Əhməd oğlu
Atakişiyev Firdovsi Nurəddin oğlu
Atakişiyeva Mətanət Ağazair qızı
Babayeva İnarə Əhməd qızı
Babayeva Töhfə Ağaəli qızı
Bağırova Sənubər Yusufovna
Bayramov Təyyar Allahverdi oğlu
Bəşirov Xanlar Əyyub oğlu
Bəylərov Nəzər Rəhman oğlu
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Samir Qadir oğlu
Dadaşov Ceyhun Arif oğlu
Dadaşov Manaf Məcid oğlu
Eyvazova Ayan Fuad qızı
Eyyubov Musa Eyyub oğlu
Əfəndi Elçin Fərahim oğlu
Əfəndiyeva Xəlilova İlahə Əhsan qızı
Əhmədli Bəhruz Vaqif oğlu
Əhmədov Elşad Eldar oğlu
Əhmədov İlyas Əhməd oğlu
Əhmədova Aynur Əhməd qızı
Ələkbərzadə Mehriban Zaur qızı
Ələsgərova Əfqanə Elşad qızı
Əlili Hüseyn Azad oğlu
Əliyev Ələkbər Həsən oğlu
Əliyev Fərid Fərhad oğlu
Əliyev İqbal Adil oğlu
Əliyev Məhəmməd Əli oğlu
Əliyev Samir Asəf oğlu
Əliyeva Afət Məmməd qızı
Əliyeva Nərgiz Arzu qızı
Əliyeva Ülkər Sabir qızı
Əlizadə Əkbər Müzəffər oğlu
Əmirbəyova Rita Cəmil qızı
Əsədov İlham Əsəd oğlu
Əzizov Əzizağa Ağayar oğlu
Ferştandt Anton Sergeyeviç
Gözəlova İradə Vaqif qızı
Həmidov Elgün Rafik oğlu
Həsənquliyev Kazım Feyruz oğlu
Həsənov Bəhrəm Afət oğlu
Həsənov Kərim Abbas oğlu
Həşimov Orxan İlqar oğlu
Hüseynli Rauf Eyyub oğlu
Hüseynov Elnur Bəhrəmxan oğlu
Hüseynov Fizuli İsmət oğlu
Hüseynova Fəridə Malik qızı
Hüseynova İlahə Həsən qızı
Hüseynova Nərmin Mətləb qızı
Xanlarova Mehriban Aslan qızı
Xasiyev Səmədzadə Nadir oğlu
Xəlilzadə Rüfət Eldar oğlu
İbişov Tahir Fidayə oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimova Şəhla İbrahim qızı
İmanov Vaxtanq Yaşar oğlu
İmranova İnna Aleksandrovna
İskəndərova Sənubər Sabir qızı
İsmayılova Şəhla Əli qızı
Kərimov Elnur Umbay oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Nərgiz Faiq qızı
Kuxmazova Yulizana Şəfiyevna
Qasımova Zümrüd Bəxtiyar qızı
Qeybullazadə Natəvan Əhlulla qızı
Qəhrəmanov Abbas Əhməd oğlu
Qəmbərli Ayaz Vahab oğlu
Qibləliyev İsrafil Arif oğlu
Quliyev Cəmil Elşad oğlu
Quliyev Elxan Əli Bala oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyeva Səbinə Kasumovna
Qurbanov Cahangir Qafar oğlu
Qurbanov Rövşən Oktay oğlu
Qurbanova Lalə Dəmir qızı
Qurbanova Pərvanə Yaqub qızı
Mehdiyev Oqtay Nüsrət oğlu
Mehmandarov Mustafa Adil oğlu
Mehrəliyev Vüsal Akif oğlu
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məmməd Lalə Mirzəli qızı
Məmmədli Şamil Kamil oğlu
Məmmədov Anar Ramiz oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Emil Əfrasiyab oğlu
Məmmədov Hakim İlham oğlu
Məmmədov Murad Məmməd oğlu
Məmmədov Ramil Şamil oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədova Fəridə Kamal qızı
Məmmədova Səkinə Çapay qızı
Mikayılov Mikayıl Şamil oğlu
Mir-Qasım Ayan Oqtay qızı
Mirzəyev Gülağası Ağa Hüseynoviç
Mirzəyev Rafiq İsmayıl oğlu
Mirzəyeva Vəfa Rafiq qızı
Mirzəzadə Nicat Qərib oğlu
Musayeva Şükufə İmran qızı
Mustafayev Vüsal Sədaqət oğlu
Mürvətova Hüsniyyə Vaqif qızı
Nəbiyeva Səmayə Kazım qızı
Nəsibova Rada Ziyad qızı
Nəzərov İlham İslam oğlu
Novruzova Kəklik Vəliəddin qızı
Oduşev Timur Vladislavoviç
Osmanov Fuad Tacəddin oğlu
Poladov Əkrəm Nicad oğlu
Rəcəbli Məmməd Qüdrət oğlu
Rəfiyeva Aidə Fazil qızı
Rəhmanov Rəhman Tofiq oğlu
Rəsulov İsrafil Fərhad oğlu
Rüstəmov Elşən Mərdan oğlu
Rüstəmov Nurlan İbrahim oğlu
Rüstəmov Rüstəm Qərib oğlu
Rzayeva Vəfa Əliseyran qızı
Rzayev-Sarabski İsfar Aydın oğlu
Sadıqov Anar Babalı oğlu
Salahov Əbülfət Yusif oğlu
Salmanov Nicat Fərhad oğlu
Seyfullayev Anar Ağaverdi oğlu
Səfərov Rəşad Süleyman oğlu
Səfərova İlahə Qiyas qızı
Səlimli Mirbala Seyidəsgər oğlu
Səmədov Şükür Hacıbala oğlu
Şahbazova Esmiralda Məmmədəli qızı
Şərifəliyeva Səidə Vahid qızı
Tağıyev Cəfər Vəli oğlu
Tağızadə Mahir Tahir oğlu
Vahabzadə Səbinə Qulam qızı
Vəliyeva Leyli Fətulla qızı
Vəliyeva Nigar Natiq qızı
Yahyayev Taleh Saleh oğlu
Zaliyeva Mehriban Əskəralı qızı
Zeynalov Azər Zeynalabdın oğlu
Zəki Mehriban Mürvət qızı
Zülfüqarova Əminə Cahangir qızı.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3** "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 may tarixli 3874 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 672 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 may 2024-cü il**

# Müstəqil və bütöv Azərbaycan Heydər Əliyev siyasi irsinin təntənəsidir

(əvvəli 1-ci səhifədə)

Böyük siyasi fəhmi və qətiyyəti ilə cəmiyyət üçün taleyüklü və həlledici anlarda liderlik missiyasını həyata keçirmiş tarixi şəxsiyyətlərin roluna müxtəlif zaman bucağından yanaşanda bəzən fərqli mülahizələr ortaya çıxır. Böyük şəxsiyyətlərin mübahisələndirilməsi və ya tarixdə şəxsiyyətin roluna dair irəli sürülən müxtəlif mülahizələr daim müzakirə predmeti olmuşdur. Ulu öndər Heydər Əliyevin zəngin siyasi irsinə məhz bu kontekstdən nəzər saldıqda, onun fəaliyyət göstərdiyi dövrün konyunkturasına sığmayan və öz xalqının inamlı gələcəyinə hesablanmış qətiyyətli siyasətinin alternativsizliyi heç vaxt mübahisə doğurmamışdır.

Böyük şəxsiyyət çoxşaxəli, dinamik fəaliyyəti dövründə daim gələcəyə hesablanmış müzakirələrə, fərqli düşüncələrə açıq olmuş, onun özündən sonra miras qoyduğu zəngin siyasi irs hansı aspektdən yanaşılmasından, hansı metodika ilə tədqiq edilməsindən asılı olmayaraq, daim öz aktuallığını saxlamışdır. Heydər Əliyev irsi yalnız Azərbaycan xalqı üçün deyil, dünyada haqqın, ədalətin bərqərar olması, beynəlxalq hüququn prinsiplərinin qorunması uğrunda mübarizə aparan bütün xalqlar və liderlər üçün siyasi məktəbdir. Buna görə də yalnız milli bucaqdan deyil, həm də qlobal kontekstdə Ulu öndərin əzəmətli obrazına nəzər saldıqda, onun mahiyyətini daha dərindən dərk etmək mümkündür.

Heydər Əliyevin 1969-cu ilin iyulundan başlayaraq Azərbaycana rəhbərlik etdiyi dövrdə əsası qoyulmuş milli inkişaf prosesi onun yorulmaz fəaliyyətinin, əzmkarlığının bəhrəsidir. Ulu öndər ötən əsrin 70-80-ci illərini "coşqun inkişaf" dövrü kimi səciyyələndirərək həmin mərhələnin mahiyyətini olduqca düzgün ifadə etmişdir. Müstəqil Azərbaycanın əsaslı iqtisadi, habelə mənəvi bünövrəsinin möhkəmləndirildiyi həmin dövrdə Heydər Əliyevin hakimiyyəti illəri olmasaydı, indiki qüdrətli Azərbaycandan söhbət açmaq çətin, hətta mümkünsüz olardı. Sadəcə, təkzibolunmaz və artıq tarixin yaddaşına həkk olunmuş faktlara nəzər saldıqda müstəqil Azərbaycanın bünövrəsinin hansı mətin iradə və uzaqgörənliklə inşa edilməsi haqqında təsəvvürlərimiz bir daha aydınlaşır.

Ulu öndərə qədər Azərbaycan keçmiş müttəfiq respublikalar arasında sosial-iqtisadi inkişafın bütün parametrləri baxımından geridə qalmış, aqrar təmayüllü, zəif kənd təsərrüfatı respublikası kimi tanınırdı. Uzun illər məsul vəzifələrdə çalışmış Heydər Əliyev həm mövcud vəziyyəti şərtləndirən səbəbləri dərindən bilir, həm də mümkün qədər qısa vaxtda əsaslı dönüş yaratmaq üçün yeni konseptual yanaşmanın, əsaslandırılmış inkişaf strategiyasının zəruriliyini görürdü. Respublikaya rəhbərliyinin ilk günlərində qarşıda duran vəzifələri və əsas hədəfləri açıqlayan Heydər Əliyev problemləri cəsarətlə dilə gətirməklə yanaşı, həm də sürətli və davamlı inkişafın yollarını açıq şəkildə bəyan edərək təkcə Azərbaycanın deyil, SSRİ kimi böyük bir dövlətin durğunlaşmaya doğru gedən monoton həyatına və idarəçilik sisteminə yenilik gətirdi.

Azərbaycan qısa zamanda tikinti-quruculuq arenasına çevrildi, respublikada ilk dəfə ölkə əhəmiyyətli obyektlərin əsası qoyuldu, müasir sosial-iqtisadi infrastrukturun yaradılmasına başlanıldı, cəmiyyəti təhdid edən mənfi hallarla kəskin mübarizəyə start verildi. 1970–1980-ci illərdə Azərbaycanda sənayedə və elmi-texniki tərəqqini müəyyən edən sahələrdə, o cümlədən, maşınqayırma və metal emalında, neft və neft kimyası sənayesində istehsalın həcmi sürətlə artdı, eyni zamanda, elektron, radio və digər yeni sənaye sahələri yaradıldı.

Sovetlər birliyinin inzibati-amirlik sistemi şəraitində yalnız respublikanın davamlı inkişafı deyil, eyni zamanda, xalqın milli-mənəvi dəyərlərinin qorunub saxlanması Ulu öndərin ciddi önəm verdiyi və diqqət mərkəzində saxladığı prioritetlərdən olmuşdur. Heydər Əliyevin çox sonralar dediyi "Azərbaycanın varlığı bizim ən böyük tarixi sərvətimiz, bütün azərbaycanlıların qazandığı ən böyük nailiyyətdir" fikri onun fəaliyyətinin bütün dövrlərindən başlıca prinsip, qırmızı xətt kimi keçir. O, mənəvi dəyərlərimizin əsas qaynağı, xalqımızı birləşdirən mühüm dayaq olan Azərbaycan dilinin dövlət dili statusu səviyyəsinə yüksəldilməsinə nail olmuş, mədəniyyətimizin, incəsənətimizin inkişafına diqqət və qayğısını əsirgəməmişdir.



Beləliklə, Heydər Əliyev dövrün inkişaf tempindən geridə qalmış və milli ucqar hesab olunan respublikanı birincilər sırasına yüksəldərək özünün liderlik, müstəsna istedada malik təşkilatçı keyfiyyətlərini nümayiş etdirmişdir. Buna görə də Ulu öndərimiz SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifələrə irəli çəkilmişdir. 2024-cü il aprelin 22-də Azərbaycan və Rusiya prezidentlərinin Baykal–Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşündə səsləndirilmiş fikirlər böyük bir ölkənin sosial-iqtisadi həyatının mühüm sahələrinə rəhbərlik etmiş Heydər Əliyevin fəaliyyətini olduqca düzgün ifadə edir. Rusiya Federasiyasının iki dəfə nəqliyyat yolları naziri olmuş Gennadi Fadeyev BAM ilə birbaşa əlaqəsi olan şəxs kimi xatirələrini bölüşərək demişdir: "Biz Heydər Əlirza oğlu haqqında danışanda insanlarda belə bir təəssüratın yarandığını görürük: o, insanları çox sevən insan idi. O, kilometrlərlə deyil, tonlarla deyil, talelərlə, BAM-çıların bu və ya digər müddət ərzində işlədiyi şəraitlə maraqlanırdı. O, heyrətamiz rəhbər idi".

Bəli, milyonlarla insanın səmimi inamı, etibarı Heydər Əliyev siyasətinin həmişəyaşarlığının və əbədiliyinin rəhnidir. Böyük Britaniyanın Baş naziri olmuş Uinston Çörçildən vəzifədən getdikdən sonra soruşurlar ki, hakimiyyəti illərində gördüyü hansı işləri səhv hesab edir. Cavabında o deyir: "Mən işləri görərkən kimlərin sonralar nə düşünəcəyini fikirləşmədim, konkret şəraitdə ingilis xalqı üçün nəyi doğru, faydalı bildimsə, onu da etdim". Ulu öndər Heydər Əliyev də mütərəqqi şəxsiyyət və lider kimi gərgin mübarizəsini yalnız öz xalqının istək və arzularının həyata vəsiqə alması üzərində qurmuşdur.

Heydər Əliyev heç vaxt öz xalqının taleyinə biganə qalmamış, hətta həyatını riskə ataraq Azərbaycanın haqq mübarizəsinin önündə getmiş, böyük uzaqgörənliklə onu doğru məcraya yönəltmişdir. 1990-cı ilin Qanlı Yanvarından sonra həyatına yönəlmiş təhdidlərə baxmayaraq, sovet ordusunun Bakıda törətdiyi qətliamı cinayət adlandırmış və bu məsələdə əli olanların cəzalandırılmasını qətiyyətlə tələb etmişdir. Heydər Əliyev yenə də həyatını riskə ataraq, silahdaşlarının təqib olunduğunu, qətlə yetirildiyini bilə-bilə Bakıya qayıtmış, tarixinin ən acı günlərini yaşayan xalqı ilə birlikdə olmuş, onu tək qoymamışdır.

Tarixin qırılma anlarında heç də bütün siyasi liderlərin bacarmadığı qətiyyəti və zamanın sınağından çıxmış güclü xarakteri ilə siyasi təfəkkürdə nümunə yaratmış Heydər Əliyev obrazı özündə prinsipiallığı, mətinliyi, dövlətçilik dəyərlərinə sadiqliyi əks etdirir. Bakıdakı bədxahların, millətin siyasi iradəsi ilə hesablaşmayan marginallaşmış dairələrin təzyiqi nəticəsində doğma yurdu Naxçıvana getməli olan Ulu öndər düşmən əhatəsində qalmış muxtar respublikada Azərbaycanın istiqlaliyyəti uğrunda mühüm addımlar atmışdır. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə işə başlayan 12-ci çağırış Naxçıvan Ali Sovetinin birinci sessiyasında qəbul olunmuş "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" və digər mühüm qərarlar Azərbaycanın dövlət müstəqilliyinin bərpası prosesində əhəmiyyətli rol oynamış tarixi sənədlər olmuşdur.

Azərbaycan 1993-cü ildə növbəti dəfə tarixin qırılma anını yaşayırdı: elan olunmamış müharibədəki məğlubiyyətləri siyasi fürsət bilən AXC–Müsavat cütlüyü ölkəni vətəndaş müharibəsinə sürükləmişdi, hələ formalaşmamış dövlətçilik başıpozuq qüvvələrin əlində oyuncağa çevrilmiş, ayrı-ayrı bölgələrdə separatizm meyilləri baş qaldırmışdı. Çörəklə sınağa çəkilən xalqın gələcəyə ümidi tükənmiş, insanlar övladlarının, Vətənlərinin sabahı üçün narahat olur, dərinləşən böhrandan çıxış yolları axtarırdılar. Xalqın ümummilli axtarışlarının ünvanı yenə də Heydər Əliyev şəxsiyyəti oldu. Ulu öndər Naxçıvandan Bakıya qayıdanda ölkə artıq vətəndaş qarşıdurmasının astanasında idi, dövlətin idarəçiliyinə məsul olan şəxslər isə öz həyatlarını xilas etmək üçün qaçıb gizlənmişdilər.

Heydər Əliyevin həmin dövrdəki fəaliyyəti, sözün əsl mənasında, siyasi ustalıq, dərin zəka, müdriklik, fədakarlıq və vətənpərvərlik nümunəsidir. Ulu öndər xarici təhdidlər, hərbi təcavüz, daxili qarşıdurmalar, habelə sosial və iqtisadi fəlakət vəziyyətində olan ölkəni faktiki məhv olmaqdan xilas etdi, dövlətçiliyimizə qarşı yönələn çoxsaylı təhlükələr, qiyamlar, sui-qəsdlər onu yolundan döndərmədi, müstəqilliyimizi beşiyində boğmaq istəyən daxili və xarici qüvvələrin məkrli planları iflasa uğradı. Azərbaycan öz dahi liderinin, böyük oğlunun səyləri nəticəsində tarixin sınağından şərəflə çıxaraq tərəqqi yolu ilə irəlilədi, inkişaf etdi, dünya xəritəsində layiqli yerini tutaraq müstəqilliyini əbədi və dönməz etdi.

Dünya tarixindən məlumdur ki, liderlərin uğur qazanmasında onların şəxsi keyfiyyətləri ilə yanaşı, xalqına bağlılıq, fəaliyyətində milli maraqların prioritetlik səviyyəsi kimi amillər də mühüm rol oynayır. Liderlər xalqı düşündürən problemlərin yalnız nəzəri həllini göstərməklə kifayətlənmir, həm də onların aradan qaldırılmasına bilavasitə rəhbərlik edirlər. Liderin tarixdə rolu öz xalqı üçün gördüyü işlərin miqyası və əhəmiyyəti ilə ölçülür. Bu baxımdan Heydər Əliyev ümummilli lider kimi müstəqil Azərbaycana rəhbərliyi dövründə uzaqgörən siyasəti ilə xalqımızın maraqlarını reallaşdırmış və onun taleyində müstəsna rol oynamışdır.

Heydər Əliyev Azərbaycanda dövlət institutlarının fəaliyyətini və dövlət idarəçilik sistemini yenidən qurmuşdur. 1994–1995-ci illərdə dövlət çevrilişi cəhdlərinin qarşısı alındıqdan və ictimai-siyasi sabitlik təmin edildikdən sonra Ulu öndər bütün gücünü və enerjisini bir tərəfdən fəal diplomatiya vasitəsilə ölkəmizin beynəlxalq əlaqələrinin qurulması və möhkəmlənməsinə, ərazi bütövlüyü probleminin həllinə, digər tərəfdən isə sosial-iqtisadi inkişaf məsələlərinə yönəltmişdir.

Dünyanın aparıcı dövlətlərini təmsil edən böyük neft şirkətləri ilə 1994-cü ildə Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının birgə işlənilməsini nəzərdə tutan "Əsrin müqaviləsi" imzalanmışdır. Bununla da Azərbaycanın neft strategiyasının əsası qoyulmuş və onun dünyada geoiqtisadi mövqeyi güclənmişdir. Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm rol oynayan bu nəhəng layihə Heydər Əliyevin əzmkar və prinsipial fəaliyyətinin təntənəsi kimi tarixə düşmüşdür. Ümummilli liderin məqsədyönlü siyasəti nəticəsində ölkəmizin enerji təhlükəsizliyinin əsası qoyulmuş, Azərbaycan beynəlxalq nəqliyyat dəhlizləri ilə bağlı layihələrin reallaşmasında yaxından və fəal iştirak etməyə başlamışdır.

Heydər Əliyev Azərbaycanın xarici siyasətinə çeviklik, məqsədyönlülük və praqmatizm kimi dəyərlər gətirmişdir. İkitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsi, güc mərkəzləri ilə münasibətlərdə balansın saxlanması, qarşılıqlı faydalı əməkdaşlıq, beynəlxalq hüququn normaları, onlardan irəli gələrək dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşılması, bir-birinin daxili işlərinə müdaxilə olunmaması kimi prinsiplər xarici siyasətin əsasını təşkil etmişdir. Ümummilli liderin milli maraqlara əsaslanan xarici siyasəti Azərbaycana beynəlxalq aləmdə çoxlu dost ölkə, etibarlı tərəfdaş qazandırmış, onun nüfuzunu artırmışdır. Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumlarla əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Heydər Əliyevin siyasətində Ermənistan–Azərbaycan münaqişəsinin həlli əsas yer tutmuş, Ulu öndər Azərbaycanın prinsipial mövqeyini böyük ustalıqla müdafiə etmiş, beynəlxalq təşkilatların tribunalarından münaqişə haqqında həqiqətləri bütün dünyaya çatdırmış, beynəlxalq birliyin ədalətli mövqeyinə nail olmaq üçün ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdir.

Ulu öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyası xalqımızın birliyini, cəmiyyətdə dövlətçilik və vətənpərvərlik şüurunun inkişafını təmin etmiş, onun fəlsəfi dünyagörüşündən, zəngin mədəni irsindən güc alaraq müstəqil dövlət quruculuğunun əsas istiqamətlərini özündə birləşdirmiş mükəmməl dəyərlər sisteminə çevrilmişdir. Hələ 1969–1982-ci illərdə – Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev hesab edirdi ki, xalqın milli identikliyinin başlıca şərtlərindən biri onun mədəni inkişafında mühüm rol oynamış şəxsiyyətlərin milli yaddaşda yerinin ucaldılması amili ilə birbaşa bağlıdır. Ulu öndər deyirdi: "Bizim ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdəki hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəni irsi, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu vardır. Ancaq xalq həmişə mədəniyyəti, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir". Məhz bu səbəbdən o, Bakıda və digər şəhərlərdə mədəniyyət, ədəbiyyat və elm xadimlərimizin abidələrinin ucaldılmasını, bütün respublika üzrə tarix-diyarşünaslıq muzeylərinin, tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin ev muzeylərinin və digər mədəniyyət ocaqlarının yaradılmasını, onların yubileylərinin geniş şəkildə qeyd olunmasını vacib hesab etmiş və buna nail olmuşdur.

Azərbaycan yazıçılarının 1981-ci il iyunun 12-də keçirilmiş VII qurultayında Heydər Əliyevin çıxışı həmin dövrün reallıqlarında həm cəsarətin, qətiyyətin, prinsipiallığın, həm də öz xalqına, onun mədəni irsinə dərin bağlılığın, vətənpərvərliyin bariz nümunəsidir. Tədbirdəki çıxışında Heydər Əliyev Azərbaycan milli mədəniyyətinin dirçəlməsi, ziyalıların xalqın mənafeyinə fədakarlıqla xidməti barədə fikirlərini bölüşmüş və demişdir: "Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır. Əvvəlki nəsillərin istedadı və əməyi ilə yaradılmış bütün sərvətləri mənimsəmədən və əvvəlki təcrübəyə arxalanmadan müvəffəqiyyətlə irəli getmək olmaz". Heydər Əliyevin xalqımızın mədəniyyətinin, mənəvi dəyərlərinin qorunması istiqamətində atdığı addımlar həmin dövrdə milli özünüdərkin dərinləşməsində və inkişafında böyük rol oynamışdır.

Artıq müstəqillik dövründə Heydər Əliyev öz nəzəri-ideoloji baxışlarını inkişaf etdirərək sistem halına salmış və azərbaycançılıq ideyasını irəli sürərək onun əsas prinsiplərini müəyyənləşdirmişdir. Heydər Əliyev azərbaycançılığın tarixi-siyasi əhəmiyyəti barədə demişdir: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik".

Azərbaycançılıq ideologiyası müstəqil dövlət quruculuğu, milli inkişaf, xalqımızın vahid amal uğrunda mübarizəyə səfərbər edilməsi, habelə ölkəmizdə yaşayan müxtəlif xalqların, etnik qrupların və dinlərin nümayəndələri arasında qarşılıqlı hörmət və etimad mühitinin yaradılması, xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanmasında və həmrəyliyinin təmin olunmasında böyük rol oynamışdır. Ulu öndərin müəllifi olduğu və milli dövlətçiliyimizin konseptual əsaslarını təşkil edən azərbaycançılıq ideologiyası zamanla daha da zənginləşmiş və inkişaf etmiş, bu gün olduğu kimi, gələcəkdə də öz aktuallığını saxlayacaq və xalqımızı yeni qələbələrə, nailiyyətlərə səfərbər edəcəkdir.

(ardı 4-cü səhifədə)

# Müstəqil və bütöv Azərbaycan Heydər Əliyev siyasi irsinin təntənəsidir



(əvvəli 3-cü səhifədə)

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1993–2003-cü illərdə həyata keçirilmiş müstəqil dövlət quruculuğu prosesinə və əldə olunmuş nəticələrin Azərbaycanın sonrakı taleyində roluna siyasi qiymət verərək demişdir: “10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atılmışdır və bu addımlar bu gün bizim uğurlu siyasətimizi şərtləndirir”.

2023-cü il mayın 10-da Şuşa şəhərinə səfəri zamanı çıxışında cənab Prezident bildirmişdir: “Ulu öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz – onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam”.

Bu gün fəxrlə yaşadığımız, qurur duyduğumuz müstəqil və güclü Azərbaycan dövləti Heydər Əliyev siyasi irsinin və onu ardıcıl şəkildə zənginləşdirən, inkişaf etdirən Prezident İlham Əliyev siyasətinin təntənəsi və zirvəsidir. Sağlam təməl üzərində davam etdirilən, milli maraqlara əsaslanan, müasir dövrün çağırışlarına cavab verən bu siyasət qarşıdan gələn dövrdə də əldə edəcəyimiz nailiyyətlərin əsasında dayanacaqdır.

İndi Azərbaycan təkcə postsovet məkanında deyil, daha geniş coğrafiyada iqtisadi gücünə, milli iqtisadiyyatın kəmiyyət və keyfiyyət göstəricilərinə görə qabaqcıl yerlərdən birini tutur. Beynəlxalq maliyyə təşkilatlarının hesabatlarında Azərbaycanın dünyada ən yüksək iqtisadi artıma malik olan, islahatlar həyata keçirən və investisiya yatırılan ölkə olduğu bildirilir. Bunu təsdiq edən faktlardan birini kimi “Financial Times” qrupunun “FDİ İntelligence” nəşrinin 2023-cü ildə ən çox birbaşa xarici investisiya yatırılan dünya şəhərlərinin TOP 100 reytinqində Bakının 3-cü yerdə qərarlaşmasını göstərmək olar. Ölkəmizdə makroiqtisadi sabitlik qorunur, adambaşına düşən milli gəlir və strateji valyuta ehtiyatları ildən-ilə artır, qeyri-neft sektorunun iqtisadi artımda payı əsaslı şəkildə yüksəlir, iqtisadiyyata investisiya qoyuluşunun miqdarı çoxalır və bərpaolunan enerji mənbələrindən istifadənin həcmi genişlənir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının həyata keçirilməsi nəticəsində şəhər və rayonlarda müasir infrastruktur formalaşdırılmış, sahibkarlıq inkişaf etmiş, əhalinin məşğulluq səviyyəsi və rifah halı yüksəlmişdir.

Azərbaycanın təşəbbüsü və yaxından iştirakı ilə nəhəng enerji və nəqliyyat layihələri reallaşdırılmışdır və bu proses davam edir. Təbii resurslara əsaslanan iqtisadiyyatdan “biliklər iqtisadiyyatı”na keçidin ardıcıl surətdə təmin olunması strateji inkişaf hədəfləri sırasında xüsusi yer tutur. Cəmiyyət həyatının müxtəlif sahələrində rəqəmsal texnologiyaların və innovasiyaların tətbiqi genişlənir. Ölkəmizin beynəlxalq texnoloji, innovativ və iqtisadi mərkəzlərlə əlaqələri dərinləşir, telekommunikasiya, tranzit və nəqliyyat xidmətləri inkişaf edir.

Prezident İlham Əliyevin xarici siyasəti Azərbaycanın dünyada mövqeyini möhkəmləndirmiş, milli strateji hədəflərin reallaşmasını təmin etmiş, ölkəmiz bölgədə güc mərkəzinə, beynəlxalq dialoq və əməkdaşlıq məkanına çevrilmişdir. Azərbaycan nəinki bəşəriyyəti narahat edən problemlərin həllinə dair beynəlxalq təşəbbüslərə fəal şəkildə qoşulur, həm də aparıcı beynəlxalq təsisatların – Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü, Qoşulmama Hərəkatının sədri olaraq dünya birliyi tərəfindən dəstəklənən qlobal təşəbbüslərin müəllifi kimi tanınmışdır. Ölkəmiz regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində, əməkdaşlıq mühitinin möhkəmləndirilməsində mühüm rol oynayır. Azərbaycanın xarici siyasətdə əldə etdiyi böyük uğurlar, nəhəng enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində təşəbbüskarlığı və fəal iştirakı, xeyli sayda beynəlxalq tədbirlərə evsahibliyi etməsi onun dünyada geosiyasi və geoiqtisadi nüfuzunu əsaslı dərəcədə artırmışdır.

Milli-mənəvi dəyərlərin, tolerantlıq ənənələrinin qorunub saxlanması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində məqsədyönlü siyasət həyata keçirilir, dünyada gedən qloballaşma prosesinin cəmiyyətimizə mənfi təsirinin qarşısının alınmasına və milli kimliyimizin qorunması məsələlərinə xüsusi diqqət yetirilir.

Dörd il əvvəl sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində başlayan Vətən müharibəsində tarixi Qələbəmizin təməlində Prezident İlham Əliyevin ətrafında xalqımızın sıx birliyi, ölkəmizin davamlı inkişafı, xarici siyasətdə və ordu quruculuğunda əldə edilmiş böyük nailiyyətləri dayanır. 2023-cü ilin sentyabr ayında Azərbaycanın Qarabağ bölgəsində apardığı birgünlük lokal antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Ermənistanın xalqımıza qarşı apardığı işğalçılıq siyasətinə birdəfəlik son qoyulmuşdur. Prezident İlham Əliyevin 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağını ucaltması xalqımızın həyatında möhtəşəm tarixi hadisəyə çevrilmişdir.

İşğaldan azad olunmuş ərazilərdə hazırda böyük miqyaslı bərpa-quruculuq işləri həyata keçirilir, insanlar doğma yurd-yuvalarına dönürlər. Azərbaycan dövlətinin heç bir kənar yardım olmadan, öz gücünə gördüyü işlərin miqyası həqiqətən də heyrət doğurmaya bilməz. Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasına şəxsən nəzarət edir, dövlətimizin başçısının tapşırıqları və dəyərli tövsiyələri işlərin tam və məsuliyyətlə icrasına etibarlı zəmin yaradır. 2020–2023-cü illərdə cənab Prezident işğaldan azad edilmiş ərazilərdə 400-ə yaxın tədbirdə iştirak etmiş, o cümlədən, 8 şəhər, 32 kənd və qəsəbə olmaqla, 120 layihənin təməlini qoymuş, müxtəlif təyinatlı 71 tikinti obyektinin açılışını etmişdir. 2022-ci il iyulun 19-dan bu günədək Laçın və Füzuli şəhərlərinə, Zəngilan rayonunun Ağalı, Ağdərə rayonunun Talış, Laçın rayonunun Zabux kəndlərinə, ümumilikdə, 1727 keçmiş məcburi köçkün ailəsinin (6754 nəfər) qayıdışı baş tutmuşdur.

Yaşayış məntəqələrinin salınması ilə yanaşı, bölgədə geniş bərpa-quruculuq işləri aparılır. Orta ümumtəhsil məktəbləri, körpələr evi-uşaq bağçaları, xəstəxanalar, mədəniyyət və turizm obyektləri kimi sosial təyinatlı obyektlərin bərpası və yenidən qurulması ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. İnfrastruktur layihələri sırasında Füzuli və Zəngilan şəhərlərində beynəlxalq hava limanları istismara verilmiş, Laçın rayonunda hava limanının tikintisi davam etdirilir. Həmçinin avtomobil yolları, tunellər, körpülər, dəmir yolları, magistral qaz xətləri tikilir, su elektrik stansiyaları və yarımstansiyalar, su anbarları inşa edilir.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək 118 min 503 hektar sahə, o cümlədən, yaşayış məntəqələri üzrə 18 min 143 hektar sahə mina və partlamamış hərbi sursatlardan təmizlənmişdir.

Bütün ölkədə olduğu kimi, işğaldan azad edilmiş ərazilərdə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə bu il fəaliyyətinin 20 ili tamam olan Heydər Əliyev Fondunun gördüyü işlər və həyata keçirdiyi layihələr xüsusi önəm daşıyır. Əminliklə demək olar ki, Heydər Əliyev Fondunun elm, təhsil, mədəniyyət, səhiyyə, idman və ekoloji sahələrə aid proqram və layihələri, sosial problemlərin həllinə dəstəyi, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, mədəniyyətimizin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və təbliği sahələrində həyata keçirdiyi layihələr ölkəmizin ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır.

İndiki və gələcək nəsillərə mütərəqqi yol göstərən, xalqa və dövlətə layiqli xidmət nümunəsi olan Heydər Əliyev irsinin öyrənilməsi və təbliği həmişə mühüm aktuallıq kəsb etmişdir. Heydər Əliyev Fondu Ümummilli liderin ideyalarının ictimai fikirdə möhkəmləndirilməsi məsələlərini daim diqqət mərkəzində saxlayır və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirir. 44 günlük Vətən müharibəsində ərazilərimizin işğaldan azad olunmasını Heydər Əliyev ideyalarının təntənəsi kimi qiymətləndirən hörmətli Mehriban Əliyeva demişdir: “Bu gün Heydər Əliyev bizimlə olmasa da, onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir. Ən başlıcası, onun müqəddəs arzusu reallaşıb – bizim 30 ilə yaxın işğal altında olmuş torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edilib”.

Bu il fevralın 7-də keçirilmiş prezident seçkilərində parlaq qələbə qazanmış İlham Əliyev andiçmə mərasimində çıxışında bildirmişdir: “İndi yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən, bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq”.

2024-cü il aprelin 19-da Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşündə Qazax rayonuna aid tarixi torpaqlarımızın geri qaytarılması ilə bağlı razılığın əldə olunması əhəmiyyətinə görə tarixi hadisə olmaqla yanaşı, həm də ölkəmizin qədəm qoyduğu yeni inkişaf mərhələsində qalibiyyətlə irəliləyəcəyinə dəlalət edən amildir. Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyətinin və diplomatik məharətinin təcəssümü olan bu qələbə həm də dövlətimizin başçısının uzun illər həyata keçirdiyi siyasətin təntənəsi və məntiqi nəticəsidir. Azərbaycan Prezidenti regionumuza kənardan müdaxilə etməyi az qala özünün gündəlik işinə çevirmiş xarici dairələrə bir daha göstərdi ki, bölgəmizə aid məsələlər, o cümlədən, Azərbaycanla Ermənistan arasında sülh prosesi iki ölkə arasında, vasitəçilər olmadan həll edilə bilər. Bu, bir daha təsdiq edir ki, dünya nizamında layiqli yer tutan Azərbaycan dövləti regionda sülh, təhlükəsizlik və inteqrasiya proseslərinə dinamik təsir göstərən ciddi geosiyasi aktora çevrilmişdir.

Azərbaycan dövləti ciddi qlobal problem olan iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində ardıcıl siyasət həyata keçirir, 2030-cu ilə qədər bərpaolunan enerji həcminin və enerji səmərəliliyinin artırılması ilə bağlı beynəlxalq təşəbbüsə qoşulmuşdur. Ölkəmizdə “yaşıl enerji” sənayesinin inkişafı üçün müvafiq normativ-hüquqi aktlar qəbul olunur, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, Naxçıvan Muxtar Respublikası “yaşıl enerji” zonaları elan edilmişdir. Azərbaycan xarici tərəfdaşları ilə birlikdə bərpaolunan enerji sahəsinin inkişaf etdirilməsi məqsədilə böyük layihələr reallaşdırmağa başlamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamı ilə 2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ətraf mühitin qorunmasına böyük diqqətin və həssas münasibətin göstəricisidir. BMT-nin İqlim Dəyişməsi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə böyük hörmət və etimadının ifadəsi olmaqla yanaşı, həm də yeni inkişaf mərhələmizdə əldə edilmiş növbəti uğurdur. Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi qlobal tədbirin reallaşması ilə bağlı müvafiq texniki-təşkilati tədbirlər həyata keçirir. Əminliklə demək olar ki, “Yaşıl dünya naminə həmrəy olaq!” şüarı altında yüksək səviyyədə keçiriləcək COP29 qlobal əhəmiyyət daşıyan bu problemin həllinə mühüm töhfə olmaqla yanaşı, həm də ölkəmizin güclü potensialını bütün dünyaya nümayiş etdirəcəkdir.

Mübaliğəsiz deyə bilərik ki, 30 illik müstəqillik tariximiz ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin sayəsində əfsanələrin reallığa çevrildiyi bir dövr olmuşdur. Ulu öndər iqtisadi müstəqilliyimizin və sürətli inkişafımızın rəhni hesab olunan “Əsrin müqaviləsi”ni imzalayanda da, ölkəmizi nəhəng transmilli layihələrin mərkəzinə çevirəndə də çoxları bunu əfsanə, qısa vaxtda görülməsi mümkün olmayan iş hesab edirdi. Lakin müdrik siyasi xadimin praqmatizmi, uzaqgörənliyi, hətta əfsanələrin də reallığa çevrildiyini bütün dünyaya sübut etdi. Bu gün Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdən xalqa müraciətləri, viran qoyulmuş Vətən torpağının yenidən dirçəldilməsi vaxtilə çoxlarının mümkünsüz, xəyal hesab etdiyi ərazi bütövlüyü bərpa edilmiş bütöv Azərbaycan reallığıdır.



Heydər Əliyev artıq zaman kontekstinə sığmayan, bütün dövrlərdə öz əzəmətini hiss etdirən dahi şəxsiyyət, böyük liderdir. O, sadə, zəhmətkeş Azərbaycan ailəsində boya-başa çataraq zəngin və nümunəvi həyat yaşamış, müasir dünyanın görkəmli siyasi korifeyləri səviyyəsinə yüksəlmişdir. Azərbaycan xalqı yaddaşına müdrik lider, xilaskar, nəhəng quruculuq işlərinin müəllifi, həyat və fəaliyyəti ilə Vətənə sədaqətin, bağlılığın ali meyarını yaratmış tarixi şəxsiyyət kimi həkk olunan Ulu öndərlə fəxr etməkdə haqlıdır və gələcək nəsilləri onun şəxsiyyəti timsalında tərbiyə etməyə mənəvi haqqı var.

**_Samir NURİYEV,_**
**_Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri_**



# Heydər Əliyev inamının reallıqları

(əvvəli 1-ci səhifədə)

Təsadüfi deyildir ki, dünya şöhrətli böyük qırğız yazıçısı Çingiz Aytmatov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə “tarixi və hətta, əfsanəvi şəxsiyyət” kimi yüksək qiymət vermişdir. Fikrimcə, Heydər Əliyevin «tarixi və əfsanəvi bir şəxsiyyət» səviyyəsinə yüksəlməsində onun böyük dövlətçilik istedadı, möhkəm iradəsi, geniş dünyagörüşü, zəngin həyat təcrübəsi və xidmətləri əsas faktorlar olmuşdur. Əsl liderlik xarizması olan bu dahi şəxsiyyət özünün dəmir iradəsi, möhkəm və bütöv xarakteri, istənilən çətin vəziyyəti anında düzgün dəyərləndirərək, ən optimal çıxış yolları tapmaq və məqamında qətiyyətli addımlar atmaq bacarığı ilə səciyyələnir.

Eyni zamanda, Heydər Əliyev zamanı qabaqlamağı bacaran, gələcəyi çox aydın şəkildə görə bilən, xalqını və ölkəsini məqsədyönlü şəkildə böyük gələcəyə doğru irəli apara bilmək məharəti göstərən mütəfəkkir şəxsiyyətdir. Xalqına ürəkdən bağlı olan Ümummilli lider doğma torpağını və ölkəsini sevməyi müqəddəs dəyər kimi qəbul etməyin əsl nümunəsini göstərmişdir. Ona görə də Heydər Əliyev həm də parlaq şəxsiyyəti ilə böyük ümumxalq məhəbbəti qazanmışdır. Ulu öndərin adı Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixinə əbədi həkk olunmuşdur.

Heydər Əliyev, sözün əsl mənasında, Azərbaycan dövlətçiliyi tarixində xüsusi bir epoxa yaratmışdır. Azərbaycanda siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan bu epoxa müxtəlif və keşməkeşli mərhələlərdən keçərək, ömrünün sonuna – 2003-cü ilə qədər böyük uğurla davam etmişdir. Təxminən 35 ilə yaxın ardıcıl olaraq davam edən bu böyük və şərəfli dövlətçilik marafonu mənsub olduğu xalqın və ölkənin taleyi və inkişafı ilə üzvi surətdə bağlı olub, onun təkamülü və tərəqqisi ilə əlaqədar bütün yüksəliş mərhələlərini əhatə etmişdir. O, sovet hakimiyyəti illərindəki Azərbaycana rəhbərliyi dövründə respublikanı ən sonuncu yerlərdən qabaqcıl mövqelərə çıxardığı kimi, dövlət müstəqilliyi illərində də böyük keşməkeşli hadisələri dəf edərək, müstəqil dövlətçiliyi qoruyub saxlamış və daha da möhkəmləndirmişdir. Bu baxımdan 15 İyun, sözün real mənasında, Azərbaycan xalqının və müstəqil Azərbaycan dövlətinin Qurtuluş Günü kimi tarixə daxil olmuşdur. Heydər Əliyev epoxası ölkəmizin tarixinə Azərbaycan xalqının və müstəqil dövlətçiliyin xilası, qurtuluşa və böyük gələcəyə hazırlanması dövrü kimi həkk olunmuşdur.






Bütün bunlarla bərabər, Heydər Əliyevi əsl insan və şəxsiyyət kimi səciyyələndirən xüsusiyyətlər də onun böyüklüyü və ucalığının real təzahürlərindəndir. O, siyasi-ideoloji baxımdan qüdrətli olduğu kimi, mənəvi cəhətdən də heyrətamiz dərəcədə zəngin, bənzərsiz və möhtəşəm şəxsiyyət idi. Bu dahi insanın daxili-mənəvi xüsusiyyətləri onun siyasi keyfiyyətlərini tamamlayır və daha da möhkəmləndirir. Dövlətçilik sahəsində və böyük siyasətdə xüsusi məharət göstərən Heydər Əliyev şəxsiyyət kimi də bütövlük və mənəvi zənginlik nümunəsi olmuşdur.

Heydər Əliyevin sınaqlardan keçirib tanıdığı insanlara bəslədiyi inamı və doğmalığı heç nə ilə müqayisə etmək mümkün deyil. Heydər Əliyevin doğmalığını hiss etmək insanda özünə dərin inam hissi və daxili qürur duyğuları yaradırdı. Ulu öndərin inamını qazanmaq əqidə bütövlüyünə nail olmağın barometri idi. Heydər Əliyevin inamı – insani dəyərlərin aliliyi və siyasi etibarın sabitliyi və davamlı olması demək idi. Görkəmli dövlət xadimi Heydər Əliyev həyatda mövqeyi olan əqidəli və dinamik insanlara inanıb etibar etmişdir. Bu mənada “mövqeyini göstər” sözü Ulu öndərin adı ilə bağlı olan müdrik kəlam və siyasi meydanda ölçü vahidi hesab olunur.

Bundan başqa, Heydər Əliyevin doğmalığı və inamı mühitində yaşamaq həyatını böyük ideallara kökləmək demək idi. Görkəmli dövlət xadimi Heydər Əliyev müxtəlif tarixi formasiyalarda onunla birlikdə yaşayıb-çalışan insanların ideya-mənəvi cəhətdən, şəxsiyyət kimi və dövlət adamı olaraq formalaşmasında müstəsna dərəcədə mühüm rol oynamışdır. Bu qüdrətli insan həm görkəmli dövlət xadimi və həm də bütöv, sarsılmaz şəxsiyyət kimi nümunə olmuşdur. Azərbaycan dövlətçiliyi Heydər Əliyev siyasətinin işığında inkişaf etdiyi kimi, xalqımızın mənəvi dəyərləri və şəxsiyyətin miqyası da Ulu öndərin yaşatdığı və ucaltdığı dəyərlərin nəticəsində daha da yetkinləşərək möhkəmləndirilmişdir. O, sözün böyük mənasında, əsl dahi insan kimi özünün şəxsiyyətində dövlət xadiminə xas olan möhkəm iradə və uzaqgörənlik, aydın siyasi mövqe və yüksək idarəçilik bacarıqları ilə birlikdə, həm də dahiyanə sadəliyi, əqidə bütövlüyünü, müdrikliyi böyük məharətlə, həm də çox təbii şəkildə birləşdirmişdir. Heydər Əliyevin dövlətçilik istedadı nə qədər qeyri-adi və əlçatmaz idisə, onu şəxsiyyət kimi səciyyələndirən dəyərlər də əsl örnək olmuşdur.

Heydər Əliyevin inamında əqidə bütövlüyü ilə əməl vəhdətdə ifadə olunmuşdur. Ulu öndər həyatının ən çətin və keşməkeşli məqamlarında, mürəkkəb sınaqlar qarşısında qalanda da əqidə bütövlüyünün nümunəsini göstərmişdir. Həyatın və cəmiyyətin heç bir çətinliyi və gərginliyi onu əqidə sarıdan sınağa çəkə bilməmişdir. O, sözün əsl mənasında, böyük siyasətin “Ənəlhəqq” andına nümunədir. Qüdrətli dövlət xadimi Heydər Əliyevdə əqidə dönməzliyinin nümunəsi olan İmadəddin Nəsimi möhtəşəmliyi vardır. Böyük Azərbaycan şairi Nəsiminin məşhur “Sığmazam” qəzəli sanki Ümummilli liderin əqidə bütövlüyünün manifestidir.

Keşməkeşli və mənalı həyatı, çoxcəhətli, məsuliyyətli və şərəfli fəaliyyəti ilə o, əqidə bütövlüyünü həm də əməli işi, xidmətləri ilə əyani şəkildə təsdiq etmişdir. Sovet Azərbaycanına rəhbərlik etdiyi illərin hər günü böyük əməllərin salnaməsidir.

SSRİ-nin əsas rəhbərlərindən biri kimi Heydər Əliyev əməlləri ilə Siyasi Büro üzvləri sıralarında fərqli sima kimi qəbul olunmuşdur. Bu gün də SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini Heydər Əliyevin Sovet İttifaqı miqyasındakı xidmətləri və əməlləri əfsanəyə çevrilərək yaşayır. Müstəqil Azərbaycan dövlətinin böyük sınaqlardan keçərək yaşaması və yolunu davam etdirmək şansı qazanması Ümummilli liderin atdığı qətiyyətli addımların sayəsində mümkün olmuşdur. Beləliklə, Azərbaycan xalqı Heydər Əliyevin dövlətçilik məktəbinin və insanlıq dərslərinin sınaqlarından keçərək inkişaf etmiş, kamilləşmiş və daha da möhkəmlənmişdir. Həmçinin müstəqil Azərbaycan dövləti yaşaması və əbədiyyət qazanması üçün Heydər Əliyevin dönməz və bütöv əqidəsinə, böyük əməllərinə borclu və minnətdardır.

Heydər Əliyevin dünyanın görkəmli dövlət xadimləri ilə etibarlı münasibəti Azərbaycan xalqına beynəlxalq aləmdə əhəmiyyətli tərəfdaş ölkələr və liderlər qazandırmışdır. Azərbaycan xalqının dünya birliyində özünəlayiq yer tutması üçün Heydər Əliyevin dostları olan dövlət rəhbərlərinin siyasi iradəsi, beynəlxalq ictimaiyyətin rəyi və münasibəti mühüm rol oynamışdır. Əgər XX əsrin doxsanıncı illərində Heydər Əliyevin ABŞ-nin Prezidenti Bill Klintonla, dövlət katibi Madlen Olbraytla, Böyük Britaniyanın Baş naziri, “dəmir ledi” kimi şöhrət qazanmış Marqaret Tetçerlə, Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəllə, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə, Çin Xalq Respublikası, Almaniya, Fransa kimi dövlətlərin rəhbərləri ilə tam və aydın, etibarlı münasibətləri, inamı və etibarı olmasaydı, Azərbaycan xalqı müstəqilliyin başlanğıc illərindəki keşməkeşli dövrlərin sınaqları zamanı böyük çətinliklərlə üzləşə bilərdi. Həmin qarmaqarışıq dövrlərdə taleyin gəmisinin hansı sahilə doğru yan alacağını təxmin etmək çox çətin idi. Məhz Heydər Əliyevin dünya birliyində qazandığı böyük etibar, nümayiş etdirdiyi qətiyyət və qəhrəmanlıq tam mənası ilə Azərbaycan xalqının və dövlətinin xilası demək idi.

“Bir millət, iki dövlət” kəlamı görkəmli dövlət xadimi Heydər Əliyevin dahiyanə kəşfidir. Bu, qardaş Türkiyə ilə əlaqələrin real əsası, türk dünyasına inteqrasiyanın strategiyasıdır. Bu, Heydər Əliyevin türk xalqına və Türkiyə Cümhuriyyətinə bəslədiyi inamın siyasi düsturudur.

Eyni zamanda, Heydər Əliyevin sadə adamlarla, keçmiş tələbəlik dostları ilə, gənclik yoldaşları ilə çox səmimi, etibarlı münasibətləri Azərbaycan cəmiyyətində mənəvi tarazlığın, ictimai-siyasi sabitliyin, qarşılıqlı münasibətlərin nəinki qorunub saxlanılmasında, hətta, daha da möhkəmləndirilməsində həlledici rol oynamışdır.

Ümumiyyətlə, Heydər Əliyevə inam Azərbaycan xalqına və müstəqil Azərbaycan dövlətçiliyinə etibarın rəmzidir. Heydər Əliyev ideallarına və şəxsiyyətinə inam müqəddəs dəyərlərə inam qədər məsuliyyətli və şərəflidir.

Azərbaycan xalqının Ümummilli lideri əsl dövlətçilik və insanlıq nümunəsidir. Bu dahi insan bütöv və parlaq şəxsiyyəti, geniş dünyagörüşü, zəngin mənəviyyatı ilə də nəsillər üçün böyük örnəkdir. İnsanlara münasibətindəki həssaslıq, doğmalıq və inam Heydər Əliyevin möhtəşəm obrazının ana xətlərindəndir.

Heydər Əliyev görkəmli dövlət xadimi və böyük siyasi xadim qədər olduğu səviyyədə də əsl insanlıq etalonudur. Bu unudulmaz şəxsiyyətin keşməkeşli və mənalı həyatı, sözün əsl mənasında, insanlıq nümunəsidir.

Müstəqil Azərbaycanın hər yeni nəsli üçün Heydər Əliyevin həyatı, mübarizəsi və idealları böyük siyasət və əsl həyat məktəbidir. Ümummilli lider doğma xalqına inam bəslədiyi kimi, xalq da ona bütün varlığı ilə ürəkdən inanmışdır. O, 1993-cü ildə xalqına olan sarsılmaz inamının dalğasında müstəqil Azərbaycan dövlətinə rəhbərlik etmək missiyasını qəbul etmişdir. “Hakimiyyətin mənbəyi xalqdır” tezisi Heydər Əliyevin xalqa və xalqın da ona inamının siyasi formuludur. Xalqın və ölkənin mənafeyi Heydər Əliyev üçün şəxsi həyatından qat-qat üstün olan ali dəyərlərdir. Heydər Əliyev epoxasının əsas devizi xalq və dövlət ideallarının vəhdətindən ibarətdir. Heydər Əliyevin ürəkdən inandığı və etiqad etdiyi bu ali dəyərlər insanlığın və dövlətçiliyin əsas meyarlarıdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin “Mən ona özüm qədər inanıram” sözləri də müstəqil Azərbaycan dövlətində, xalqımızın dilində zərb-məsələ çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurlu dövlətçilik fəaliyyəti Heydər Əliyev inamının böyük təntənəsidir. Möhtərəm Prezidentimizin uğurla davam etməkdə olan 21 illik fəaliyyətindən çıxan ən mühüm nəticə müzəffər Ali Baş Komandanın özü tərəfindən böyük səmimiyyətlə etiraf olunmuş “Ata vəsiyyətinə əməl etdim” sözlərində əksini tapmışdır. Azərbaycan xalqının lideri İlham Əliyev “Ata vəsiyyətinə” hansı miqyasda və necə əməl etməyin etalonudur. Ulu öndərin özü qədər inandığı İlham Əliyev qazandığı böyük tarixi zəfərlərlə, yaratdığı yeni və möhtəşəm Azərbaycanla nəinki xalqımızı, hətta bütün dünyanı əsl dövlət xadiminin və liderin necə olmasına qəti şəkildə inandırmışdır. Dünya şöhrətli görkəmli yazıçı Çingiz Aytmatovun aşağıdakı sözləri Prezident İlham Əliyevin müasir dövrün dünya liderləri arasındakı yerini və mövqeyini çox dolğun şəkildə ifadə edir: “İlham Əliyev qloballaşan dünyanın lider etalonudur”.

Ulu öndər Heydər Əliyev hələ 25 sentyabr 1990-cı ildə Nehrəm dairəsindən Azərbaycan Respublikasının Milli Məclisinə namizəd kimi seçkilərdə iştirak edərkən seçicilərlə görüşündə dediyi aşağıdakı sözlər, əslində, müstəqil Azərbaycan dövlətinin strategiyasının ifadəsi idi: “Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir… Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır.”

Azərbaycan Respublikası cəmi 44 gün ərzində Ermənistanın Qarabağdakı 30 illik işğalına son qoymuşdur. Bu, müzəffər Ali Baş Komandan İlham Əliyevin “dəmir yumruğ”unun möcüzəsidir.

Azərbaycanın ərazi bütövlüyü və tam suverenliyi möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təmin edilmişdir. Bu, Azərbaycanın çoxəsrlik tarixinin ən mühüm hadisəsidir.

Prezident İlham Əliyev 8 noyabr 2023-cü il tarixdə Xankəndi şəhərində hərbi paradı qəbul etmişdir. Bu, dövlət rəhbərimizin əfsanələri reallığa çevirməsinin əməli ifadəsidir.

Azərbaycan Respublikasının Qazax rayonu ərazisində Ermənistanla dövlət sərhədində yerləşən 4 kənd silaha əl atılmadan azad edilmişdir və həmin ərazilərdə sərhəd dirəkləri ucaldılmışdır. Bu, İlham Əliyevin ucalmaqda davam etdiyi Azərbaycanı bütövlüyünə qovuşdurma qüdrətinin mühüm hadisəsidir.

Məhz Prezident İlham Əliyevin dəmir iradəsi ilə Azərbaycan Respublikası azad, demokratik ölkə kimi dünyada özünü təsdiq etmişdir. Bu, müstəqillik qazanmış yeni dünya ölkələri üçün İlham Əliyev nümunəsidir.

Rusiya sülhməramlıları Azərbaycan ərazisini xoşməramlı şəkildə tərk etmişlər. Bu, Prezident İlham Əliyevin dövlət başçısı kimi böyük nüfuzunun real göstəricisidir.

Azərbaycan xalqı inanır ki, Prezident İlham Əliyevin iradəsi ilə Ermənistanla sülh müqaviləsi imzalanacaq və Zəngəzur dəhlizi açılacaqdır.

Xalqımız əmindir ki, istənilən ən çətin və mürəkkəb vəziyyətlərdə Prezident İlham Əliyev bütün məsələlərin ən doğru həll yolunu tapacaqdır.

Azərbaycan Respublikasının daha parlaq gələcəyinə həm xalqımız və həm də dünya ictimaiyyəti möhkəm surətdə inanır. Dünya birliyində Müstəqil Azərbaycan dövlətinin nüfuzunun və rolunun daha da artacağına da inanmamaq olmaz.

Bütün bunlar ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinə və Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətinə xalqımızın böyük inamının reallıqlarıdır.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti,***
***Milli Məclisin deputatı,***
***akademik***



# Uğurlarımızın memarı

**Tarix öyrədir ki, cəmiyyətin inkişafında şəxsiyyətlərin rolu danılmazdır. Amerikanın tarixini Corc Vaşinqtonsuz, Fransanı Şarl de Qollsuz, Almaniyanı Konrad Adenauersiz, Türkiyəni Mustafa Kamal Atatürksüz dərk etmək real görünmədiyi kimi, Azərbaycan tarixini də Heydər Əliyevsiz təsəvvürə gətirmək mümkün deyil. Həmin şəxsiyyətlər öz ölkələrinin ən kritik dövrlərində bütün ağırlığı çiyinlərinə götürərək vətənlərini xilas etdikləri kimi, Heydər Əliyev də Azərbaycanda həmin missiyanı şərəflə yerinə yetirmişdir. Fərq yalnız ondadır ki, Heydər Əliyev Azərbaycanda iki mərhələdə hakimiyyətdə olaraq əvvəl müstəqillik üçün baza hazırlamış, sonra bu müstəqilliyi qoruyaraq xalqa ərməğan etmişdir.**

Hər iki mərhələdə Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan beynəlxalq aləmdə daim problemlərin həllinə doğru irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi tanınmışdır. Heydər Əliyev fitri istedadı, yüksək təşkilatçılıq və idarəçilik məharəti ilə 1969-cu ildən başlayaraq Azərbaycanı qısa müddətdə dinamik inkişaf yoluna çıxarmağa müvəffəq oldu. İdarəçilikdə mütərəqqi yeniliklərin tətbiqi, milli kadrların önə çəkilməsi yolu ilə cəmiyyətin normal inkişaf ahəngini təmin etdi.

Ulu öndərin qətiyyəti ilə həmin dövrdə həyata keçirilən tədbirlər sosial-iqtisadi həyatın bütün sahələrinin inkişafına, həmçinin iqtisadi, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi-psixoloji durumuna mənfi təsirinin qarşısının alınmasına gətirib çıxarmışdır. Beləliklə, Azərbaycanın qarşısında tamamilə yeni inkişaf səhifəsi açıldı, bu səhifə ölkə tarixinə qızıl hərflərlə yazılmağa başladı. Qətiyyətlə deyə bilərik ki, ölkənin bugünkü iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin möhkəm təməllər üzərində bərqərar olması və dünya iqtisadiyyatına sürətli inteqrasiyası prosesi 1970–1980-ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır.

Onu da qeyd etmək lazımdır ki, Ümummilli liderin həmin dövr üçün Azərbaycanı gözlənilməyən bir cəsarət və məharətlə idarə etməyə başlaması nəinki Moskvada, hətta Bakının özündə də qısqanclıqla qarşılanırdı. Çünki, yeni dövlət başçısı neçə illərin sükunətini pozdu və onu hərəkətə gətirdi, milləti oyatdı, türk düşüncəsini silkələdi, ictimai əxlaqı tərpətdi… Heydər Əliyev bu vaxta qədər İttifaq miqyasında, demək olar ki, adı çəkilməyən bir ölkəni SSRİ-nin ən qabaqcıl respublikasına çevirdi; on ildən artıq müddətdə Ulu öndərin Azərbaycanın iqtisadi, mədəni, mənəvi yüksəlişi üçün gördüyü işləri o zaman SSRİ respublikalarından heç birinin rəhbəri görməmişdi… Halbuki Heydər Əliyev artıq müəyyən taktiki məqsədlərlə Moskvanın gözlərini qamaşdırmaqla kifayətlənmir, mənsub olduğu millət üçün çox böyük işlər görür, strateji planlarını həyata keçirirdi. Həmin planlardan birincisi isə xalqın özünü özünə tanıtdırmaq, onun normal etnokulturoloji həyatını bərpa etmək idi… Məsələn, onun 1969-cu ilin oktyabr ayında indiki “Xalq qəzeti”nin noyabr ayında isə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) 50 illik yubileylərində Azərbaycan dilində çıxış etməsi, gözlənilmədən müxtəlif müəssisələrə gedib zəhmətkeşlərlə tez-tez görüşməsi, bacarıqlı milli kadrları respublikanın idarə olunmasına cəlb etməsi, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətləri olan insanların əməyini vaxtında və layiqincə qiymətləndirməsi və digər yeni yanaşmaları bədxahları qıcıqlandırırdı.

Özünə möhkəm yer eləmiş, gedəni söyüb, gələni öyməklə neytrallaşdıran, həm bizdən, həm də digər millətlərdən ibarət məmurlar birləşərək, müxtəlif yollara əl atdılar, gah yaltaqlandılar, təriflədilər, gah böhtana əl atdılar, şantaj etməyə cəhd göstərdilər, Moskvaya şikayət etdilər, alınmadı, gördülər ki, bu rəhbər o birindən deyil… Ədalətli Türk hökmdarlarının şanlı ənənələrini davam etdirən Azərbaycan rəhbəri qətiyyətlə öz böyük amallarını həyata keçirirdi. Ulu öndərin rəhbərlik etdiyi respublika və onun paytaxtı Bakıda böyük dəyişikliklər baş verdi, qısa bir müddət ərzində Azərbaycan öz simasını tamamilə dəyişdi. Yeni-yeni zavod və fabriklər açıldı, mikrorayonlar, yaşayış massivləri salındı. Elmə, təhsilə, incəsənətə, ədəbiyyata, mədəniyyətə göstərilən qayğı və diqqət milli intibaha meydan açdı. Çox keçmədi ki, Heydər Əliyevin Azərbaycanda gördüyü bu işlərin sorağı respublikanın sərhədlərini aşıb keçdi, bütün Sovet İttifaqına yayıldı. İctimai-siyasi həyatın və iqtisadiyyatın bütün sahələrində qazanılan yüksək nailiyyətlərə görə ölkəmiz dalbadal keçici bayraqlara layiq görüldü. Azərbaycan Respublikası aqrar məmləkətdən yüksək inkişaf etmiş sənaye ölkəsinə çevrildi. Təbii ki, belə nəhəng işlərin görülməsi asan məsələ deyildi. Bu böyük və mühüm işləri görmək üçün ittifaqda böyük nüfuz sahibi olmaq, Azərbaycanın müstəsna rolunu önə çəkmək lazım idi və bunu da yalnız Heydər Əliyev kimi bir şəxsiyyət edə bilərdi. Onun təşəbbüsü ilə Azərbaycanın görkəmli şəxsiyyətlərinə abidələr, heykəllər ucaldıldı. Nəriman Nərimanova, İmadəddin Nəsimiyə, Şah İsmayıl Xətaiyə, Molla Pənah Vaqifə, Hüseyn Cavidə, Cəfər Cabbarlıya və digərlərinə qoyulmuş möhtəşəm heykəl və abidələr ulu öndərin tarixi yadigarlarıdır.

Görkəmli dövlət xadimi kimi Heydər Əliyevin dəmir iradəsinin parlaq sübutu onun fəaliyyətinin Moskva illəridir. 1982–1987-ci illəri əhatə edən bu dövrdə SSRİ rəhbərliyində Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi yüksək post tutan Heydər Əliyev velikorus şovinizmi və böyük dövlətçilik psixologiyasının hökmranlıq etdiyi Kreml rejiminə, mövcud təqiblər və ayrı-seçkilik sisteminə sübut etdi ki, heç bir qüvvə onun zəngin, tükənməz və hərtərəfli dövlət idarəçiliyi istedadının qarşısını almağa qadir deyildir. Tənəzzülə başlamış nəhəng imperiyanın ən ağır sahələrinin idarə edilməsində böyük uğurlara nail olan Heydər Əliyev az vaxt içərisində keçmiş SSRİ-də böyük nüfuz qazandı. Həmin dövrdə Heydər Əliyev Siyasi Büroda Sovet İttifaqını idarə etməyə və onu tənəzzüldən çıxarmağa qadir olan yeganə dövlət xadimi idi. Odur ki, səriştəsiz və bacarıqsız Kreml rəhbərləri, xüsusilə Qorbaçov Heydər Əliyevi özlərinə ciddi rəqib hesab edirdi. Belə bir ağır şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Heydər Əliyev sovet rəhbərliyində olarkən doğma Vətənini həmişə diqqət mərkəzində saxlayır, onun inkişafına hər cür qayğı göstərirdi.

Ancaq xalqımıza qarşı məkrli planlar həyata keçirməyə çalışan, Dağlıq Qarabağı Azərbaycandan qoparıb almaq istəyən qara qüvvələr qarşısında qüdrətli maneə, keçilməz sədd olan böyük azərbaycanlını qəbul edə bilməyən erməni millətçiləri hələ Stavropoldan başlayaraq erməni mafiyasının əlində itaətkar alət olan Qorbaçovun əli ilə öz fitnəkar niyyətlərinə nail ola bildilər: xalqımızın dahi oğlu SSRİ rəhbərliyindən uzaqlaşdırıldı. Bu, əslində, bütün sovet hakimiyyəti illəri ərzində xalqımıza vurulan ən ağır zərbələrdən biri idi.

Təsadüfi deyil ki, bundan dərhal sonra Qorbaçov tərəfindən himayə olunan erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan qoparıb almaq üçün fəal mübarizəyə başladılar. Azərbaycan xalqı bu dövrdə öz böyük oğlunun zəka potensialından məhrum olaraq böyük itkilərə məruz qaldı, Şuşa, Laçın, Kəlbəcər, Xocalı kimi əzəli torpaqlarımız işğal edildi. Qərbi Azərbaycandan soydaşlarımızın sonuncu nümayəndəsinə kimi deportasiya edilməsi, bir milyondan çox qaçqın və məcburi köçkünün yaratdığı problemlər, siyasi hərc-mərclik, vətəndaş müharibəsi və etnik toqquşmalar ölkəni sürətlə uçuruma sürükləyirdi. Azərbaycan Cənubi Qafqazın xəritəsindən silinmək üzrə idi. Bu zaman Vətənin ümid çırağı, əliyalın, başsız qalan xalqın yeganə qələbə silahı Heydər Əliyev zəkası idi.

Müdrik xalqımız, o zaman yeganə düzgün qərar qəbul etdi – bu böyük siyasət adamını hakimiyyətə gətirdi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. Müdrik dövlət xadimi bir neçə siyasi gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi tarixdən silmək planları puça çıxdı.

Azərbaycanın müasir intibahının memarı olan Heydər Əliyev bugünkü ictimai düşüncənin birmənalı qəbul etdiyi aydın həqiqətdir. Ona görə ki, Azərbaycan Respublikası adını daşıyan müstəqil dövlətin yaranmasından tutmuş, onun indiki heyrətamiz inkişaf dinamikasına qədər özündə milli dirçəlişi əks etdirən unikal tarixi sosial-iqtisadi və milli-mənəvi hadisələr məhz yaşadığımız zamanda cərəyan etməkdədir.

Taleyim elə gətirmişdir ki, dünyanın bir çox tanınmış insanları ilə görüşmüşəm. Bunların arasında böyük siyasətçilər, görkəmli dövlət xadimləri, elm və mədəniyyət korifeyləri də olmuşdur. Ancaq səmimiyyətlə demək istəyirəm ki, onlardan heç biri Heydər Əliyev qədər əzəmətli və möhtəşəm, zəhmli və mehriban, sirayətedici və müdrik, analitik təfəkkürlü və fenomenal yaddaşlı, vətənpərvər və qətiyyətli, iradəli və cəsarətli olmamışdır. Çox xoşbəxt insanam ki, bu tarixi şəxsiyyətlə eyni dövrdə yaşamaq, onun rəhbərliyi altında işləmək, onunla dəfələrlə ünsiyyətdə olmaq mənə nəsib olmuşdur. Görüşlərimin sayı qədər xatirəm vardır, bu xatirələri ümumiləşdirən bir cəhəti xüsusi vurğulamaq istəyirəm ki, onunla hər görüşdə mütləq yeni nə isə öyrənirdim, sanki hər dəfə ustad dərsi alırdım. Maraqlı və unudulmaz xatirələrim çox olsa da, burada yalnız biri haqda danışacağam.

Mənim üçün 1998-ci ilin 1 sentyabrı çox gərgin başlamışdı. Səhər tezdən bir neçə məktəbdə ilk zəng mərasimində iştirak və çıxış etmişdim. Avqustun 31-də 70-ci illərdə SSRİ-nin qabaqcıl ali məktəblərinə oxumağa göndərilən gənclərlə Heydər Əliyevin möhtəşəm bir görüşü keçirilmişdi. Tədris ilinin başlanması ilə əlaqədar məktəblərdə müxtəlif problemlər yaranmışdı, bunlar müzakirə edilməli, həll yolları tapılmalıydı. Rayonlara getməyim, bəzi yeni məktəblərin açılış mərasimində iştirak etməyim də qalırdı. Bütün bunlar Ulu öndərin tövsiyəsi ilə sentyabrın 25-nə planlaşdırdığımız müstəqil Azərbaycanın müəllimlərinin I qurultayının “vahiməsini” heç də azaltmırdı. Cəmi 25 günlük fasilə ilə Respublika Sarayında (indiki Heydər Əliyev Sarayında) ikinci belə tədbiri təşkil etməli idim. Müəllimlərin qurultayı öz həcminə və miqyasına görə görə daha böyük məsuliyyət tələb edirdi, yalnız Azərbaycan məktəblərindən 2036 nəfər nümayəndə gözlənilirdi.

Doğrusu, əsas məsələlərdən biri məruzəmlə bağlı idi, axırıncı dəfə müəllimlərin qurultayı 1987-ci ildə keçirilmişdi, ondan sonra çox böyük hadisələr baş vermiş, ölkəmiz müstəqillik əldə etmiş, Təhsil Nazirliyinin adı və naziri bir neçə dəfə dəyişmişdi. Mən yeni nazir kimi 2500-ə yaxın insanın qarşısında hesabat verəcəkdim. Üstəlik, bu tədbirdə ölkə başçısının da iştirakı gözlənilirdi. Heydər Əliyevin sınayıcı baxışları, hər incə detalı müşahidə edən həssas diqqəti, dinlədiklərini az qala əzbər yadda saxlamağa qadir fenomenal yaddaşı məni həyəcanlandırırdı. Məruzəyə çox ciddi hazırlaşmalıydım. Ancaq vaxt az idi. Hər gün onlarca tədbir, iclas, açılış, daha nələr acgözlüklə mənim vaxtımı “xərcləyirdi”. Üstəlik, qurultaya hazırlıqla əlaqədar qarşıya çıxan irili-xırdalı problemlər, artıq qeyd etdiyim proseslər bütün günümü əlimdən alırdı.

Qurultayın keçirilməsini nazirliyin genişləndilmiş kollegiya iclasında müzakirə edərkən mənin təklifimlə bura respublikanın ən tanınmış müəllimləri, ağsaqqal və ağbirçək pedaqoqları da dəvət edilmişdi. Məqsədim həyatını gənc nəslin yetişməsinə həsr etmiş bu fədakar insanlara qurultay ərəfəsində görülən işlərlə bağlı hesabat vermək, həm də onların təklif və arzularını dinləmək idi. Bizi ruhlandıran, necə deyərlər, yorğunluğumuzu çıxaran xoş sözlər çox deyildi. Ancaq birdən ağsaqqallardan biri mənə sual verdi ki, “Ay Misir müəllim, necə olur ki, Xalq şairi fəxri adı var, Xalq rəssamı var, hətta Xalq artisti də var, ancaq Xalq müəllimi adı yoxdur? Siz bir nazir kimi bu məsələni elə bu qurultayda qaldırmalısınız!” Bir başqa hörmətli ağsaqqal əlini qaldırıb söz istədi və təklifi ilə məsələni bir qədər də qəlizləşdirdi: ”Misir müəllim, mən təklif edirəm ki, bu qurultayda təsis etdiyimiz Xalq müəllimi Fəxri adının ilk diplomunu möhtərəm Prezidentimiz cənab Heydər Əliyevə təqdim edək!” Vəziyyət dəyişdi, hamı əl qaldırıb söz istədi və onlar da bir ağızdan, bir qədər də “bəzək-düzəkli” şəkildə eyni təklifi dəstəklədiklərini dedilər. Hətta bəziləri təklif etdi ki, bu, kənd məktəblərində işləyən müəllimlərin də arzusudur, biz deyək, onlar da qurultaya bu barədə müraciət göndərsinlər.

Nə isə, vəziyyət xeyli ciddiləşdi. Mən belə bir siyasi təklifə etiraz edə bilməzdim, digər tərəfdən özüm də deyilən fikirlərlə razı idim ki, Heydər Əliyevin təhsillə bağlı, müəllimlərə münasibətlə əlaqədar çox nəhəng və əvəzsiz xidmətləri vardır. Çıxış edən müəllimlərdən birinin dediyi kimi, əgər biz 50 nəfər, 100 nəfərə nə isə öyrədiriksə, bu insan milyonlarla həmvətənimizin, böyük bir xalqın müəllimidir, ona belə ad halaldır. Bunlar hamısı çox gözəl fikirlər idi, ancaq müəllimlər danışarkən mən başqa bir məsələ haqqında düşünürdüm. Bir az əvvəl Azərbaycan Elmlər Akademiyasında elmin inkişafındakı xidmətlərinə görə Heydər Əliyevə “Fəxri akademik” adını vermək istəmişdilər, o isə qətiyyətlə imtina etmişdi. O illər bir qədər qarışıq dövr idi. Bilmək olmurdu ki, kim səmimiyyətlə nəzakət göstərir, kim yaltaqlıqla məşğul olur, kim dövlətçiliyə sədaqətlə xidmət edir, kim gözə kül üfürür.

Özünü müxtəlif təsirlərdən qoruyan Ulu öndər də belə təltifləri biryolluq qəbul etmirdi. Eşitmişdim ki, Memarlar İttifaqında da şəhərin arxitetkturasının dəyişməsindəki roluna görə ona “Xalq memarı” adını vermək istəmişdilər, o isə etiraz etmişdi. İndi müəllimlərin bu odlu-alovlu çıxışları mənim vəziyyətimi anbaan çətinləşdirirdi. Mən etiraz ediləcəyini bilə-bilə bunu ona necə deyəcəkdim? Deməzdi ki, sən görmədin mən akademiyaya, o biri təşkilatlara etiraz elədim, gəlmisən ki, “Xalq müəllimi” veririk? Ona nə deyəcəkdim? Bəs müəllimlərə nə deyim? Onlara deyə bilmərəm ki, siz düz danışmırsınız, yaxud mən bunu Prezidentə deyə bilmərəm. Deməzdilərmi ki, bu da bizim nazirimiz, bircə xahişimizi çatdıra bilmir? Onlar nə bilsinlər ki, vəziyyət necədir...

Ürəyimdə qərara aldım ki, Prezident Aparatında (indiki Prezident Administrasiyası) müvafiq şəxslərdən xahiş edərəm, onlar deyər. Ancaq onlara bu xəbəri deyəndə reaksiyalarından hiss etdim ki, məsələ mənim düşündüyümdən də qəlizdir. Heydər Əliyev təltif, təbrik, fəxri ad-filan heç birinin haqqında bir kəlmə söz də eşitmək istəmir. Bəs mən nə edəcəyəm? Bir yandan da bu xəbəri eşidən müəllimlər üst-üstdən nazirliyə, mənim adıma, qurultayıln ünvanına məktublar, teleqramlar göndərirlər ki, bəs Heydər Əliyevə “Xalq müəllimi” Fəxri adı verilsin. Məktəb direktorları iclas keçirib iclasların qərarı kimi, ayrı-ayrı tanınmış müəllimlər şəxsi xahişi kimi, müxtəlif kəndlərdən, rayonlardan dəstə-dəstə məktublar göndərirlər. Onlara göstəriş də verə bilmirik ki, saxlayın bu məktubları. O saat deyəcəklər ki, siyasi səhv edirsən. İndi qurultaya hazırlıq qalıb bir tərəfə, qonaqların siyahısı, mənim məruzəm, sarayda təhsil sərgisinin təşkili qalıb kölgədə, bu məsələ olub ən aktual problem. Ərkim çatan adamlardan kimə deyirəmsə də, heç kəs boynuna götürmürdü.

Ancaq istəsək də, istəməsək də 1998-ci ilin 25 sentyabr gəlib çatdı, həmin gecəni yatmayıb səhərə qədər düşündüyüm bircə məsələ var idi – bu nə çıxışım idi, nə sərgi, nə də başqa bir şey. Səhərə qədər götür-qoy etdim ki, “Xalq müəllimi” diplomu da hazırdır, camaat hamılıqla köklənib ki, bu mükafatı təqdim etsin, bəs necə olacaq, indiyədək bu barədə cənab Prezidentə bir kəlmə söz deyən də olmayıb. Birdən biz təqdim etmək istədik, o da camaatın içində qayıtdı ki, cənab nazir, belə işiniz var idisə, mənə əvvəldən niyə deməmisiniz? Və yaxud da adı almaqdan imtina elədi? Bütün müəllimlər səbirsizliklə bu anı gözləyir, qurultayda iştirak edənlər də, etməyənlər də, belə olsa necə olacaq görəsən?

Onsuz da yata bilmirdim, səhər hava açılar-açılmaz yatağımdan qalxıb Respublika Sarayına yollandım. Deyəsən, xadimələrdən də qabaq gəlib çatmışdım, mühafizəçilərdən xahiş etdim, qapını açdılar, girib zala göz gəzdirdim, sonra vestibüldəki sərgiyə baxdım. Dünən də baxmışdım, elə bir problem olmadığını bilirdim. Ancaq “Xalq müəllimi” dərdi mənimlə idi, birtəhər başımı qatıb vaxtın keçməsini gözləməliydim. Vaxt isə getmirdi. Sərgidə bir şəklin xronoloji ardıcıllığı pozduğunu gördüm, onun yerini dəyişdim, sonra bəzi eksponatları bir qədər arxaya sürüşdürdüm (qurultaydan sonra eksponatların ölçüsünə baxanda onları yerindən tərpətməyimə inanmadım, ancaq həmin anda bütün varlığımla “Xalq müəllimi” məsələsini düşündüyümə görə bu ağırlığı hiss etməmişdim). Saata baxdım, hələ yeddiyə qalırdı. Sarayın pəncərələrindən bayırda var-gəl edən bəzi qurultay nümayəndələrini gördüm. Görünür, gecə qatarla gəlib tezdən Bakıya çatanlar idi, vağzaldan birbaşa saraya gəlmişdilər. Onları içəri buraxmırdılar, giriş ancaq 9-dan sonra şəxsiyyət vəsiqəsi və dəvətnamə ilə olacaqdı. Ürəyimdən keçdi ki, kaş mən də sadə bir qurultay nümayəndəsi olaydım, içəri buraxmayaydılar, bayırda qalaydım, ancaq bu “Xalq müəllimi” məsələsini həll etmək məcburiyyətində olmayaydım.

Saat 9-a yaxın ağlıma bir ideya gəldi, fikirləşdim ki, Heydər Əliyev müəllimlərə, xüsusən də yaşlı, təcrübəli, tanınmış müəllimlərə böyük hörmət göstərir, xüsusi rəğbətlə yanaşır və onların çoxunu şəxsən tanıyır. Qərara aldım ki, 190 nömrəli məktəbin direktoru Sona xanım Tağıyevaya ağbirçək təhsil işçisi kimi söz verək, qurultayın bu qərarı barədə tribunadan çıxış etsin. Cənab Prezident lap əsəbiləşsə də, Sona xanıma heç nə deməyəcək, təltifi qəbul edəcək. Ondan sonra nə olursa-olsun! Lap məni tənbeh eləsin, işdən çıxarsın, eybi yox, biləcəyəm ki, müəllimlərin arzusunu yerinə yetirib gedirəm. Vəssalam!

Sona xanıma fikrimi deyəndə müəllimə bir az duruxdu: “Ay Misir müəllim, nazir dura-dura bir məktəb direktoru bunu desə necə olar?”, – dedi. Xeyli söhbətdən sonra razılaşdı, nigaran qaldığım bircə Ulu öndərin reaksiyası idi. Görəsən necə olacaqdı?

Nəhayət, alqış sədaları altında zala daxil olduq, Heydər Əliyev lojada oturmaq istəmədi, keçib müəllimlərin arasında əyləşdi. Qurultayın təntənəli açılışı elan edildi, müəllimlər qurultayları tarixində ilk dəfə Azərbaycan müəllimlərinin himni səsləndirildi, xarici ölkələrdən, müxtəlif təşkilatlardan təbriklər oxundu, hesabat məruzəsi üçün söz mənə verildi. Hətta Heydər Əliyevin də bəyəndiyi və bunu fasilə zamanı xüsusi vurğuladığı məruzəmin haradan gəlib hara getdiyini, necə danışdığımı hiss etmədim. Fasilədə bir aya yaxın hazırladığımız sərgiyə baxış da, orada Heydər Əliyevin müəllimləri yaxına buraxmadığına görə mühafizə xidməti rəisini danlamağı da, müəllimlərin onunla şəkil çəkdirməsi və söhbət etməsi də, Ulu öndərin mənə oradaca verdiyi tapşırıqlar da Sona xanımın çıxışını həsrətlə gözləməyimin həyəcanını azalda bilmədi. Axır ki, fasilə bitdi və Sona xanım tribunaya yaxınlaşdı. Sona xanım danışdıqca hamı ona, mən isə oturduğum səhnədən Heydər Əliyevə diqqətlə baxırdım.

Sona Tağıyeva çoxsaylı xahişləri və müəllim peşəsinə xüsusi münasibətini nəzərə alaraq Ulu öndərin “Azərbaycanın Xalq müəllimi” fəxri adı və diplomu ilə təltif edilməsi barədə qurultayın qərarını səsləndirdi. Qərar oxunduqca onun mimikası, üzündəki müsbət reaksiya məni ürəkləndirdi və qərar oxunub bitən kimi yerimdən qalxıb gurultulu alqışlar altında səhnəyə dəvət olunan Heydər Əliyevə həmin diplomu və böyük bir gül dəstəsini təqdim etdim. Elə bil, çiyinlərimdən ağır bir yük götürüldü. Demə, üzbəüzdən Ulu öndər də məni müşahidə edirmiş və bərk həyəcanlandığımı hiss edib. Qurultaydan sonra narahatlığımın bu təltiflə bağlı olduğunu hiss etdiyini dedi və əlavə etdi ki, “Misir müəllim, mənim yaxama Brejnev də, Andropov da orden taxıb, çox mükafatlar almışam, bu ad mənim indiyədək aldığım bütün mükafatlardan yüksəkdir. Müəllim adı mənimçün çox müqəddəsdir, başqa ad deyil ki, imtina edim!”

(ardı 10-cu səhifədə)

# Heydər Əliyev: dövlətçilik şüuru və milli ideya

## (fəlsəfi təhlil)



### III məqalə

***Mən həmişə xalqıma xidmət etmişəm, bundan sonra da xidmət edəcəyəm.***

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

Bundan əvvəlki məqalədə dediyim kimi, siyasiləşmə, siyasi mədəniyyət və siyasi həmrəylik hər bir cəmiyyət üçün insanlarda ölkənin siyasi həyatında dərk olunmuş səviyyədə iştirakına imkan verən keyfiyyətlərə daxildir. Yəni məqsəd vətəndaşların könüllü və şüurlu surətdə cəmiyyət üçün aktual olan və prinsipial siyasi əhəmiyyət kəsb edən proseslərdə mütəşəkkil iştirak mühitinin yaradılması ilə bağlıdır. Burada həlledici rolu konkret ölkə və cəmiyyətin dövlətçilik ənənəsinin özəllikləri ilə müasir uğurlu dövlətçiliyin başlıca məqamları arasında optimal nisbətin tapılması oynayır. Heydər Əliyev o miqyasda lider və dövlət xadimidir ki, Azərbaycan Respublikası üçün məsələnin bu aspektinin çox düzgün həll yolunu müəyyən etdi. Bu məqamı aydın anlamaq üçün problemin fəlsəfi və siyasi-nəzəri səviyyəsinə bir daha qayıtmaq lazım gəlir.

### Siyasi savadlılığın 3 komponenti və “rəngli seçici”

Məsələnin mahiyyəti ondan ibarətdir ki, siyasi savadlılıq dünyanın ən inkişaf etmiş ölkələri üçün də olduqca aktualdır. Təcrübə göstərir ki, siyasi savadlılıq zəruri səviyyədə olmayanda həmin ölkələrin cəmiyyətlərində də siyasi anemiya, siyasi abseintizim, “ideoloji miraj” kimi neqativ hallar meydana gəlir və bu da siyasi təbliğatın təşkilinə mənfi təsir göstərir. Bunu “İGİ Global” beynəlxalq akademik nəşriyyatın apardığı araşdırmalardan da görmək mümkündür.

“İGİ Global” 1988-ci ildə ABŞ-ın Herş şəhərində (Pensilvaniya) yaradılmışdır. Fəaliyyət istiqaməti süni intellekt, kompüter texnologiyalarının, informasiya-kommunikasiya texnologiyalarının fonunda dünya üçün aktual olan müxtəlif problemlərin təhlilini aparmaqla bağlıdır. Şirkət Massaçusets Texnoloji İnstitutu, Kembric, Oksford, Harvard, Stenfrod, Sinxua (Çin) universitetləri və Avstraliya Milli Universiteti ilə sıx əməkdaşlıq edir. Onların apardıqları tədqiqatları dərc edir. 2024-cü ilə qədər “İGİ Global” dünyanın 100.000-dən çox aparıcı tədqiqatçısının araşdırmalarını dərc etmişdir. Yəni onun fəaliyyət dairəsi və tədqiqat miqyası bütün dünyanı əhatə edir. Müəlliflər çox tanınmış və araşdırmaları dünyada qəbul edilən şəxslərdir.

“İGİ Global”ın 2019-cu ildə rəsmi saytında siyasi savadlılıqla əlaqəli maraqlı bir araşdırmanın nəticələri təhlil edilmişdir. Həmin tədqiqat Stenford Universiteti tərəfindən 2016-cı ildə aparılmışdır. O araşdırmada göstərilir ki, 2016-cı ildə ABŞ-da prezident seçkiləri zamanı aparıcı namizədlər haqqında seçicilər 30 milyon (!) dəfə yanlış informasiyalar (“feyk informasiyalar”) yaymışlar. Siyasi cəhətdən bu faktın düşündürücü tərəfi ondan ibarətdir ki, bu kimi informasiyaların Amerika kimi inkişaf etmiş dövlətdə əlçatanlığı, oxunaqlığı və yayılması son seçkilərdə, demək olar ki, kütləvi hal almışdır. Nəzəriyyəçilər həmin seçici kəsimini “rəngli seçici” adlandırmışlar. Deməli, ABŞ cəmiyyətində yalan informasiyalar üzərində xüsusi seçici qrupu formalaşmışdır ki, onların obrazı “rəngli” adlandırılır. Çünki məqsəd cəmiyyətdə siyasi qeyri-müəyyənlik, əsassız radikal dəyişiklik yaratmaqdan ibarətdir (bu faktın fonunda “rəngli inqilablar”ın əsl siyasi məqsədi haqqında düşünək). “Rəngli seçici” yalnız bunlarla məhdudlaşmır – onun sosial-siyasi və mənəvi-əxlaqi, ideoloji, mədəni “kökü” daha geniş və düşündürücü faktorlarla əlaqəlidir. Alimlər də problemin bu tərəfindən ehtiyat edirlər.

Bu ehtiyatlılığın mərkəzində “rəngli seçici”nin həm də “millenial” olması dayanır. İndi millenialliq bütün cəmiyyətlər üçün siyasi və mədəni-mənəvi aspektlərdə olduqca aktual problemdir. Onun üzərində ayrıca dayanmaq gərəkdir. Öncə, yuxarıda vurğulanan özəlliklər prizmasında “İGİ Global”ın siyasi savadlılıqla bağlı üç prinsipini qeyd edək. Onlar aşağıdakılardır:

–siyasi savadlı insan həm siyasi struktura, həm də siyasətin milli ilə yanaşı, regional və qlobal təsirinə dərindən nüfuz etməlidir;

–siyasi savadlı insan dövlət və siyasi işlərdə aktiv iştirak etmək üçün lazımi bilik, bacarıq və vərdişə malik olmalıdır;

- milli miqyasda siyasi proseslərdə iştirak etməlidir.

Bu punktları bir qədər sonra təhlil edəcəyik, indi “millenial”lara baxaq.

### “Millenial” gənc seçici

“Millenial” termini “Millenium” sözündəndir. Millenium “minillik” deməkdir. Müasir dünyada “Millenium” termini ilə minilliklərin kəsişməsində həm yeni minilliyin başlamasını, həm də onun öncəkilərdən fərqli olduğunu ifadə edirlər.

Bu anlayışın demoqrafik aspektdə anlamı 1981–1996-cı illər arasında doğulan insanlarla bağlıdır. Göründüyü kimi, onlar, demək olar ki, gənc nəsli təşkil edirlər. Termini ilk dəfə 1987-ci ildə yazıçılar Uilyam Ştraus və Hil Hou işlətmişlər. Bununla onlar məktəbi 2000-ci ildə, yəni yeni minilliyin astanasında bitirənləri ifadə etmişlər. Həmin nəsil insanlar məktəbi bitirəndən sonra faktiki olaraq real müstəqil həyata atılacaqdılar. Məsələnin də siyasi-ideoloji və mənəvi-mədəni aspektlərdə əhəmiyyətli tərəfi bununla bağlıdır.

Konkret olaraq, hələ keçən əsrin 80-90-cı illərində yeni nəsil insanların hansı mənəvi-etik və siyasi-mədəni keyfiyyətlərə malik olacaqları aktual şəkildə qarşıda dayanmışdı. Lakin bu məqamı hər siyasi lider görə bilmədi. Bu görməməzliyin əlamətləri hansılardır? Bunun üçün gənc millenialın bir sıra psixoloji özəlliklərinə və sosiallaşma mexanizmlərinə baxaq.

İndi onların təqribən 18-45 yaşları vardır. Cəmiyyətlərdə, xüsusilə, Qərb cəmiyyətlərində gənc təbəqənin əksəriyyətini təşkil edirlər. Bu da millenialların ictimai rəyə ciddi təsir edə biləcəyini göstərir. Bundan başqa, onların həyat idealları və təbliğat istiqamətləri, dəyərləri seçmə meyarları öncəki nəsillərdən ciddi fərqlənir. Millenіallar daim oxuyarlar, yenidən oxuyarlar, adaptasiya olarlar, peşələrini dəyişərlər. Onlar üçün Vətən anlayışı arxa plandadır. Dünyanı vətən sayarlar. Lakin psixoloji, mədəni və peşə tərkiblərinə görə fərqlidirlər. Onlarla ümumi dil tapmaq asan deyildir. Onlar üçün vergi ödəmək yüksək dəyərdir. Məsələnin mənəvi və siyasi tərəfi elə də maraqlı deyildir.

Millenial bu günlə yaşayır. Uzunmüddətli plan qurmur. Skeptikdir, praqmatikdir, fərdiyyətçidir. Qeyri-sabit özünüqiymətləndirməsi vardır. Özündənrazılıq sindromu vardır. Yalnız yaxın dairələrlə ünsiyyət qurmağa çalışır. Başqaları ilə məsafə saxlayır. Bu da onların sosiallaşmasını öncəki nəsillərdən fərqləndirir ki, siyasi və mədəni proseslərə fərqli baxır. Buna görə də cəmiyyət səviyyəsində baş verənləri adekvat qiymətləndirməyə və onlara ümumtoplum mövqeyindən baxmağa çətinlik çəkir. Buna baxmayaraq, hamıdan üstün olmağa can atır. Onlar üçün şəxsi karyera və maddi təminat yüksək dəyərlərdir. Ailə həyatını da karyera və reklam kontekstində qururlar. Karyera və şəxsi sağlamlıq (“indi dəb olan “özünə yaxşı bax” deyimini xatırlayın) ön plandadır. Əksini düşünmürlər belə.

Heç kəsə inanmazlar. Çağırışlara şübhə ilə baxarlar (xüsusilə, dövlət və cəmiyyət həyatı ilə bağlı çağırışlara). Daha çox səthi təəssürat aludəçiləridir – daimi dəyərləri sevməzlər. Gözəl zahiri həyatı qəbul edirlər. Buna görə də daim seçim etməkdə çətinlik çəkərlər – hər şey onlar üçün dəyişkən olduğundan nəyi seçməyin daha yaxşı olduğunu müəyyən edə bilmirlər. Həmin səbəbdən də böyük siyasətdən qorxarlar. Toplumun ümumi problemlərindən kənarda qalmağa çalışarlar. Onlar selfini sevərlər, həm də məşhurlara oxşamağa da üstünlük verərlər. Avtoritetləri inkar edərlər.

Millenialların sosial, psixoloji və siyasi xarakteristikalarının siyahısını uzatmaq da olardı. Lakin vurğulananlar da bizi maraqlandıran problem baxımından ümumi mənzərəni yaradır. Məsələ ondan ibarətdir ki, bu tip insanlar həm gənc, həm də sosial sferada, informasiya bölüşümündə çox fəaldırlar. Bu üsulla ümumi ictimai rəyə təsir edə bilirlər. Onları obrazlı şəkildə həm də “rəqəmsal səyyahlar” adlandırmaq olar.

### “Rəqəmsal səyyahlar”

Rəqəmsal texnologiyalar şəraitində bu növ insanlar daimiliyi sevmədiklərindən ideoloji, siyasi, vətən, dövlət və cəmiyyət aspektlərində də dayanıqlı və davamlı mövqeni qəbul etmirlər. Onlar üçün Qərbdə yaranmış “posthəqiqət” daha önəmlidir. Yəni toplum və dövlətin baxışları prizmasında həqiqi sayılan faktlar deyil, şəxsi maraqlara xidmət edən və dəyişkən məzmunlu informasiyalar–feyklər maraqlıdır. Bu adamlar kompüterdə dünyanı görürlər və onlara elə gəlir ki, əsl gerçəklik elə kompüterin ekranındadır. ABŞ-dakı son seçkilərdə feyklərin milyonlarla olması səbəbi bu kimi özəlliklərlə bağlıdır. Seçici kompüterdə “rəqəmsal səyahətə” çıxır və informasiyalara həqiqət pəncərəsindən deyil, “rəngli reallıq” kimi yanaşır. Bu səbəbdən istənilən siyasi namizəd onun üçün oyundur, onun haqqında kompüterdə şok yaradan informasiya quraşdırar, lakin bu əməlin ictimai fəsadı vecinə olmaz. Onun üçün yaşadığı cəmiyyətin və vətəndaşı olduğu dövlətin taleyi deyil, “rəqəmsal səyahət”in verdiyi psixoloji təminat mirajı önəmlidir.

### Sosial məsuliyyət və siyasi gerçəklik

Onu ifadə edir ki, hələ keçən əsrin 80-90-cı illərindən müdrik elm adamları və siyasi zəkası yüksək olan liderlər cəmiyyətdə baş verən keyfiyyət dəyişikliyini aydın görür və onu proqnozlaşdırırdılar. Onlar hiss etmişdilər ki, yeni nəsil insanlar başqa siyasi texnologiyaları qəbul edəcəklər. Onlar üçün klassik anlamda vətən, dövlət, milli maraqlar və s. kimi anlayışlar ön sırada olmayacaq. “Rəngli seçici-millenial” cəmiyyətə “rəngli eynəkdən” baxacaq. Milli dövləti saxlamaq üçün çıxış yolu nədən ibarət ola bilərdi?

Burada hər bir cəmiyyət üçün (yuxarıdakı nümunə də göstərir ki, bu qayda ən yüksək inkişaf etmiş dövlətlərə də aiddir) özünü qorumağa və inkişaf etdirməyə şərait yaradan mənəvi, psixoloji, sosial, iqtisadi və siyasi mühit formalaşdırmaq zəruridir. Bu vəzifə sovetlərdən təzəcə xilas olmuş və müstəqilliyini əldə etmiş cəmiyyətlər üçün daha çox aktuallıq kəsb edir. Çünki köhnə aradan çıxmamışdır və yeni formalaşmamışdır. Məhz həmin məqamda əksər postsovet ölkəsi yanlış yolu seçdilər. Onlar yeni liberalizm adı altında faktiki olaraq “rəngli seçici-millenial” yetişdirən siyasi-ideoloji kurs götürdülər. Kənardan olan təsirlər nəticəsində cəmiyyətlər öz daxillərində özlərinə laqeyd, separatçı, fərdiyyətçi, şəxsi istəklərini və marginal davranışlarını əsas tutan nəsil yetişdirdilər. Həmin kəsim psixoloji olaraq demokrat olduqlarını hesab edirdilər, gerçəklikdə isə cəmiyyətə antidemokratik, səbirsiz, ikili standartlarla və “məhəlli psixologiyası” ilə baxan kəsim idi. Bu insanlar seçkidə düzgün və toplumun xeyrinə seçim edə bilməzdilər, çünki zahirən gözəl həyat, karyera, fərdi fərqlilik və s. kimi illüziyaların içində özlərinə xoşbəxt gələcək axtarışında idilər. İndi postsovet məkanı ölkələrinin bir çoxunda bu sindromdan cəmiyyət əziyyət çəkir, xarici dairələr isə məharətlə istifadə edirlər. Bununla sosial məsuliyyətlə siyasi gerçəklik arasında uçurum getdikcə dərinləşir. Azərbaycan istisna oldu. Hansı səbəblərdən?

### Heydər Əliyev seçimi: minilliyin uğuru

Bu seçimlə təkcə qürur duymaq kifayət etmir. Onun strateji mənasını və əhəmiyyətini anlamaq çox vacibdir. Çünki söhbət əsrin astanasında Azərbaycan Respublikasının seçdiyi dəyərlər sistemindən, dövlət quruculuğu kursunun mahiyyətindən gedir. Ulu öndər Heydər Əliyev postsovet məkanında yeganə dövlət başçısı və lider oldu ki, həmin ziddiyyətli, şirnikləndirici və bu mənada aldadıcı proseslərin “iç üzünü” gördü və ən düzgün seçimi etdi.

İndi aydın olur ki, Ümummilli lider “rəngli seçici-millenіallar”ın formalaşması ehtimalını istisna etməmişdir. Əksinə, bu məqamı məharətlə nəzərə alaraq ön plana gənclərin milli, mənəvi, əxlaqi və siyasi-ideoloji tərbiyəsi məsələsini çıxarmışdır. Heydər Əliyev Azərbaycan cəmiyyətinin demoqrafik passionarlığını diqqətdə saxlayaraq gənclərin toplumda aparıcı rol oynayacağını dəqiq proqnozlaşdırmışdı – “gənclər bizim gələcəyimizdir!”

Deməli, kim azərbaycanlı gənclərin beyninə və qəlbinə hakim olacaqdısa, Azərbaycan da onun olacaqdır! Heydər Əliyev Azərbaycan Respublikasının Azərbaycan xalqının olması üçün xüsusi dövlət quruculuğu konsepsiyasını müəyyən etdi. Burada gənclərin təhsili və siyasi savadı ön planda idi.

Təcrübə göstərir ki, Ulu öndər dahiyanə düzgün yol seçmişdir. Keçən müddətdə Azərbaycan cəmiyyəti “rəngli inqilablara” uymayan və “rəngli seçici-milleniumlara” meydan verməyən gənclər yetişdirə bilmişdir. Onların böyük əksəriyyəti indi YAP-ın əsas aparıcı hissəsini təşkil edir. Məhz bu cür gənclərin dəstəyi ilə Prezident dövləti və cəmiyyəti yeni-yeni uğurlara aparmaqdadır. Kənardan olan heç bir “rəngli təsir” Azərbaycanda ayaq tutub kök sala bilmədi. Bu prosesdə yuxarıda vurğuladığımız siyasi anemiya, siyasi abseintizm və ideoloji qeyri-müəyyənlik meydana gəlmədi. Bu səbəbdən, Azərbaycan Avrasiyada milli ideyanı tam reallaşdıran ölkə oldu! Bu tezis yuxarıda vurğuladığımız siyasi savadlılığın üç prinsipi fonunda olduqca maraqlı görünür.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Samuxda uşaqlara hədiyyə



**Heydər Əliyev Fondu tərəfindən Samux şəhərində 80 yerlik uşaq bağçası – körpələr evi inşa etdirilib.**

Samux Rayon İcra Hakimiyyətinin başçısı Firdovsi Əliyev, Heydər Əliyev Fondunun əməkdaşı Cəmil Əliyev, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Anar Qədiməliyev və təhsil işçiləri uşaq bağçasının açılışında iştirak edib, burada yaradılan şəraitlə tanış olublar.

İkimərtəbəli bir korpusdan ibarət bağça zəruri mebel və avadanlıqla təchiz edilib. Binada metodika otağı, oyun zalı, yeməkxanalar, yataq otaqları, həkim otağı, musiqi və idman zalları və s. yaradılıb.

Bağçanın həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, oyun meydançası salınıb.

***XQ***

# Ankarada “Heydər Əliyev və Türk dünyası” anım proqramı

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Ankara Universitetində Azərbaycanın Türkiyədəki Səfirliyi və Ankara Universitetinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev və Türk dünyası” adlı anım proqramı təşkil olunub.**



Toplantının əvvəlində Azərbaycan və Türkiyənin Dövlət himnləri səslənib, Ümummilli liderin mənalı həyat yolunu əks etdirən qısa film nümayiş etdirilib.

Ankara Universitetinin rektoru Necdət Ünüvar, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım və Milli Məclisin Azərbaycan–Türkiyə parlamentlərarası işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov proqramda çıxış edərək ulu öndər Heydər Əliyevin xalqımız və Türk dünyası qarşısında xidmətləri barədə ətraflı söhbət açıblar.

Ümummilli lideri Gülhanə Hərbi Tibb Akademiyasında müalicə etmiş professor Hayati Bilgiç Heydər Əliyevi şəxsən tanımaqdan, onun sağlamlığının bərpasında fəal iştirak etməkdən duyduğu qüruru ifadə edib.

Paneldə Ankara Universiteti təhsil elmləri fakültəsinin professor Yıldız Dəvəci Bozkuş və Ankara Hacı Bayram Vəli Universitetinin iqtisadi və inzibati elmlər fakültəsinin dosenti Erman Akıllı təqdimatla çıxış edərək Ümummilli liderin Azərbaycanın dövlət quruculuğunda və türk xalqlarının birliyinin və həmrəyliyinin möhkəmlənməsində misilsiz rolundan danışıblar.

Anım mərasimi Ümummilli liderin xatirəsinə həsr olunmuş bədii proqramla başa çatıb.

***XQ***

# Ulu öndərin həyatının əsas qayəsi Azərbaycanın müstəqilliyi idi

**Bütün həyatını Azərbaycanın inkişafına, tərəqqisinə həsr etmiş Ümummilli lider Heydər Əliyevin həyatının bütün məqamları zəngin məna çalarlarına malikdir. Maraqlı fakt odur ki, dahi rəhbərin 1990-cı ildə doğma Vətəninə, uzun illər rəhbərlik etdiyi Azərbaycanın paytaxtı Bakı şəhərinə qayıdışı siyasi mühitdə təşvişə səbəb oldu. SSRİ rəhbərliyinin tapşırıqlarına müti qul kimi itaət edən Azərbaycan "rəhbərliyi" Heydər Əliyevin Bakıda qalmasının qarşısını almaq, onu siyasi fəaliyyətdən uzaqlaşdırmaq məqsədilə terror etmekdən belə çəkinmədilər. Lakin belə hadisələrlə Heydər Əliyevi siyasətdən kənarlaşdırmaq mümkün olacağını düşünmək siyasi diletantlıq olardı.**



**Heydər Əliyevin düşündüyü ideyalar indi də yaşayır. Onun siyasəti davam etdirilir, fəlsəfi fikirlər müasir Azərbaycanımızın qüdrətlənməsi proqramının əsas istiqamətlərini göstərməkdədir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

O dövrkü hakimiyyət daha da irəli gedərək Heydər Əliyevin birdəfəlik siyasi fəaliyyətinə məhdudiyyət qoymaq məqsədi ilə Prezident seçkilərində iştirak üçün yuxarı yaş senzi müəyyən etdi. 26 iyun 1991-ci il tarixdə Ayaz Mütəllibovun imzası ilə Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında Qanun qəbul edildi. Qanunun birinci maddəsində deyilir: "Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının o vətəndaşı seçilə bilər ki, yaşı 35-dən aşağı və 65-dən yuxarı olmasın, beş il Azərbaycan Respublikasında daimi yaşamış olsun və bu Qanuna müvafiq surətdə Azərbaycan Respublikası Prezidenti seçkilərində iştirak etmək hüququna malik olsun."

Bəli, təəssüf ki, bu qanun birbaşa şəxsən Heydər Əliyevin hakimiyyətə gəlişinin qarşısını almağa yönəlmiş hüquqi manеə idi. Ulu öndər isə hakimiyyətə can atmır, öz sakit həyatını yaşamaq üçün doğma Naxçıvana getməyi daha uyğun bildi. Naxçıvan əhalisi Heydər Əliyevi təkidlə fəal siyasətə cəlb etdi. Bu isə Naxçıvanı müstəqillik tariximizin flaqmanına çevirdi.

Təsadüfi deyil ki, müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu prosesi Naxçıvandan başlanıldı. 17 noyabr 1990-cı il tarixində Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında böyük dövlət xadiminin təşəbbüsü ilə ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunması təklif edildi. Dahi şəxsiyyətin özünün işləyib hazırladığı və Ali Məclisdə yekdilliklə qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" tarixi qərarda deyilirdi:

1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.

2. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.

3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin.

Bundan sonra yeni qəbul olunmuş Dövlət bayrağı zala gətirildi və Xalq Cümhuriyyətinin 70 il əvvəl endirilmiş ay-ulduzlu üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildi.

Ulu öndər bu hadisəni belə xatırlayırdı: "Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ Kommunist Partiyası da var idi, sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarılmalıdır. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır – milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq".

Bundan sonra – 18 oktyabr 1991-ci il tarixdə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Tarixi sənədin 2-ci maddəsində deyilir: "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir".

Heydər Əliyevin parlamentdəki ilk çıxışı 7 mart 1991-ci il tarixdə yeni ittifaq müqaviləsinə qoşulmaq məsələsi müzakirə edildiyi zamana təsadüf edir. Həmin vaxt parlament ideoloji baxımdan iki cəbhəyə bölünmüşdü. Bir qisim Azərbaycanın ittifaqdan ayrılıb müstəqil, azad bir dövlət kimi yaşamasının tərəfdarı idi. Digər qisim isə Azərbaycanın ittifaq tərkibində qalmasına tərəfdar idi.

Müstəqillik tərəfdarları Azərbaycan xalqının azadlıq istəyinin carçıları idi. Bu siyasətçilərin önündə Heydər Əliyev idi. Ulu öndər parlamentdəki çıxışında SSRİ-nin siyasi-fəlsəfi mahiyyətini açaraq praktik nümunələr gətirməklə onun imperiya olduğunu bildirir və yeni bir ittifaqa girməyi Azərbaycan xalqı üçün rəva bilmirdi. "Bir sözlə, mən yeni ittifaqa nail olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Bu, bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır. O, öz tarixini yenidən təhlil edir, yenidən qiymətləndirir, öz milli ənənələrini bərpa edir, milli köklərinə qayıdır. Respublikada aşağıdan, xalq kütlələri tərəfindən başlanmış milli dirçəliş, dövlət dirçəlişi hərəkatı inkişaf edir", – deyə Ulu öndər bildirmişdir.

Heydər Əliyev parlamentdəki ilk çıxışında ideoloji məsələyə özünün sərt və açıq münasibətini ifadə etmişdi. O, bu fikirləri söyləməklə respublika rəhbərliyini ölkənin formal deyil, real müstəqillik yolunu tutmasına, aydın ideoloji konsepsiya yaratmağa səsləyirdi. Qeyd edirdi ki, Məmməd Əmin Rəsulzadə partiyasının ideyasını təmsil edən bayraqla ona zidd olan ideyanın banisinin büstünün sessiya keçən salonda yan-yana durması da təəccüb doğurur. Sadəcə desək, bu uyğunsuzluğu anlamaq çətindir. Bəlkə, buna bir izahat vermək lazım idi?

Heydər Əliyevin irəli sürdüyü müstəqil ideoloji konsepsiya tarixi varisliyə əsaslanırdı. O, özünü Xalq Cümhuriyyətinin varisi elan edən bir respublikanı sovet imperiyasına aydın münasibət bəsləməyə çağıraraq deyirdi: "28 May Azərbaycan dövlət qurulușunun dirçəliş günü kimi istirahət günü elan edilib. Məlumdur ki, 28 May 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Belə olan halda bu hadisəyə və 28 aprel 1920-ci il hadisəsinə siyasi qiymət vermək lazımdır. Bu məsələlər gərək Ali Sovetin sessiyasında müzakirə olunsun. İkitərəfli, daha açıq desək, ikiüzlü, qorbaçovsayağı siyasət xalqda inam doğura bilməz. Bu günlərdə Minsk şəhərində çıxış edərkən Qorbaçov kommunist olduğunu, Kommunist Partiyasına axıra qədər sadiq qalacağını təkidlə sübut etməyə çalışırdı. Fəqət, öz andını Kommunist Partiyasına, Leninə, Oktyabr inqilabı ideyalarına tam zidd mövqe tutan Soljenitsının sözləri ilə əsaslandırırdı. Sual olunur: biz hansı məzhəbə itaət etməyə dəvət olunuruq?"

Heydər Əliyevin irəli sürdüyü dövlətçilik konsepsiyasının əsasında müstəqillik ideyası dayanırdı. Ulu öndər çıxışlarının birində milli dövlətçilik şüurunun formalaşması kontekstində tarixi məsələlərə öz konseptual baxışını belə ifadə edir: "Bizim xalqımızın böyük, möhtəşəm tarixi var. Biz öz tariximizlə fəxr edə bilərik. Bizim xalqımızın böyük dövlətçilik tarixi olubdur. Ən qədim dövrlərdən Azərbaycan torpağında əzəmətli dövlətlər olmuşdur. Orta əsrlər Azərbaycan dövlətçiliyi tariximizə gözəl nümunələr vermişdir. Şirvanşahlar dövləti, Atabəylər dövləti, Ağqoyunlular dövləti, Qaraqoyunlular dövləti, Səfəvilər dövləti – bunlar hamısı Azərbaycan xalqının dövlətçiliyinin tarixidir. Ondan sonra Azərbaycanda olan xanlıqlar da dövlətçilik xarakteri daşımışdır. XX əsrin əvvəlində, 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Ondan sonrakı dövr, 1920-ci ildən 1991-ci ilə qədər olan dövr Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil dövlət olmamışdır, ancaq Azərbaycan xalqı böyük bir inkişaf dövrü keçmişdir. Beləliklə, Azərbaycan torpağında ən qədim zamanlardan indiyə qədər müstəqil dövlətlər olmuşdur. Biz bununla fəxr edirik və fəxr edə bilərik".

Heydər Əliyev müstəqilliyin ali məqsədi kimi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunmasına, xalqımızın özünü dərk etməsinə, öz milliyinin sahibi olmasına fədakarlıqla, vətəndaş hünəri ilə çalışırdı. O, yalnız siyasi və iqtisadi deyil, həm də mədəni-mənəvi istiqlal uğrunda da əzmkar mübarizə aparırdı.

Heydər Əliyevin parlamentdəki ilk çıxışını araşdırdıqca müstəqilliyə münasibətdə əsrin əvvəllərində mövcud olmuş kəskin fikir ayrılıqları diqqətimizi cəlb edir. Hələ Azərbaycan Zaqafqaziya seymində olduğu bir vaxtda bir qrup şəxs Azərbaycanın müstəqil ola bilməyəcəyi, nicatımızın yalnız Rusiyada olduğunu səsləndirirdi. Lakin M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, F.X.Xoyski, N.Yusifbəyli isə Azərbaycanın müstəqilliyinə çalışır və bu ideyanı təbliğ edirdilər. Hələ 1917-ci ildə Bakıda Müsəlmanların birinci qurultayında çıxış edən Nəsib bəy Yusifbəyli deyirdi: "Kim deyə bilər ki, biz özümüzü idarəetmə səlahiyyətində bir millət deyilik?!"

Bu tarixi nailiyyəti yüksək qiymətləndirən Heydər Əliyev qeyd edirdi: "XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxardı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı".

Heydər Əliyev tarixi varislik prinsipini ehtiramla qoruyur. Bu irsin daşıyıcılarına böyük hörmət bəsləyirdi. Heydər Əliyevlə Rəsulzadə ailəsinin görüşü barədə böyük siyasi xadimin nəvəsi, Əməkdar rəssam Rais Rəsulzadənin fikirləri maraqlıdır. R.Rəsulzadə bu görüş barədə maraqlı məqamlara toxunaraq deyir: "Bu hadisə atamın Bakıya son gəlişində baş vermişdi. 1991-ci il idi. Atam növbəti dəfə Bakıya gəlmişdi. Məktəb dostlarından biri ilə zəngləşib danışmışdılar, görüşməli idilər. Görüşün vaxtına hələ vaxt vardı. Atam mənə dedi ki, gəl Şəhidlər xiyabanına gedək, şəhidlərimizi ziyarət edək. O vaxt orada 20 Yanvar şəhidləri dəfn edilmişdi. Şəhidlər xiyabanında şəhidlərimizi ziyarət etdik. Şəhidlər xiyabanında heç kim yox idi, ikimiz idik. Birdən atam qoluma toxundu ki, o, Heydər Əliyevdir. Mən də baxdım ki, həqiqətən odur. Onun da yanında jurnalistlər var idi. Özü də girəcəkdə idi, müsahibə verirdi. Onların hamısını araladı, düz bizim yanımıza gəldi. Atamla salamlaşdı, dedi ki, "Siz Məhəmməd Əmin Rəsulzadənin oğlu Azərsiniz?" Atam dedi, bəli. Heydər Əliyev dedi ki, "mən sizi bir dəfə televizorda görmüşəm. Necəsiniz? Nə var, nə yox? Eşitmişdim problemləriniz var. Səhhətiniz nə yerdədi?" Atam da dedi ki, "Necə olacaq, "xalq düşməni" damğasını atmışam, gəlmişəm bura". Heydər Əliyev də dedi ki, "Mən də "kommunist" damğasını atmışam. Sabah burada Milli Məclisdə çıxış etməliyəm".

Bizim burada 3 evimiz var idi, atam deyirdi ki, o evləri aldılar. Atam Heydər Əliyevdən soruşdu ki, "düzünü deyin, mən Bakıya gəlsəydim, siz mənə ev verərdiniz?" Heydər Əliyev də atama dedi, "Əlbəttə, sizə ev verərdim, niyə vermirdim". Bundan sonra Heydər Əliyev çox maraqlı bir tarix danışır: "O vaxtı "Qlavlit"də müdür, bilikli mütəxəssis lazım idi, adam tapa bilmirdik. Bir gün gəldilər ki, biz adam tapmışıq, amma o, olmaz. Dedim niyə? Dedilər, çünki Məhəmməd Əminin qohumudur. Mən də dedim o nə deməkdir ki? Gətirin vəzifəyə həmin adamı. Gəldi, fəaliyyət göstərdi, özünü doğrultdu da həmin adam. Ona görə o vaxt gərək gələrdiniz".

Heydər Əliyev bizimlə görüşdüyü dönəmdə Naxçıvanda fəaliyyət göstərirdi. Ona görə deyirdi ki, indi mənim burada səlahiyyətim yoxdur, amma Naxçıvana gəlin, orada nə şərait istəyirsiniz, sizə yarada bilərəm. Qeyd etdi ki, orada mənim stolumun üstündə Leninin büstü var idi, onu atdıq, Məhəmməd Əmin Rəsulzadənin büstünü qoymuşuq, onun bayrağını asmışıq. Görüş belə oldu..."

R.Rəsulzadə Azərbaycan Televiziyasına müsahibəsində bildirib ki, atasına qarşı dəfələrlə təxribatlar törədiblər. Hətta Məhəmməd Əmin Rəsulzadənin vəfatından istifadə etmək istəyənlər də olub: "1955-ci ildə atamı çağırdılar ki, atanız Ankarada vəfat edib, getmək istəyirsinizmi? Təbii ki, atamı Ankaraya müəyyən şərtlərlə göndərirdilər. Atam 35 yaşında idi, bilirdi ki, şərtlərə məxfi işlərlə məşğul olmaq, kimlərləsə əlaqə yaratmaq da daxildir. Atam dedi ki, getmək istəmirəm".

Rais Rəsulzadə Bakıya niyə gəldiyini də söyləyib: "1965-ci ildə Bakıya gəldim. Atam etiraz eləyirdi. Amma mən hər şeyi bilirdim, deyirdim ki, ədaləti bərpa eləməliyəm".

M.Ə.Rəsulzadənin yadigarı atasının son arzusunu açıqlayıb: "Atam vəsiyyət eləmişdi ki, vətəndə dəfn olunsun. Kimsə gəlib Heydər Əliyevə Rəsulzadənin oğlunun vəfat etdiyini deyəndə soruşmuşdu ki, siz hələ onu gətirməmisiniz? Ondan sonra xəbər aldıq ki, təyyarə gəlir. Gecə ilə gəldilər, apardıq, Novxanıda babasının yanında dəfn elədik".

Müstəqillik Heydər Əliyevin həyatının əsas qayəsidir. Azərbaycan xalqının təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəldiyi ağır dövr haqqında Heydər Əliyev özü belə deyir : "Azərbaycan Respublikasının bu ağır dövründə bu yükü öz üzərimə götürmüşəm. Götürmüşəm ona görə yox ki, bəziləri bu vəzifəyə can atırlar. Götürmüşəm ona görə ki, öz bacı-qardaşlarıma, öz doğma Vətənimə , öz doğma vətəndaşlarıma, öz doğma torpağıma xidmət edim. Dəfələrlə demişəm, həyatımın son dəqiqəsinə qədər mən bu xidməti edəcəyəm. Heç bir şey məni qorxutmur, heç bir şey məni çəkindirmir. Mən bütün bu təxribatların, terrorların qabağında durmuşam və duracağam. Azərbaycanın müstəqilliyini qorumuşam və qoruyacağam".

Heydər Əliyev: "Əgər hansı bir namərd gülləsi, hansı bir terrorçu gülləsi məni həyatdan götürərsə, mənim özüm də, mənim övladlarım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq!"

Heydər Əliyev öz siyasi varisini məhz bu ruhda tərbiyə etmişdir. Müstəqillik onun böyük şövq ilə yetişdirdiyi uğurlu siyasi varis İlham Əliyevin artıq həyat kredosuna çevrilmişdir.

Estafeti uğurla davam etdirən İlham Əliyev 30 illik işğala, 200 illik məğlubiyyət sindiromuna 44 günə son qoydu. Artıq Qafqazda sülh prosesinin fundamental şəkildə yaradılması üçün ciddi siyasi diskussiyalar davam edir.

Artıq Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin edilidikdən sonra bölgədə yeni reallıqlar, yeni çağırışlar diktə edir. Bu reallıqların əsas hərəkətverici qüvvəsi Qafqazın şəriksiz siyasi lideri, müzəffər Ali Baş Komandan İlham Əliyevdir.

Bu günlərdə ADA Universitetində "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda çıxış edən cənab İlham Əliyev bu məsələləri geniş şəkildə müzakirə edərək çox vacib məqamlara toxunub. Bildirib ki, biz ailə üzvlərini itirmiş, özlərinin doğma yurdlarında yaşamaqla bağlı fundamental hüquqlardan məhrum edilmiş insanların taleyini bir kənara qoya bilmərik. Biz Ermənistan ordusu tərəfindən törədilmiş vəhşilikləri unuda bilmərik. Biz heç vaxt Ermənistan və qondarma "Dağlıq Qarabağ rejimi"nin rəhbərliyi tərəfindən törədilmiş Xocalı soyqırımını və günahsız qurbanların xatirəsini unutmayacağıq. Bu səbəbdən həmin yaddaşın bizimlə qalacağını anlamaq olduqca vacibdir. Bu yaddaş qəlblərimizdə yaşayacaq.

Lakin cənab İlham Əliyev sülh axtarışlarının birtərəfli ola bilməyəcəyini vurğulayır: "Biz münaqişədən sonrakı inkişafdan danışırıq və gələcək barışığa apara biləcək müəyyən elementlər üzərində diqqətimizi cəmləşdirməliyik. Lakin Ermənistanda o qədər uzun müddət dövründə Azərbaycana qarşı demonizasiya siyasəti, uydurmalar, azərbaycanlıları düşmən, Azərbaycanın isə sanki Ermənistanı və Qarabağı işğal edən formada təqdimatı hökm sürüb ki, cəmiyyətin bunun əksini dərk etməsi üçün vaxt tələb olunacaq. Yalnız müharibə zamanı deyil, biz müharibədən sonra da eyni davranış nümayiş etdirdik. Biz 1500-dən çox erməni əsgərinin cəsədlərini Ermənistana təhvil vermişik. Biz Rusiya sülhməramlıları ilə birlikdə axtarış əməliyyatlarında iştirak edirik. Onu da deməliyəm ki, Birinci Qarabağ müharibəsində bizim 4 min hərbçimiz itkin düşüb və bir cəsəd belə bizə qaytarılmayıb. Budur, aramızda olan fərq. Biz dəmir yolumuz vasitəsilə Rusiya sülhməramlı qüvvələrinə maneəsiz nəqliyyat və logistika dəstəyini təmin edirik. Onlar dəmir yolu vasitəsilə yüklərini Bərdəyə daşıyır. Bu yüklərin hava yolu ilə İrəvana, oradan isə 5-6 saat avtomaşınlarla Laçın dəhlizindən daşınmasından daha tez və ucuz başa gəlir. Mən digər çoxsaylı nümunələr sadalaya bilərəm".

Bu gün Azərbaycan sürətli inkişaf mərhələsindədir. Dünya dövlətlərinin uzun illər boyu həll edə bilmədikləri problemləri özü həll etdi. Bütün bunları, təbii ki, sıradan bir hadisə kimi qiymətləndirmək olmaz. Bunu dəqiq düşünülmüş və hesablanmış siyasət və strategiyanın, həmrəyliyin, güclü iqtisadiyyatın və siyasi varisliyin son nəticəsi kimi qiymətləndirmək lazımdır. Cənab İlham Əliyev haqlı olaraq Azərbaycanın işıqlı gələcəyinin məhz Heydər Əliyev siyasi kursu ilə bağlı olduğunu qeyd edir. Bu siyasi kursun elmi şəkildə öyrənilməsi həm siyasətçilər, həm də tədqiqatçılar üçün zəruridir. Çünki bu siyasi kurs Azərbaycanın uzun müddətli parlaq gələcəyini müəyyən edəcək.

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

**İnsan doğulduğu və öldüyü günləri özü müəyyən edə bilmir. Amma bu iki gün arasındakı ömür yolunu, həyatı necə yaşamaq insanın özündən, istedadından, ağlından, biliyindən, zəhmətindən, xarakterindən asılıdır. Dünyada nə qədər insan varsa, o qədər də tale var… Hər kəs öz ömrünü bir cür yaşayır: bədbinlik və uğursuzluq içində ömrünü başa vuran da var, bomboz, miyanə ömür sürən də var, mübarizə dolu, şərəfli qalib ömrü yaşayan da. Bir də seçilmişlər var ki, Ulu Tanrı onları Yer üzünə sanki, xüsusi missiya üçün seçib göndərir. Bu seçilmişlər xalqların və bəşəriyyətin həyatında xüsusi rol oynayır, milyonları xilas edir, cəmiyyətə xoşbəxtlik və rifah bəxş edirlər.**

# Heydər Əliyev yolu və tarixi missiyanın uğurlu davamı



Heç şübhəsiz ki, XX əsrdə Tanrının seçib yer üzərinə xüsusi missiya ilə göndərdiyi dahilərdən biri də müasir Azərbaycan dövlətinin banisi və qurucusu ulu öndər Heydər Əliyevdir. Azərbaycan xalqı istedadlı və qüdrətli xalqdır və xalqımız çoxəsirlik tarixi boyu onlarca dünya şöhrətli dahi şəxsiyyət, dövlət, hərbi, ədəbiyyat və mədəniyyət xadimləri yetirmişdir. Lakin olu öndər Heydər Əliyev onların fövqündə dayanan, bəşər övladının min ildə bir yaratdığı tarixi şəxsiyyətdir.

Heydər Əliyev öz xalqı üçün iki dəfə və bir-birinə zidd ictimai-siyasi formasiyada dövlət qurmuş, regionda tarixin gedişini dəyişə bilmiş böyük dövlət adamıdır. Ulu öndərin bütün həyatı mübarizələrdə keçmişdir və həmişə qalib gəlmişdir. Çünki onun mübarizəsi haqq işi uğrunda, ədalət uğrunda, canından əziz sevdiyi Vətəninin işıqlı sabahı və xalqının xoşbəxtliyi yolunda olmuşdur.

1969-cu ilin 14 iyul tarixində Sovet Azərbaycanına rəhbərliyə irəli çəkilən Heydər Əliyev böyük inamla və o dövrün tələblərinə rağmən cəsarət nümayiş etdirərək, təkcə rəhbərlik etdiyi respublikaya deyil, bütün Sovetlər İttifaqına bəyan etdi ki, bu cür yaşamaq və işləmək olmaz. Həmin vaxtlar Azərbaycan sosial-iqtisadi göstəricilərinə görə SSRİ-nin 15 respublikası arasında axırdan ikinci yerdə idi. Ölkədə rüşvət, korrupsiya, ətalət, intizamsızlıq baş alıb gedirdi, mədəniyyət və elm sahəsində deqradasiya başlamışdı, əhali, xüsusi ilə kənd adamları yoxsulluğun cəngində boğulurdu. Yeni ideyalar və çağrışlarla ölkə həyatına bir dinamizm gətirən Ulu öndər qısa müddət ərzində respublikadakı bütün sağlam qüvvələri səfərbər edib bir məqsədə – Azərbaycanın iqtisadi qüdrətinin artmasına və Azərbaycan xalqının mili-mənəvi və sosial dirçəlişinə yönəldə bildi. Heydər Əliyevin o illərdə irəli sürdüyü "Qoy ədalət zəfər çalsın!" şüarı həm də Ulu öndərin dünyaya baxışının və mübarizəsinin kredosu idi!

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969–1982-ci illər Sovet Azərbaycanının tarixinin ən parlaq, ən xoşbəxt və ən şərəfli səhifələridir. Bu illər ərzində Azərbaycan İttifaq dövlətinin ən geridə qalmış xammal bazası olan respublikasından yüz minlərlə insanın çalışdığı və yüksək əməkhaqqı aldığı zavod və fabriklərə malik, zəngin və qüdrətli sənayesi, inkişaf etmiş heyvandarlıq, emal sənayesi kompleksləri, məhsuldar pambıq, üzüm və taxıl tarlaları, bağ-bostan sahələri olan şöhrətli ölkəyə çevirildi. Heydər Əliyevin həmin dönəmdə öz xalqı qarşısında ən böyük xidmətlərindən biri də müasir milli elitanın yaranması və formalaşmasına böyük qayğı göstərməsi idi.

O illərdə Azərbaycan mədəniyyəti və incəsənəti, təhsili və elmi ən parlaq dövrünə qədəm qoydu, Rəşid Behbudov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov, Niyazi, Polad Bülbüloğlu, Fərhad Bədəlbəyli, Zeynəb Xanlarova, Vaqif Mustafazadə və s. incəsənət xadimlərinin musiqisi və bəstələri ölkə və ittifaq salonlarını aşaraq dünyanı dolaşmağa başladı. Onlarca ədəbiyyat və mədəniyyət xadimlərimiz məhz Heydər Əliyevin böyük köməyi sayəsində SSRİ-nin ən ali mükafatına – Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüldü. Bütün bunların arxasında bir məqsəd, bir amal dayanırdı: doğma Azərbaycanı tanıtmaq, sevdirmək ona hörmət və şöhrət gətirmək! Ulu öndər bunu bacardı!

Əslən Bakıdan olan, uzun illər SSRİ Dövlət Plan Komitəsinin sədri vəzifəsində işləmiş Nikolay Baybakov deyirdi: "Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci bir adam tanımıram". Ulu öndərin öz Vətəninə və xalqına hədsiz sevgisi və bağlılığı həm də onun zəngin mənəviyyatının bir göstəricisi idi. Heydər Əliyevin həyat və mübarizə yolu böyük bir məktəbdir, onun fəaliyyətinin hər günü bir dərslikdir. Bəzən deyirlər ki, siyasətdə səmimiyyət olmur. Amma Ulu öndər bunun əksini subut etmiş oldu. Bir müsahibəsində jurnalistin siyasətdə ən çox önəm verdiyiniz nədir? – sualına cavab olaraq söyləmişdi: – səmimiyyət!

Ulu öndər sevgisində də, qayğısında da, təbəssümündə də, tərifində də səmimi idi. İntizamı, çalışqanlığı, dürüstlüyü yüksək qiymətləndirən böyük rəhbər bəzən ildırım kimi çaxan qəzəbində də, qılınc kimi kəsən tənqidində də səmimi idi. Ümummilli lider böyük amalların, böyük düşüncələrin, böyük məqsədlərin adamı idi, həsəd, qısqanclıq, qisasçılıq kimi hisslər ona yad idi. Çıxışlarından birində söyləmişdi ki, mənə qarşı olan heç bir yaxşılığı, diqqəti, hörməti heç zaman unutmadım, əksinə mənə qarşı olan dönüklüyü, xüsusilə, qayğı göstərdiyim, irəli çəkdiyim adamların namərdliyini bağışladım, heç kimə qarşı nə kinim, nə nifrətim yoxdur, zaman onların qiymətini vermişdir. Bu yanaşma Ulu öndərin yüksək mənəvi keyfiyyətlərindən biri olmaqla yanaşı, həm də onun birləşdiricilik missiyasının tələbatından irəli gəlirdi.

Bir sıra politoloqlar, siyasi təhlilçilər Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətini araşdırarkən müxtəlif dövrlərə, mərhələlərə bölürlər. Fikrimcə, bu bölgülərin hamısı şərtidir. Ulu öndərin həyatı və mübarizəsi tamdır, bütövdür və bu şərəfli yolun hər addımı Azərbaycana xidmətdən ibarətdir.

Böyük dövlət xadimi Heydər Əliyevin fəaliyyətinin DTK dövrü də, Azərbaycan Kommunist Partiyası dövrü də, Moskvada rəhbərlik dövrü də, vəzifələrindən kənarlaşdırıldığı dövr də, Naxçıvan dövrü də, müstəqil Azərbaycanın dövlət quruculuğu dövrü də bir mükəmməl siyasət dərsliyinin bir-biri ilə sıx bağlı fəsilləridir. Ulu öndərin həyatı və mübarizəsi həm də hər kəs üçün bir örnək, mərdlik, ədalət, əxlaq, mənəviyyat, müdriklik məktəbidir.

Heydər Əliyev taleyinə böyük missiya yazılmış xarizmatik bir lider kimi dünya siyasət tarixində öz şərəfli yerini həmişəlik müəyyən etmişdir. Xarizmatik liderlərə xas bütün üstün keyfiyyətlər: cazibədarlıq, cəsarətlilik, zamanında düzgün qərarvermə bacarığı, müdriklik, resursları düzgün qiymətləndirmək və səfərbər etmək, yüksək intizam və təşkilatçılıq, fenomenal yaddaş, parlaq zəka və natiqlik, dərin bilik və geniş dünyagörüşü, boy-buxun, şax qamət, səliqəli geyimi, dəqiq jestləri onu duruşu, baxışı Ulu Öndər Heydər Əliyevi təkcə öz xalqının deyil, dünyada onu tanıyan hər kəsin sevimlisi etmişdi. Ulu öndəri dünya liderlərinin hamısı tanıyırdı, hər kəs onu məftunluqla dinləyir, ondan öyrənir, onunla hesablaşırdı. Təsadüfi deyildi ki, ABŞ, Prezidenti Bill Klinton Azərbaycan xalqının milli liderinə yüksək qiymət vermiş və söyləmişdi: Heydər Əliyev nəinki Azərbaycanı, nəinki Amerikanı, bütün dünyanı idarə etməyə qadir olan böyük dövlət xadimidir.

Bir neçə kəlmə də Ulu öndərin tarixi missiyası barədə fikirlərimi bölüşmək istəyirəm. Bu barədə müxtəlif politoloqların çıxışlarında və məqalələrində bənzər və fərqli fikirlər olduğunu da təbii qəbul etmək lazımdır. Çünki Ümummilli liderin parlaq şəxsiyyəti, yorulmaz və çoxşaxəli fəaliyyəti, qalibiyyətli mübarizə yolu onun yer adamından çox, Tanrının xüsusi missiya daşıyan seçilmişlərdən olduğu qənaətini hər kəsdə yaqinləşdirir. Heç şübhəsiz ki, Ulu öndərin öz Vətəni və xalqı qarşısında ən birinci missiyası dövlət quruculuğu missiyası idi ki, bu şərəfli vəzifəni, o, iki dəfə, həm Sovet Azərbaycanını inkişaf və tərəqqi yoluna çıxarmaqla, həm də müasir müstəqil dövlətimizi qurmaqla, qoruyub möhkəmləndirməklə yerinə yetirmiş oldu.

Ulu öndərin ikinci missiyası, fikrimcə, xilaskarlıq missiyası idi. Bu missiyasını yerinə yetirərkən Heydər Əliyev həm ayrı-ayrı fərdləri, həm də xalqı və dövləti faciələrdən, fəlakət və məhvolma təhlükəsindən xilas etmişdir. Sovet hökuməti zamanında Azərbaycanın dövlət təhlükəsizlik orqanlarında və Kommunist Partiyasının rəhbərliyində olarkən Ulu öndər onlarca ziyalımızı, şairi, yazıçını, bəstəkarı, alimi təhlükəsizlik və inzibati orqanların təqibindən xilas etmişdi. İndiki "Xalq qəzeti"nin və Azərbaycan Dövlət Universitetinin 50 illik yubileylərində və Yazıçılar İttifaqının qurultaylarında Azərbaycan dilində nitqi dilimizin, böyük ədib Hüseyin Cavidin cənazəsinin uzaq Sibirdən tapılıb Vətənə gətirilməsi fəlsəfi fikrimizin və mənəvi dünyamızın, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza, Sabir Əhmədov və s.kimi qələm sahiblərinin təqib və cəzalardan xilas edilməsi ədəbiyyatımızın qorunması və diri qalması yolunda Ulu öndərin xilaskarlıq missiyasının parlaq təzahürü idi.

Hər kəs bilir ki, əgər 1993-cü ilin iyununda Heydər Əliyev Azərbaycana rəhbərliyi öz üzərinə götürməsəydi, dövlətçiliyimizin taleyi çox qaranlıq və naümüd olacaqdı. Bunu Heydər Əliyevə ən barışmaz müxalifətdə dayananlar da, hətta Azərbaycanın düşmənləri də etiraf edirlər. Milləti yox olmaqdan, dövləti süqut etməkdən, ölkəni parçalanıb dünya xəritəsindən silinmək təhlükəsindən məhz Heydər Əliyev xilas etdi! Bunu heç kəs bacarmazdı, yalnız böyük Allahın köməyi ilə, öz xalqına arxalanan Ulu öndər bacardı: cəsarət, müdriklik, siyasi iradə, dövlətçilik təcrübəsi, gərgin çalışmalar və ən düzgün zamanda ən doğru qərarı vermək bacarığı hesabına!

Nəhayət, Ulu öndər öz xalqı qarşısında üçüncü missiyası birləşdiricilik missiyası idi. Dahi dövlət xadimi və siyasət ustası Heydər Əliyev hamıdan yaxşı bilirdi ki, dövləti qorumaq, möhkəmləndirmək, torpaqlarımızı erməni işğalından azad etmək üçün iqtisadi, siyasi, hərbi gücün mənbəyi yalnız milli ruhun gücü ola bilər, bu güc isə milli birlikdən yaranır və bu güc qarşısında heç bir qüvvə dayana bilməz. Milli birlik isə milli ideya ətrafında yarana və formalaşa bilər. Həmin dövr üçün ən ümumi və birləşdirici milli ideya isə Ulu öndərin müəllifi olduğu azərbaycançılıq məfkurəsi idi. Azərbaycançılıq ideyası qısa zamanda formalaşdı, yayıldı, həyatda özünə yer tutdu və 50 milyondan artıq dünya azərbaycanlılarını bir amal, bir Vətən, bir dövlət, bir bayraq ətrafında birləşdirə bildi.

Dini hədislərin birində deyilir: O şəxs Allahın sevimli bəndəsidir və yeri cənnətdədir ki, həyatı boyu bir ev tiksin, bir ağac əksin və yolunu davam etdirən bir övlad dünyaya gətirsin. Ulu öndər Allahın sevimli bəndəsidir ki, Azərbaycan boyda bir ev – dövlət qurmuşdur və bütün dünya azərbaycanlıları bu dövləti özünün evi, ata ocağı bilir!

Ulu öndər Yeni Azərbaycan Partiyasını yaratmaqla məmləkətdə həmişəyaşıl və bol meyvəli bir ağac əkmiş oldu. İndi bu partiya ölkənin ən fəal fikir, elm və milli düşüncə adamlarını öz ətrafına birləşdirib.

Heydər Əliyevin oğlu və siyasi varisi cənab Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirərək onun arzu etdiyi, planlaşdırdığı, lakin yerinə yetirməyə imkan tapmadığı bütün tarixi missiyaları yerinə yetirdi. Bu missiyanın başında isə Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması dayanırdı.

Bəli, 2020-ci ildə 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə xoş sevincli günlər yaşadıq. Bu sevincli günlərə qədər isə 30 ilə yaxın yol gəldik, ilk günlərdə çox bərkə-boşa düşdük, ağrıdıq, çətinliklərdən keçdik.

Ümummilli lider Heydər Əliyev doğru olan yolu bizə göstərdi, söylədi, inandırdı ki, uğurumuz bir yerdə yumruq kimi birləşərək güclü dövlət qurmaqdan, qüdrətli ordu yaratmaqdan keçir. Xalq ona inanırdı, çünki öz liderini çox yaxşı tanıyırdı, ona görə də dara düşəndə xilaskar kimi onu çağırdı, O gəldi, dövləti dağılmaqdan, milləti məhv olmaqdan qorudu, məmləkətin özü kimi tikə- parça olmuş ümidlərimizi bir yerə yığdı, məlhəm qoydu, sarıdı, sağaltdı. Eynən mahir bağbanın qasırğadan sınmış fidan tingini sarıyaraq təzədən bitişdirdiyi kimi, böyütdü milləti böyük xilaskar. Sonra tamamlayıb başa çatdıra bilmədiyi işləri özü kimi inandığı varisinə – cənab İlham Əliyevə həvalə etdi.

Cənab İlham Əliyev 2003-cü ildə prezident kimi ilk andiçmə mərasimində bütün dünyaya bəyan etdi: Bizim yolumuz Heydər Əliyev yoludur! Bu yol bizi işıqlı, xoşbəxt, firavan günlərə aparacaq. İyirmi bir ildir həmin yolla uğura doğru, işığa doğru, haqqa doğru gedirik.

Biz bu illər ərzində başqa xalqların, bəlkə də, 100 illərlə keçə bilmədiyi yenilənmə, tərəqqi, özünüdərk, milli- psixoloji transformasiya yolu keçdik. Bizi bu yolda qətiyyətlə, mətin addımlarla inamlı qələbələrə aparan Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müasir dövlət qurduq, özümüzü dünyaya sübut erdik, güclü, modern ordu yaratdıq, BMT Təhlükəsizlik Şurasının iclaslarına sədrlik elədik, Kosmos klubunun üzvü olduq, "Avroviziya" mahnı müsabiqəsinin qalibi olduq, Avropa Oyunlarına, İslam Olimpiya oyunlarına, onlarca beynəlxalq iqtisadi, siyasi, humanitar tədbirlərə evsahibliyi etdik, uğurlar qazandıq. Bu ilin payızında isə dünyanın ən böyük forumlarından birinə – COP 29-a evsahibliyi edəcəyik.

Bu illər ərzində milli-psixoloji transformasiyamızda, heç şübhəsiz ki, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın böyük xidmətləri mütləq qeyd olunmalıdır. Məhz hörmətli Mehriban xanım müstəqil Azərbaycan dövlətində Birinci xanım institutunu yaratdı, formalaşdırdı və onu mühüm dövlətçilik atributuna çevirdi.

Məhz Mehriban xanım Əliyevanın yaratdığı və rəhbərlik etdiyi Ulu öndərin adını daşıyan Heydər Əliyev Fondu təkcə Azərbaycanda deyil, eləcə də ölkə hüdudlarından kənarda humanizm, xeyirxahlıq, şəfqət, sosial dəstək ünvanına çevrildi.

Ulu öndər Heydər Əliyev zamanında böyük səylər göstərsə də, həmin dövrdə Ermənistan rəhbərliyinin təkəbbürlü nadanlığı, beynəlxalq güclərin ikiüzlülüyü, imperialist dövlətlərin Qafqazda maraqlarının toqquşması Qarabağ məsələsinin diplomatik yolla həllinə imkan vermədi. Müharibə yolu ilə məsələnin həlli üçün qüdrətli dövlət, güclü iqtisadiyyat və qalibiyyətli ordu yaratmaq, beynəlxalq ictimaiyyətin nüfuzunu və dəstəyini qazanmaq üçün uzun zaman, məqsədyönlü fəaliyyət, dəqiq proqram, böyük siyasi iradə, gərgin zəhmət lazım idi.

Tanrı bu şərəfli missiyanı Ali Baş Komandan İlham Əliyevin qismətinə yazmışdı. Cənab İlham Əliyev öz xalqı ilə birlikdə bu işi bacardı və müasir bütöv Azərbaycan dövlətinin qurucusu, torpaqları işğaldan azad edən sərkərdə kimi öz şərəfli adını qızıl hərflərlə tarixə yazdırdı.

Yəqin ki, tədqiqatçılar Azərbaycanın 44 günlük Zəfər yürüşü fenomeninin müxtəlif aspektlərini araşdıracaq, nəticələr çıxaracaq, nümunə kimi göstərəcəklər. Lakin bir həqiqət gün kimi aydındır: Qələbənin uğur formulu çox sadədir: müzəffər Komandan + müzəffər Ordu+ müzəffər Xalq. Qələbənin uğur simvolu isə heç şübhəsiz ki, "Dəmir yumruq"dur – düşmənin başını ilan başı kimi əzən "dəmir yumruq!"

Azərbaycan tarixi qələbəsinin şəksiz və şəriksiz qəhrəmanı cənab Ali Baş Komandandır!

Cənab Prezident 44 gündə həm hərbi, həm siyasi, həm diplomatik, həm informasiya, həm təbliğat cəbhəsində mübarizə apardı, öz dövlətinin və xalqının maraqlarını ləyaqətlə qorudu və təmin etdi. Həmişə də inamlı danışdı, cəsarətli danışdı, bir dəfə də olsun təmkinini pozmadı, yüksək intelekt, savad və diplomatik peşəkarlıq nümayiş etdirdi. Azərbaycanı bir daha dünyaya tanıtdı, hər kəsə də öz yerini göstərdi.

...Bu gün Ulu öndər Heydər Əliyevin ruhu şaddır. Onun canından artıq sevdiyi Azərbaycanın ərazi bütövlüyü təmin olunmuşdur. Qarabağ torpaqları işğaldan azad edilmişdir. Üçrəngli Azərbaycan Bayrağı Xankəndidə, Şuşada, Xocalıda, Ağdamda, Füzulidə, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Laçında, bütün Qarabağda dalğalanır. Xalqın torpaq həsrətinə son qoyulmuşdur. Zamanında Ulu öndər tərəfindən cənnətə çevrilən Qarabağın ikinci əbədi dirçəlişi və yüksəlişi başlamışdır.

...İndi Heydər Əliyevin ruhu şaddır, çünki siyasi varisi Ali Baş Komandan İlham Əliyev onun bütün vəsiyyətlərini və arzularını Azərbaycan xalqının dəstəyi ilə, böyük fədakarlıq və qəhrəmanlıqla həyata keçirib.

Ümummilli liderin müqəddəs yolunu Zəngəzur dağlarının zirvələrinə qədər ləyaqət və hünərlə davam etdirən Ali Baş Komandan İlham Əliyev Şuşanın işğaldan azad olunması müjdəsini Şəhidlər xiyabanından xalqımıza verərkən dedi: "Mən bu gün, eyni zamanda, Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik"! Bəli, biz Şuşanı da, Laçını da, Xankəndini də azad etdik, indi o torpaqlarda böyük bərpa- quruculuq işləri gedir, məcburi köçkün soydaşlarımızın həsrətinə son qoyulmuşdur.

Tarixi missiya isə davam edir, qarşıda bizi daha da böyük, daha da qüdrətli Azərbaycan uğrunda yeni zəfərlər gözləyir. Yaxın vaxtlarda böyük sülh müqaviləsini də imzalayacağıq, bütün kommunikasiyalar, o cümlədən, Zəngəzur dəhlizi də açılacaqdır. Bölgənin yeni həyatı, inkişafı, sabitliyi, əməkdaşlığı və tərəqqisi başlayacaqdır. Ulu öndər Heydər Əliyevin dediyi tarixi sözlər həyatda növbəti dəfə təsdiqini tapacaq, "Azərbaycan dünyaya Günəş kimi doğacaqdır"!

***Musa URUD,***
***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü***

# AMEA-da "Dostluğun siması" sənədli filminin və "Heydər Əliyev – Gürcüstan" kitabının təqdimatı

**AMEA-nın Rəyasət Heyətində Ümummilli lider Heydər Əliyevə həsr edilmiş, Gürcüstanın "Dalğa" televiziyasının və "ERA" film studiyasının birgə ərsəyə gətirdiyi "Dostluğun siması" sənədli filminin və "Heydər Əliyev – Gürcüstan" kitabının təqdimat mərasimi keçirilib.**



AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkəmizdə və dünyada Ümummilli liderin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş silsilə tədbirlərin keçirildiyini, bugünkü təqdimat mərasiminin də Ulu öndərin əziz xatirəsinə ithaf edildiyini bildirib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Ulu öndər müasir Azərbaycanın müstəqilliyinin banisidir və ötən əsrin 90-cı illərində respublikamızı məhv olmaqdan xilas etmiş, zəngin dövlət idarəçiliyi təcrübəsi ilə ölkəmizin dünya dövlətləri sırasında özünəlayiq yer tutması üçün önəmli addımlar atmışdır.

Prezident İlham Əliyevin Ümummilli liderin ideallarını inkişaf etdirərək və daha da zənginləşdirərək ölkəmizi dünyada söz sahibi olan dövlətlərdən birinə çevirdiyini deyən akademik İsa Həbibbəyli bugünkü Azərbaycanın uğurlarının təməlində dahi liderin arzularının dayandığını vurğulayıb.

Ümummilli liderin həm də Azərbaycana dost və etibarlı tərəfdaşlar qazandırdığını deyən AMEA rəhbəri bunların içərisində Gürcüstanın xüsusi yer tutduğunu söyləyib. Qeyd edib ki, müasir dövrdə bu dostluğun təməllərini Ümummilli lider Heydər Əliyev və Gürcüstanın keçmiş prezidenti Eduard Şevardnadze atıb və hər iki lider "Qafqaz evi"nin yaranmasına və daim qorunmasına çalışıb. Həmçinin vurğulayıb ki, Bakı–Tbilisi–Qars dəmiryol xətti və Bakı-Tbilisi-Ceyhan boru kəməri kimi meqalayihələrlə iqtisadi əməkdaşlığımız güclənib, məhz Ulu öndərin təkidi ilə "Bakı–Ceyhan" boru kəmərinin adına "Tbilisi" sözü əlavə edilib.

İki ölkə arasında elmi əlaqələrə də toxunan akademik İsa Həbibbəyli AMEA-nın Gürcüstan Milli Elmlər Akademiyası ilə sıx əməkdaşlıq etdiyini, GMEA-nın prezidenti akademik Roin Metrevelinin Azərbaycan xalqının dostu olduğunu bildirib. Diqqətə çatdırıb ki, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun əməkdaşlığı nəticəsində Bakıda, Tbilisidə və Kembric Universitetində "Nizami Gəncəvi və Şota Rustaveli" monoqrafiyası Azərbaycan, gürcü və ingilis dillərində



nəşr edilib.

Əməkdar jurnalist Şahismayıl Şəmmədoğlunun müəllifi olduğu "Heydər Əliyev – Gürcüstan" kitabını və ssenari müəllifliyi ilə çəkilən "Dostluğun siması" sənədli filmini yüksək qiymətləndirən akademik İsa Həbibbəyli filmdə gürcü ziyalıların Ulu öndər haqqındakı ali fikirlərinin iki ölkə arasındakı bugünkü münasibətlərin göstəricisi olduğunu bildirərək kitabın və sənədli filmin elmi əhəmiyyətini diqqətə çatdırıb.

Şahismayıl Şəmmədoğlu Azərbaycan-Gürcüstan dostluq əlaqələrinin tarixinə toxunub, bildirib ki, ötən əsrin 90-cı illərində Ümummilli liderin məqsədyönlü siyasəti nəticəsində iki ölkə arasındakı münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub, Qafqazda sülh və sabitlik bərqərar olub. O, həmçinin müxtəlif illərdə işıq üzü görmüş və müəllifi olduğu "Heydər Əliyev – Gürcüstan" kitabları,



eləcə də ssenarisi əsasında çəkilmiş filmlər haqqında ətraflı məlumat verib.

Tədbirdə çıxış edən Gürcüstan Strateji Araşdırmalar Mərkəzinin sədri Levan Mamaladze "Heydər Əliyev və Gürcüstan" filminin əhəmiyyətindən bəhs edib. Natiq Ümummilli liderin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən, Ulu öndərin Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadze ilə dostluq və qardaşlıq münasibətlərindən ətraflı danışıb. Qeyd edib ki, çətin, mürəkkəb dönəmdə Heydər Əliyev yeni dövlət strukturlarını yaradaraq yalnız Azərbaycan üçün deyil, bütövlükdə Qafqaz üçün əhəmiyyətli möhkəm sütun formalaşdırıb.

O, Ulu öndər Heydər Əliyevlə şəxsi tanışlığından və söhbətlərindən bəhs edib. Ümummilli liderin Gürcüstana olan səmimi münasibətini yüksək dəyərləndirib.

Mərasimdə, həmçinin Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, AR Elm və Təhsil Nazirliyinin Həsən Əliyev adına Coğrafiya İnstitutunun şöbə müdiri professor Rza Mahmudov və Gürcüstan parlamentinin azərbaycanlı deputatı Ramiz Bəkirov çıxış edərək Azərbaycan–Gürcüstan əlaqələrindən, Ulu öndərin Qafqaz siyasətindən danışıb, belə bir filmin və kitabın ərsəyə gəlməsini yüksək qiymətləndiriblər.

Çıxışlardan sonra ssenari və ideya müəllifi, həmçinin prodüseri Şahismayıl Şəmmədoğlu, quruluşçu rejissorları Elnur Vəlizadə və Georgi Toradze olan "Dostluğun siması" sənədli filmi nümayiş etdirilib.

***XQ***

# Uğurlarımızın memarı

(əvvəli 6-cı səhifədə)

Bəzən məndən soruşurlar ki, Heydər Əliyevlə işləmək çətin idimi? Bəli, Ulu öndər çox tələbkar idi, bu baxımdan onu qane etmək çətin idi, o, hər işin ən yaxşısını, ən keyfiyyətlisini tələb edirdi, gərək işə onun özü kimi bütün varlığını qoyaydın, başdansovdu, yarımçıq, gözə kül üfürmək üçün görülən işləri o dəqiqə hiss edirdi. Eyni zamanda, ədalətli, müdrik bir rəhbər idi. Doğrudur, verdiyi hər bir tapşırığın icrasında maksimum mükəmməllik tələb edirdi, xatirindən heç nə çıxmaz, ən xırda detal belə nəzərindən yayınmazdı. Bununla belə, heç kəsin haqqında kiminsə sözü ilə qərar qəbul etməzdi, heç vaxt şəxsi münasibətini milli maraqlardan yüksək tutmazdı, kiminsə şəxsi keyfiyyətləri xoşuna gəlməyə bilərdi, ancaq əgər həmin insan xalq üçün, ölkə üçün fədakarlıq edirdisə, işinə can yandırırdısa, Heydər Əliyev onun bütün günahlarını bağışlayardı. Əlbəttə, onun etimadına layiq olmaq, onun qarşıya qoyduğu vəzifələri yerinə yetirmək, həm də böyük şərəf və məsuliyyət idi.

Mən belə hesab edirəm ki, Ulu öndər Heydər Əliyevin Vətən, xalq qarşısında çoxsaylı xidmətlərinin ən böyüyü özündən sonra qurub yaratdıqlarını qoruyan, inkişaf etdirən, açdığı cığırları geniş yollara çevirən, başladığı layihələri uğurla başa çatdıran, ən başlıcası isə ata vəsiyyətini həyata keçirən İlham Əliyev kimi bir lideri yetişdirməsidir. Hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində Ümummilli lider xalqa müraciətində böyük uzaqgörənliklə demişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Heydər Əliyevin təməlini qoyduğu, strateji kursunu hazırladığı bu çətin, lakin şərəfli yolda böyük uğurlara imza atmışıq. 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməyimizdən, habelə 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməyimizdən Birinci Avropa oyunlarının, "Avrovizion" mahnı müsabiqəsinə yüksəlməyimizə kimi çox nailiyyətlər görmüşük. Bu uğurların zirvə nöqtəsi isə heç şübhəsiz, Vətən müharibəsindəki parlaq Qələbəmizdir. Bu qələbəni əsgər və zabitlərimiz döyüş meydanında, İlham Əliyev həm Ali Baş Komandan kimi, həm Azərbaycan Respublikasının Prezidenti, siyasi lider kimi, həm də ata nəsihətini, vəsiyyətini yerinə



yetirən layiqli bir övlad kimi qazanmışdır.

Keçən il sentyabr ayının 19-da başladılan, cəmi 23 saat 41 dəqiqə davam edən lokal antiterror tədbirləri Vətən müharibəsinin uğuruna uğur qatdı, Ağdərə, Xocalı, Xankəndidə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa edildi. Bütün bunlar Ali Baş Komandanın uzaqgörən siyasətinin nəticəsidir.

Bu gün Azərbaycanın iqtisadi və hərbi gücü bölgədəki siyasi vəziyyəti, baxışları kökündən dəyişib. Ölkəmizə qarşı daim ikili mövqedə dayanan bir sıra dövlətlər belə artıq Azərbaycanın bölgədə yaratdığı yeni reallıqlarla barışmaqdan başqa yollarının qalmadığını anlayırlar. Heç şübhəsiz ki, regionumuzdakı yeni siyasi konfiqurasiyanı bütün bölgə dövlətlərinin qəbul etməsindən sonra Fransa kimi uzaqdan hay-küy salanların da sakitləşməkdən başqa çarəsi qalmır. Bütün bunlar müdrik siyasətçi, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin Cənubi Qafqazın taleyini dəyişən, onun sülh, əməkdaşlıq və inkişaf məkanına çevrilməsinin əsasını qoyan, gələcək parlaq tarixinin ilk səhifələrini yazan siyasətinin nəticəsidir.

1990-cı illərin əvvəllərində ağır xəbərlərə öyrəşən xalqımız son dövrlərdə bir-birinin ardınca sevindirici xəbərlər almağa vərdiş etmişdir. Belə ki, bir müddət əvvəl Rusiya sülhməramlılarının ərazilərimizdən çıxmasına sevinən xalqımız, bir neçə gün sonra Qazaxın 4 qeyri-anklav kəndinin Azərbaycana qaytarılması xəbərini də böyük sevinclə qarşıladı. 44 günlük Vətən müharibəsindən sonra yaratdığımız yeni reallıq işğal altında qalmış ərazilərimizi güllə atılmadan, silah işləmədən azad olunmasına yol açdı. Bu proses Laçın, Kəlbəcər və Ağdam rayonlarının azad olunması ilə başlandı və bu gün də Qazaxın 4 kəndinin azad olunması ilə davam edir. Bu, həm də Azərbaycan – Ermənistan dövlət sərhədinin delimitasiya prosesinin başlanması mərhələsidir. Bundan sonra digər sərhəd ərazilərinin mərhələli şəkildə delimitasiyası aparılacaq və Ermənistan tərəfində qalmış digər kəndlərin azad olunması məsələsi də müzakirə ediləcək. Biz delimitasiya prosesinə Azərbaycanın təkzibedilməz şərtləri və tələbi ilə davam edərək, sülhə daha da yaxınlaşırıq.

Biz inanırıq ki, Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana quru yolla gedəcəyimiz, Qərbi Azərbaycanda narahat uyuyan babalarımızın məzarlarını ziyarət edəcəyimiz günləri də görəcəyik. Heydər Əliyev ideyaları və onun yolunu uğurla davam etdirən dövlət başçımızın siyasi kursu Azərbaycana ancaq qələbələr, inkişaf və sülh gətirir.

***Misir MƏRDANOV,***
***AMEA-nın müxbir üzvü,***
***Əməkdar elm xadimi, professor***

# İordaniyada "Yaşıl anım"





**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101 illiyi münasibətilə və 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı İordaniya Haşimilər Krallığının paytaxtı Əmman şəhərinin Heydər Əliyevin adını daşıyan küçəsində ağacəkmə aksiyası keçirilib.**

Əmman Böyükşəhər Bələdiyyəsinin nümayəndələri və Yeni Bədr Bələdiyyəsinin rəhbər heyətinin, eləcə də Azərbaycan diaspor fəallarının və səfirliyin əməkdaşlarının iştirakı ilə təşkil edilən aksiyada səfir Eldar Səlimov Ümummilli liderin həyatı və fəaliyyətindən bəhs edib.

Səfir qonaqların diqqətini Ulu öndərin dövlətimizin və xalqımızın istər SSRİ dönəmində, istərsə də müasir tarixindəki roluna yönəldərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə dünya miqyasında böyük nüfuz və ehtiram sahibi olan bugünkü Azərbaycanın məhz Ümummilli liderin mirası olduğunu vurğulayıb.

Əmman Böyükşəhər Bələdiyyəsinin Ətraf mühit və rayonlar Baş İdarəsinin rəisi Zaid Al Saada və Yeni Bədr rayonunun baş arxitektoru Yahya əl-Hasanat çıxış edərək, iki dost ölkə arasında əlaqələrin inkişafından məmnunluqlarını bildirib və ağacəkmə aksiyasının keçirilməsini yüksək qiymətləndirib.

Sonra tədbir iştirakçılarının iştirakı ilə ağaclar əkilib.

***XQ***

# Almatıdan Cənubi Qafqaza sülh müjdəsi gələcəkmi?

## Azərbaycan və Ermənistan XİN rəhbərlərinin bugünkü görüşü ilə bağlı gözləntilər

**Prezident İlham Əliyev aprelin 23-də ADA Universitetində keçirilmiş "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusundakı beynəlxalq forumda Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramovla Ararat Mirzoyanın bu gün Almatıda keçiriləcək görüşü ilə bağlı fikirlərini bildirmiş, Qazaxıstana təşəkkürünü ifadə etmişdi. Əlbəttə, ilk vurğulanmalı məqam da elə budur.**

Əvvəla, Qazaxıstan Bakı – İrəvan danışıqları üçün görüş yeri təklif etməklə, Cənubi Qafqazda sülhün yaranmasına öz töhfəsini vermək istəyir. Özü də burada söhbət rəsmi Astananın tam səmimi yanaşmasından gedir. Yada salaq ki, Azərbaycan və Ermənistan rəsmilərinin təmasları üçün, belə demək mümkünsə, məkan rolunda çıxış etmək istəyənlərin bir çoxu tərəflər arasında vasitəçiliyə iddialı idi. Vasitəçilik isə özünü doğrultmayan formuldur.

Bəli, Almatı Bakı – İrəvan münasibətlərinin nizamlanması baxımından vasitəçilik platforması deyil. Bunu Qazaxıstan rəsmiləri də bəyan ediblər. Əlbəttə, onlar, eyni zamanda, Almatı görüşünün pozitiv nəticələrinə ümid bəsləyərək, yekun sülh müqaviləsinin də ölkələrində imzalanmasının əlamətdarlıq düsturu üzərində dayanmaqda haqlıdırlar. Biz də ümid edək ki, XİN rəhbərlərinin Qazaxıstan görüşü Azərbaycan – Ermənistan yekun sülh sazişinin imzalanmasına aparan yol kimi faydalı olacaq.

Vasitəçilərdən söz düşmüşkən, Prezident İlham Əliyevin "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusundakı beynəlxalq forumda dilə gətirdiyi bir fikri diqqətə çatdıraq: "Mən, sadəcə olaraq, buna aydınlıq gətirmək istədim ki, bəzən buradan uzaqda yerləşənlər ermənilərdən daha çox erməni kimi davranmaq, bizim siyasətimizi və addımlarımızı yanlış təqdim etmək istəyəndə bizim siyasətimiz və mövqeyimiz yalnız praqmatizmə əsaslanır".

Dövlətimizin başçısı nümayiş etdirdiyi mövqe ilə Azərbaycan – Ermənistan danışıqlarında vasitəçilərsiz təmaslar mərhələsinin aktuallığını vurğulayır. Həqiqətən, ötən müddətdə istər Qərb, istərsə də Rusiya formatı bu baxımdan bir o qədər əhəmiyyətli olmadı. Bəzən əldə olunan müəyyən müsbət nəticələr isə sonradan fərqli, səmimiyyətdən uzaq siyasi interpretasiyaların fonunda sıradan çıxdı. Məsələn, məlumdur ki, Ermənistan, Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə tanıdı. Ancaq bu tanınma nəyi dəyişdi? Prinsip etibarilə heç nəyi. Qarabağda separatçı rejim saxlanıldı, üstəlik, rəsmi İrəvan bölgənin erməni varlığına təminat ritorikasını qabardaraq, onları ayrıca imtiyazlı təbəqə kimi göstərməyə çalışdı ki, belə yanaşma mahiyyətcə avantürizmi qorumaq məramına söykəndi. Qərb vasitəçiliyi isə heç bir söz deyə bilmədi. Əslində, beynəlxalq hüquqa etinasız yanaşaraq ədalətsizliyə yol verdi.

Digər tərəfdən, ümumən vasitəçilik institutu geosiyasi rəqabət üçün plasdarma çevrildi. Qərb çalışdı ki, onu Rusiyaya, Rusiya isə Qərbə qarşı siyasi alət kimi istifadə etsin. Ermənistan rəhbərliyinə gəldikdə, o vəziyyəti özünə fürsət bilib destruktiv iddialar irəli sürməyə başladı. Rəsmi İrəvan bu yolla vasitəçilərdən hansının ona 44 günlük müharibənin acı nəticələrini aradan qaldıracaq daha sərfəli nəticələr qazandıracağını gözlədi. Əlbəttə, gözləntilər özünü doğrultmadı və doğrulda bilməzdi. Həm də ona görə ki, Ermənistan rəhbərliyinin kimlərəsə, hansısa qüvvələrəsə arxayın olub anti-Azərbaycan mövqe tutmasının ölkə üçün müsbət heç nə vəd etməyəcəyinin anonsunu Prezident İlham Əliyev lap əvvəldən vermişdi. Özü də kifayət qədər qətiyyətli şəkildə. Dövlətimizin başçısı, həmçinin ermənilərdən daha artıq erməniliyə can atanların cəhdlərinin səmərəsiz olacağını da dəfələrlə vurğulamışdı.



Bəli, bu gün keçiriləcək Azərbaycan və Ermənistan XİN başçılarının Almatı görüşü vasitəçilərsiz formatdır. Bu formatı əlamətdar edən isə vasitəçiliyə iddialıların onu bilavasitə, yaxud bilvasitə dəstəkləmələridir. Məsələn, Rusiyanın mövqeyini ölkənin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bir neçə gün əvvəl ifadə etdi və bildirdi ki, rəsmi Moskva XİN rəhbərlərinin Almatı təmasının sülh yolunda faydalı nəticələr doğuracağına inanır və görüşü alqışlayır.

ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Millerin açıqlaması isə bir qədər şübhəli göründü. Əslində, o, "mənim bu məsələ ilə bağlı hər hansı şərhim və ya gözləntilərim yoxdur" – deməklə, Almatı görüşü barədə danışmaqdan yayındı. Amma Amerika rəsmisinin "gözləntilərim yoxdur" deməsi ilə şərhin olmaması bir qədər ziddiyyətli təsir bağışlayır. Birinci ifadə görüşün faydasına inamın yoxluğu təəssüratı yaradır. Daha dəqiq desək, son dərəcə ehtiyatla ortaya qoyulan qısqanclıq və saymazyanalıq duyulur.

Bununla belə, onu da bildirməliyik ki, ABŞ, ümumən, Cənubi Qafqazda maraqlı qütbdür. Ölkə bu coğrafiyada sabitlik tərəfdarıdır. Onun mənafelərinə gəldikdə isə bunlar hər bir halda təmin edilir. Burada tənzimləyici rol Azərbaycana məxsusdur. Birləşmiş Ştatlarda, o cümlədən, bütövlükdə, Qərbdə çox yaxşı anlayırlar ki, onların Cənubi Qafqaz siyasi akvatoriyasında tarixin heç bir dövründə indiki qədər tutarlı mövqeyə sahiblikləri olmayıb. Ümumən, Qərb kapitalı heç zaman bölgədə indiki qədər möhkəmlik əldə etməyib. Durumun formalaşması Azərbaycanın xidmətidir. Bu gün də ölkəmiz dünya üçün əhəmiyyətini vurğulayır. Odur ki, Birləşmiş Ştatlar əvvəl-axır mövcud reallığı nəzərə almalıdır və alır da. Ağ ev rəhbəri Co Baydenin Cənubi Qafqazla bağlı fikirlərindəki fundamentallıq deyimin təsdiqidir. ABŞ Prezidenti də bu günlərdə sabitlik və əmin-amanlıqdan danışıb. O sabitlikdən ki, onun qarantı Azərbaycandır.

Bəli, Qərb Azərbaycanın prinsipial mövqeyi ilə razılaşmağa məhkumdur. Qərb dünyası ona heç bir fayda gətirməyən dünya erməniliyinin avantürizminə görə Azərbaycanla münasibətləri korlaya bilməz. Bunu Ermənistanın özündə də kifayət qədər yaxşı anlayırlar. Odur ki, ölkəmizin birbaşa, vasitəçilərsiz danışıqlar təklifi prinsipial məqam kimi qəbul edilir. Baxmayaraq ki, bunu qəbul etdirmək heç də asan olmadı. Elə indi də hadisə və proseslərin tam rəvan müstəvidə olduğunu söyləmək mümkünsüzdür.

Prezident İlham Əliyev "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" forumunda Bakı ilə İrəvanın sülh razılaşmasına yaxınlığını diqqətə çatdırmışdı: "Biz, sadəcə, təfərrüatlar üzərində çalışmalıyıq. Lakin əlbəttə ki, hər iki tərəfə vaxt lazımdır, çünki sülh müqaviləsi imzalandığı təqdirdə, bu, hər iki ölkə üçün tarixi razılaşma olacaqdır. Buna görə hər bir söz, hər bir nöqtə, hər bir paraqraf vacibdir. Lakin vacib olan odur ki, hər iki tərəfin bunu etmək üçün siyasi iradəsi var".

Göründüyü kimi, Azərbaycan dövlətinin üzərində dayandığı ən mühüm məsələ sülh razılaşmasının necə olacağına dair ümumi anlayışın mövcudluğudur. Deməli, qalır Ermənistanın siyasi iradə nümayişi. Ümid edək ki, XİN rəhbərlərinin bugünkü görüşü dövlətimizin başçısının haqqında söz açdığı anlayışı dərinləşdirəcək, ən əsası isə erməni iqtidarı siyasi iradə nümayiş etdirməyi bacaracaq. İndiki məqamda, bu, son dərəcə vacib və çətin məsələdir. Vacibdir, ona görə ki, Ermənistanın başqa çıxış yolu yoxdur, daha heç bir vasitəçiyə sığınmaq şansı qalmayıb. Çətindir, o səbəbdən ki, ölkədə durum gərgindir. Baş nazir Nikol Paşinyana qarşı kilsə müxalifəti ilə ənənəvi müxalifətin konsolidasiyası gedir. Belə təəssürat var ki, ikincilər hər an iqtidarı devirə bilərlər. Yəni, hazırda erməni hakimiyyətinin daha qətiyyətli davranması lazımdır. Paşinyan heç də əbəs yerə demir ki, Azərbaycanla delimitasiya və demarkasiya prosesinin pozulması yeni müharibə deməkdir və onun nəticələri Ermənistan üçün yaxşı olmayacaq. Nəzərə alaq ki, kilsə müxalifəti ilə ənənəvi müxalifətin ilk növbədə çalışdığı həmin prosesin pozulmasıdır.

Təbii ki, Azərbaycan və Ermənistan arasında pozitiv təsir bağışlayan danışıqlar trayektoriyası həlli çətin kimi görünən məsələlərə münasibətdəki müsbət dinamika üçün də yol aça bilər. Bu baxımdan "Zəngəzur dəhlizi"nin üzərində dayanmağa ehtiyac var. Ermənistan Azərbaycanın təşəbbüsünə pozitiv yanaşmalıdır. Rəsmi İrəvan nəzərə almalıdır ki, Azərbaycanla sülh prosesinin tam səmimi və uzunmüddətli perspektivə söykənməsi baxımından məsələ son dərəcə vacibdir. Vacibliyi Prezident İlham Əliyev də sözügedən forumdakı çıxışında bildirib. Eyni zamanda, Ermənistanın məsələyə ciddi yanaşmamasının fəsadlarını açıqlayıb: "Sonda nə olacaq? Ermənistan uduzacaq. Onlar qovşaq olmaq istəyirlər, onu sülh qovşağı adlandırırlar. Amma sülh qovşağına çevrilmək üçün, ilk növbədə, onlar bizimlə razılaşmalıdırlar. Çünki əgər Azərbaycan buna razılıq verməsə, bu, sadəcə, bir kağız parçası və ya bəyanat olacaq. Bizimlə razılaşma olmadan bu, tamamilə faydasızdır. Əfsuslar olsun ki, onlar bunu regiondan çox uzaqda yerləşən müxtəlif ölkələrlə müzakirə etməyə çalışırlar. İşə gələndə isə bunu bizimlə müzakirə etmək istəmirlər. Bizim mövqeyimiz çox aydındır. Üçtərəfli Bəyanata hörmət edilməlidir".

Sonda bildirək ki, Ermənistan rəhbərliyi XİN başçılarının Qazaxıstan görüşünə yuxarıda sadaladığımız prioritetlərlə getməlidir. Rəsmi İrəvan durumu götür-qoy etməli, ətraflı düşünməli, hazırkı pozitiv ab-havanın gətirdiyi dinamikaya uyğun davranmalıdır. Bu, həm də onun üçün şansdır. Yəni, Azərbaycanla səmimi münasibətlər Ermənistanın müstəqil, heç bir kənar oyunçulardan asılı olmayan gələcəyinin təminatıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# Paşinyanın "2 stulda əyləşmək" oyununun Moskva səhnəsi

## *Kreml görüşündən sonra da İrəvanın siyasi mövqeyi sabitləşmir*

**Ermənistan–Rusiya münasibətlərində xeyli müddətdir davam edən "buzlaşma dövrün"dən sonra Putin və Paşinyan arasında Moskvada baş tutan təkbətək görüşün ikitərəfli münasibətlərdə "istiləşmə" mərhələsinin başlanmasına ümidlər vardı. Bu görüşün hansı notlar üzərində köklənəcəyi və onun nəticələri iştirakçılardan daha çox Qərb üçün xüsusi maraq kəsb edirdi. Həm Rusiya, həm də onun qərbli opponentləri bu görüşdən, ən azı, İrəvanın "ikistullu" və "ikiüzlü" siyasətinə son qoyacağını gözləyirdi. Əlbəttə, maraqlı tərəflərdən hərə bu gözləntiləri öz "arşınına" uyğun ölçürdü.**

**Ekspert rəyi**



**Fərhad MƏMMƏDOV,**
**siyasi şərhçi**

– Vladimir Putinlə Nikol Paşinyanın Moskva görüşündə həm iqtisadi, həm də təhlükəsizlik məsələləri müzakirə olundu. Bunu görüş iştirakçıları da qeyd etdilər. Ermənistan hökumətinə yaxın media qurumları isə yazırlar ki, Kreml görüşünün nəticəsi olaraq Rusiya sərhədçiləri "Zvartnots" hava limanından çıxarılır, eyni zamanda, onların Azərbaycanla şərti sərhəddə xidmət müddəti 2021-ci ildə başa çatıb. Bu faktın Rusiya rəhbərliyinin nəzərinə çatdırıldığı və qəbul edildiyi barədə də xəbərlər verilir.

Aydın məsələdir ki, Moskvanın İrəvana qarşı qırmızı xətləri var. Bunlar inteqrativ və ikitərəfli sazişlərdən çıxmamaqla bağlıdır. Məhz bundan kənarda Ermənistan özünün siyasi, iqtisadi manevrlərində sərbəstdir. Amma rəsmi Moskva bu zaman Paşinyana təzyiq forması kimi, daxili amillərdən də istifadə edir. Məhz həmin qırmızı xətləri keçməməsindən ötrü İrəvanı daim təzyiq altında saxlayır. KTMT, Aİİ formatlarından, eləcə də ikitərəfli hərbi-siyasi müqavilələrdən çıxmaması üçün müəyyən addımlar atır. Nikol Paşinyan da öz növbəsində, bu qırmızı xətlərə yaxınlaşsa da, hələlik onları keçmir. Düşünürük ki, 8 may görüşünün əsas mesajı da ondan ibarət idi ki, yaxın gələcəkdə İrəvanın bu qırmızı xətləri keçməsi arzuolunmaz nəticələrə aparıb çıxara bilər.

**Ekspert rəyi**



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– 8 may görüşünün ən maraqlı tərəfi odur ki, Putinlə Paşinyan arasında əldə olunan razılıq hər iki tərəfi qane edir. Yəni, Ermənistan baş naziri öz xalqına bəyan edir ki, mən Rusiya sərhədçilərinin hava limanından və digər məntəqələrdən çıxarılmasına nail oldum. Rusiya Prezidenti isə hesab edir ki, o, yumşaq diplomatik təzyiq üsullarından istifadə edərək, Paşinyanı özünə daha da yaxınlaşdırmağı bacaracaq.

Əslində, bu ikili təmaslar davam etdirilməlidir. Çünki, hələlik iki ölkə arasında hərbi-texniki əməkdaşlıq davam edir, ticarət dövriyyəsi yüksək səviyyəyə çatıb. Ermənistan iqtisadiyyatı Rusiyadan birbaşa asılı olan bir ölkədir. Bu mənada ikibaşlı, ikiüzlü siyasət Paşinyana çox baha otura bilər. Hər halda, eyni vaxtda iki əks qütblə yaxın partnyor olmaq çətin və mümkünsüz məsələdir. Nikol Paşinyan kimi, eyni vaxtda iki stulda əyləşməyə çalışan siyasətçi sonda həmin stulların arasına düşə bilər. Bəs, yerə yıxılandan sonra ona qalxması üçün kim əlini uzadacaq? Heç kəs! O, bunu yaddan çıxarmamalıdır.

Beləliklə, Moskva görüşü onu göstərdi ki, Ermənistanın Rusiyadan asılılığı hələ kifayət qədər böyükdür. Nikol Paşinyan bu amili nəzərdən qaçırmayaraq müəyyən qənaətə gəlməli, nəticə çıxarmalıdır. Rusiya sərhədçilərinin Ermənistanı tərk etməsini isə qələbə saymaq olmaz...



Mayın 8-də Kremldə Rusiya Prezidenti Putin və Ermənistan baş naziri Nikol Paşinyan görüşünün ardından mediaya verilən məlumatlarda deyilir ki, tərəflər əsasən "iqtisadi və təhlükəsizlik mövzularını" müzakirə ediblər. Amma görüşün məzmununa, dialoqun xarakterinə diqqət yetirəndə aydın olur ki, bu, heç də ölkələrarası iqtisadi əlaqələrin müzakirə edildiyi format olmayıb, daha çox, Ermənistanın Rusiyadan nə qədər asılı vəziyyətdə olduğunun əyani nümayişi idi. Və bu nümayişin heç də təsadüfi xarakter daşımadığı hamıya məlum idi.

### Rekord göstərici

Rusiya Prezidenti Ermənistanın öz ölkəsindən və Avrasiya İqtisadi İttifaqından (Aİİ) asılılığının göstərici sayılan rəqəmləri, əlinin altındakı vərəqdə qeyd olunan real statistikanı Ermənistan baş nazirinin üzünə oxudu. Məlum oldu ki, Ermənistanla Rusiyanın ticarət dövriyyəsi keçən il 7 milyard ABŞ dollarını keçib (dəqiq desək – 7,3 milyard dollar). Ermənistanın Aİİ ilə ticarət dövriyyəsi isə 2015-ci ildən sonrakı dövr ərzində 14 dəfə (!) artıb. Bu statistikanı xüsusi olaraq vurğulayan Vladimir Putin əldə olunan nəticəni rekord göstərici adlandırdı. Bunun izahını verərək, "tarix boyu Rusiyanın Ermənistanla belə ticarət dövriyyəsinin heç vaxt olmadığını" bəyan etdi. V.Putin bunun ardınca sözlərinə onu da əlavə etməyi unutmadı ki, amma Ermənistanın Rusiyaya ixracı kəskin artıb.

Görüşün iqtisadi gündəmi ilə bağlı oxucuların nəzərinə onu da çatdıraq ki, Ermənistan əsasən BƏƏ-dən, o cümlədən Çindən idxal etdiyi və sanksiyalar altına düşən malları məhz Rusiyaya ixrac etməklə belə "yüksək inkişaf tempinə" nail olub. Məhz buna görə də Rusiyaya mal-məhsul ixracı son bir ildə 5 dəfəyə yaxın artıb, o cümlədən BƏƏ və Çinlə ticarət dövriyyəsi 2 milyardı aşıb. Bu səbəblərə görə Ermənistan iqtisadiyyatı "fantastik rekord göstəricilər" əldə edib.

Yeri gəlmişkən, rusiyalı ekspertlər, eləcə də rəsmilər təsadüfən demirlər ki, Aİİ ölkələri ilə heç bir sərhədi olmayan Ermənistan bu qurumdan ən böyük qazanc əldə edəndir. "Təbii ki, ikitərəfli münasibətlərdə müəyyən problemli mövzular var. Amma digər tərəfdən, Rusiya və Ermənistan arasında qarşılıqlı təmaslar nə qədər sıx, ikitərəfli münasibətlər kompleksi nə qədər geniş olarsa, o zaman problemlər bir o qədər tez aradan qalxar". Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bu sözləri iki ölkə liderinin "tet-a-tet" görüşündən əvvəl söyləmişdi.

Deməli, rəsmi İrəvan bir tərəfdən Avropa İttifaqından, ABŞ-dan ianələr umur, digər tərəfdən Rusiyanın hesabına iqtisadiyyatını formalaşdırır. Yəni, eyni zamanda, həm Qərb, həm də Rusiya ilə ikibaşlı oyunlarını davam etdirən Ermənistan hakimiyyəti nə özünün müstəqil siyasətini yeridə bilir, nə də bölgə ölkələri ilə normal ikitərəfli əməkdaşlıqdan faydalanmaq barədə düşünür.

Elə Kremli də qəzəbləndirən odur ki, Ermənistan Rusiyanın hesabına yaşaması bəs deyilmiş kimi, üstəlik, ona arxa çevirir. Apreldə Nikol Paşinyan bəyan etdi ki, Ermənistan və Azərbaycan sərhədlərinin delimitasiyası və demarkasiyası aparıldıqdan sonra Rusiyanın sərhəd dirəkləri Tavuş vilayətinin sərhəd zonasından çıxarılacaq. Ermənistan XİN-in İrəvanın KTMT-ni maliyyələşdirməsini dayandırması barədə rəsmi bəyanatının məhz Kremldə görüşün keçirildiyi gün – mayın 8-də yayılması da təsadüfi sayıla bilməz. Bu bəyanat Paşinyan artıq Moskvada olarkən, Putinlə görüşə hazırlaşarkən verildi. Məgər, bu, Nikol Paşinyanın Kremldəki görüşünə qədər qurduğu oyunun tərkib hissəsi deyildimi? Bütün bunları görən və anlayan rusiyalı siyasi ekspertlərin rəsmi İrəvanın, Paşinyan komandasının ünvanına açıq şəkildə: Xəyanətkar, – demələri qalıb.

### Həm də Qərbə xəyanət

Maraqlı vəziyyət yaranıb: Ermənistan Qərbin sanksiya siyahılarına daxil etdiyi malları Rusiyaya ötürən forpost kimi həm avropalı tərəfdaşlarına xəyanət edir, həm də hərtərəfli yardım umduğu Rusiyanı lazımi dəstəyi göstərməməkdə ittiham edərək, ona arxa çevirir. O da məlumdur ki, Rusiya Ukrayna cəbhəsində istifadə etdiyi raketlərin hazırlanmasında tələb olunan xüsusi elektron avadanlıqları Ermənistandan idxal edir. Bu faktı Aİ üzvləri də bilir və Qərbin ən nüfuzlu analitik mərkəzləri də bunu dəfələrlə öz hesabatlarında yayıblar. İntəhası, rəsmi İrəvan bu cür xidmətin müqabilində KTMT ilə əlaqələri "dondurmaq", ona üzvlük haqqı ödəməmək kimi ikibaşlı siyasi oyunlarını oynayır. Bütün bunlar ona dəlalət edir ki, özünə hələ də kənarda "etibarlı və təminatlı çətir" axtaran rəsmi İrəvan Qərbin və Rusiyanın arasında vurnuxmalara son qoymaq barədə qəti qərara gəlməyi bacarmır. Ona görə ki, müstəqil deyil, öz iradəsi ilə hərəkət etmək gücü də yoxdur. Nikol Paşinyanla söhbətində Vladimir Putin bölgədə (Cənubi Qafqazda – red.) təhlükəsizliklə bağlı müəyyən sualların qaldığını bildirib. Bir saatdan çox davam edən görüşün mediaya leqal hissəsində Rusiya lideri həmin suallar barədə açıq danışmayacaqlarını, amma Aİİ-dən kənarda ikitərəfli münasibətlərin bütün kompleksinə, o cümlədən regional təhlükəsizlik məsələlərinə toxunmaq imkanının olacağını diqqətə çatdırıb.

Kollektiv Qərb Ermənistan baş nazirinin Moskvaya səfərinə ciddi yanaşır və diqqətlə izləyirdi. Belə anlaşılır ki, Nikol Paşinyan, sanki, Kremllə razılaşdırılmış formada qərbli tərəfdaşalrına növbəti "jestini" etdi. O, bununla Moskvaya səfərini "reabilitasiya" etməklə bərabər, həm də hərbi baxımdan Rusiyanın "nəzarətindən", guya, çıxmağa davam etdiyini göstərir. Amma, əslində, o, bununla Kremllə razılaşdırdığı iqtisadi oyuna qarşı mümkün təzyiqləri neytrallaşdırmağa çalışdı.

İndi bu sual Qərbi daha ciddi düşündürür: Ermənistan, doğrudanmı, Rusiyadan qopur? Bu zaman reallığı da nəzərdən qaçıra bilmirlər. Bu çılpaq reallıq isə ondan ibarətdir ki, ərazisində Rusiyanın hərbi bazası yerləşən Ermənistanın enerji şəbəkəsi bütünlüklə Moskvanın əlindədir və bu ölkənin ən böyük sərmayədarları rusiyalılardır və ən əsası – xarici ticarət dövriyyəsinin, az qala, 70 faizi Rusiyaya bağlıdır. Bu "hörümçək toru"ndan qurtulmaq asan məsələ deyil. Belə məlum olur ki, Paşinyan oyun qurub və bu ikibaşlı oyundan külli miqdarda vəsait qazanır. Bu zaman, o, həm Qərbə, həm də Rusiyaya sərf edən mövqe nümayiş etdirir və yenə də eyni vaxtda iki stulda oturmaqda davam edir. Amma onun gec, ya tez stullardan birini seçmək məcburiyyərində qalacağı qaçılmaz aksiomdur. Əgər bu seçim çox ləngiyərsə, onu hər iki stuldan məhrum olub, yerə yıxılmaq təhlükəsi də gözləyir.

Yeri gəlmişkən, Putinin Paşinyanla görüşdə heç də ciddi və sərt danışıqlara hazırlaşdığı qətiyyən hiss olunmurdu. Əksinə, onun "gecikmiş qonaq"la kifayət qədər mehriban davrandığı nəzərdən yayınmadı. Bir də ki, Rusiya liderinin ictimailəşdirdiyi iqtisadi rəqəmlər elə yumşaq diplomatik təzyiqin bir forması idi.

***İmran BƏDİRXANLI***
***XQ***

# İrəvanda revanşistlərin son çapalamaları

**Ermənistan–Azərbaycan münasibətlərində hazırda ən aktual olan iki məsələ var. Bunlardan biri sülh müqaviləsinin imzalanması və dövlətlərarası münasibətlərin qurulması, digəri isə iki ölkənin şərti sərhədinin delimitasiya və demarkasiyası məsələsidir. Bu gün Qazaxıstanın Almatı şəhərində Azərbaycan və Ermənistan xarici işlər nazirləri – Ceyhun Bayramov və Ararat Mirzoyan arasında hər hansı vasitəçinin iştirakı olmadan keçiriləcək görüşdə sülh müqaviləsinin imzalanması və dövlətlərarası münasibətlərin qurulması istiqamətində müzakirələrin aparılacağı gözlənilir.**



Delimitasiya və demarkasiya məsələsinin həlli ilə isə iki ölkənin baş nazir müavinləri – Şahin Mustafayev və Mqer Qriqoryanın sədrlik etdikləri dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyalar məşğul olur. Artıq komissiyaların işinin praktik nəticələri var. Aprelin 19-da keçirilən iclasda Ermənistan tərəfi 1990-1992-ci illərdə onun nəzarəti altına keçmiş Qazax rayonunun 4 qeyri-eksklav kəndinin (Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı) qaytarılmasına razılaşdı. Artıq şərti sərhədin həmin hissəsində geodeziya və ölçmə işləri aparılır. Mayın 7-də Ermənistanın baş naziri Nikol Paşinyan keçirdiyi mətbuat konfransında şərti sərhədin Qazax–İcevan istiqamətində delimitasiya və demarkasiya üzrə işlərin 90 faizinin görüldüyünü deyib. Tərəflərin yaydığı rəsmi məlumatda isə ikitərəfli razılaşma ilə müəyyən edilmiş şərti sərhəd xətti boyunca 40 sərhəd direyinin yerləşdirildiyi bildirilib. Aprelin 19-da əldə edilən razılaşmada Qazax rayonunun işğal altında olan 4 kəndinin Azərbaycana qaytarılması prosesinin mayın 15-dək başa çatdırılması nəzərdə tutulub.

Dünən yayılan xəbərdə Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşma çərçivəsində şərti sərhədin Qazax rayonu istiqamətində aparılan demarkasiya işlərinin əsasən yekunlaşdığı qeyd edilib. Bununla belə, erməni media resursları Qazaxın Xeyrımlı kəndi ilə İcevan rayonunun Kirants kəndi arasındakı hissədə işlərin müvəqqəti dayandırıldığını bildiriblər. Onlar Xeyrımlı və Kirants yaşayış məntəqələri arasındakı ərazidə aparılan demarkasiya işlərinin xüsusilə incə xarakter daşıdığını vurğulayıblar. Belə ki, sərhəd xətti Kirantsın bilavasitə yaxınlığından keçir. Üstəlik, işğal zamanı erməni kəndinin sakinləri, faktiki olaraq, Xeyrımlı ərazisinin bir hissəsini ələ keçirib, orada evlər və ticarət obyektləri tikiblər. Razılaşmaya əsasən, onlar Azərbaycan ərazisində qalacaq.

Bununla əlaqədar olaraq, Kirants sakinləri iki həftədir ki, demarkasiya işlərinin aparılmasına etiraz edirlər. Ermənistan polisi bir neçə gün əvvəl kənddə əməliyyat keçirib və bir qrup etirazçını saxlayıb. Daha sonra Kirants sakinlərinə sərhədlərin müəyyənləşdirilməsi işinin vacibliyi izah edilib və etirazlar səngiyib.

Şərti sərhədin bu hissəsində aparılan geodeziya işlərinin nəticələrinə əsasən, 12 nöqtədə sərhəd dirəyi basdırılmalıdır. Erməni tərəfinin məlumatına görə, onlardan 8-i artıq basdırılıb. Qalanlarında əlavə ölçmə işləri aparılır. Çünki bu nöqtələr Xeyrımlının bilavasitə yaxınlığındadır.

N.Paşinyan mayın 7-də keçirdiyi mətbuat konfransında bildirmişdi ki, "həssas nöqtələr" Kirants kəndindəki məktəbin, Xeyrımlıya gedən yoldakı körpünün və bəzi evlərin yaxınlığında yerləşir. Odur ki, orada "hər santimetr" ölçülməlidir. Kənd icmasının rəhbəri Kamo Şaqinyan jurnalistlərə bildirib ki, hazırda demarkasiya işləri aparılmır. Kənddə yalnız bir neçə polis növbə çəkir.

Müxalifət nümayəndələri isə iddia edirlər ki, sərhədin müəyyənləşdirilməsi işləri erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyanın başçılığı ilə etirazçı kütlənin mayın 4-dən Kirantsdan İrəvana doğru yürüş etməsi səbəbindən dayandırılıb. Onlar deyirlər ki, "hakimiyyət dirəklərin həssas yerlərdə basdırılması səbəbindən etirazların daha da qızışa biləcəyindən" ehtiyat edir.

Bu arada qeyd edək ki, yürüş iştirakçıları dünən, mayın 9-da İrəvana yetişiblər. Qalstanyan hər kəsi həmin gün yerli vaxtla saat 16:00-da Ermənistan paytaxtının mərkəzi "Respublika" meydanına – "Vətən naminə Tavuş" hərəkatının mitinqinə toplaşmağa çağırsa da, onun çağırışına səs verənlərin sayı çox az olub. Bu isə Ermənistan cəmiyyətinin ölkəni 20 ildən çox çapıb-talamış, bütün sahələri bərbad günə salmış Robert Koçaryan–Serj Sarkisyan cütlüyünün başçılıq etdikləri Qarabağ klanının, digər revanşist kəsimin, eləcə də son vaxtlar onlarla bir cərgədə addımlayan kilsənin siyasi oyunlarına, fitnəkarlığına qoşulmamaqda israrlı olduğunu daha bir göstəricisi sayıla bilər.

Eyni zamanda, Ermənistan cəmiyyəti onların kriminal keçmişinə bələddir və ölkədə silahlı qarşıdurma yarada biləcəklərini də istisna etmir. Bu mənada, "Vətən naminə Tavuş" hərəkatının iştirakçılarını silahlı müqavimətə çağıran iki nəfər tutulması adi haldır deyil. Belə ki, mayın 7-də "TikTok" platformasında hərəkat iştirakçıları arasında söhbəti əks etdirən video yayılıb. Videoda silahlı müqavimətə çağırış yer alıb. Nəticədə mayın 7-də Ermənistan istintaq komitəsinin Kotayk regional istintaq idarəsində cinayət işi açılıb. Məlumata görə, idarəyə bir qrup şəxs tərəfindən qanunsuz olaraq silah-sursat əldə edilərək saxlanılması barədə məlumat daxil olub. Nəticədə şübhəli bilinən iki nəfər saxlanılıb.

Yeri gəlmişkən, onu da qeyd edək ki, yürüş-mitinqdə diqqəti cəlb edən yeganə məqam özünü etirazçıların lideri adlandıran B.Qalstanyanın ənənəvi qara rəngli paltardan imtina edərək, ağ rəngli paltar geyinməsi olub.

Ermənistanla aparılan demarkasiya prosesi, habelə keçirilən etiraz aksiyaları ilə bağlı fikirlərini öyrəndiyimiz "Cənubi Qafqaz" politoloqlar klubunun rəhbəri, politoloq İlqar Vəlizadə bildirdi ki, bütün dünya demarkasiya işlərinin Azərbaycan tərəfindən heç bir maneə olmadan görüldüyünü, problemsiz həyata keçirildiyini müşahidə edir. Onun sözlərinə görə, bu isə Azərbaycan tərəfinin həm prosesi, həm də sərhədi tam nəzarətdə saxladığından xəbər verir: "Yəni, bizim tərəfdən hansısa xoşagəlməz halın baş verəcəyi heç gözlənilmir. Ermənistan tərəfindən isə təəssüf ki, biz müxtəlif revanşist qrupların prosesə müdaxiləyə cəhd etdiklərini, bəzən isə birbaşa buna nail olduqlarını görürük. Onlar müxtəlif çaxnaşmalar salırlar. Sərhədyanı ərazilərdə piketlər, etiraz aksiyaları həyata keçirilir. Bu, özlüyündə yolverilməz bir haldır. Çünki sərhəd xüsusi rejimli ərazidir. Burada hansısa aksiyalar keçirmək, ümumiyyətlə, yolverilməzdir. Ancaq burada söhbət Ermənistandan getdiyi üçün deməliyik ki, o ölkədən hər şey gözləniləndir. Hayastan cəmiyyətində 30 il ərzində belə fikirlər formalaşıb ki, işğal etdikləri ərazilərin hamısı onlara məxsusdur. Bu tezisi revanşist qüvvələr, yəni keçmişdə hakimiyyətdə olan dairələr və erməni kilsəsi yayırlar. Təəssüf ki, bu fikirlər Ermənistan cəmiyyətində hələ də aktual olaraq qalır".

İ.Vəlizadə qeyd etdi ki, demarkasiya prosesi sürətləndikdə biz ona qarşı müqavimətin də artdığını görürük. Bu isə gözlənilən bir hal idi. Müxtəlif qruplar prosesin əleyhinə çıxış edirlər. Burada müəyyən həmrəylik də hiss olunur: "Biz bilirik ki, müxalifət arasında daxili siyasi məsələlərlə bağlı fikir ayrılıqları olsa da, Azərbaycanla münasibətlər məsələsində hamısı vahid mövqedən çıxış edirlər. Bu isə də revanşist qruplara, onların arxasında dayanan siyasi dairələrə prosesi Paşinyana qarşı çevirməyə imkan yaradır. Biz bunun də şahidiyik. Hazırda Ermənistanda yeni anti-Paşinyan dalğası qalxır. Bu, çox güman ki, uzunmüddətli proses olacaq. Hər şey Ermənistan hakimiyyətinin davranışından, onun revanşistlərin müqavimətini necə qıracağından asılıdır".

Politoloq bildirdi ki, Paşinyan iqtidarı hazırda məsələni güc yolu ilə deyil, dinc yolla həll etməyə çalışır. Ancaq etiraz dalğası böyüsə və hakimiyyətə real təhdidlər olsa, o zaman rəsmi İrəvan daha ciddi, təsirli metodlara əl atacaq. Artıq polis və digər güc strukturları baş nazirin göstərişi ilə fəallıqlarını artırıblar. Siyasi ekspert hesab edir ki, proseslər bu minvalla bir müddət davam edəcək.

Onu da bildirək ki, Ermənistan istintaq komitəsi aprelin 20-dən delimitasiya və demarkasiya əleyhinə aksiyalarda iştirak edən 16 nəfərə qarşı cinayət təqibi başladıb. Komitədən verilən məlumata görə, ümumilikdə, aksiya iştirakçılarının cinayət əməlləri ilə bağlı 11 cinayət işi başlanıb.

Bu cinayət işlərindən 7-si yolları bağlayaraq avtoxuliqanlıq, fiziki güc tətbiqetmə, qəsdən əmlaka zərərvurma, polis əməkdaşlarının qanuni fəaliyyətinə maneolma, yol hərəkəti qaydalarını pozma faktları ilə bağlı açılıb. Qalan 4 iş nəqliyyat vasitələrinin təkərlərinin yararsız hala salınması, nifrətin qızışdırılması ("Sisernakaberd" memorial kompleksində baş verən insident), etiraz aksiyaları zamanı zorakılığa çağırışlar, həmçinin silahların əldə edilməsi və saxlanması ilə bağlıdır. Nəticədə 9 təqsirləndirilən şəxs həbs edilib, biri ev dustaqlığındadır. Daha 3 nəfərlə bağlı yaşadığı yeri tərk etməmək, 3 nəfər barəsində isə inzibati nəzarət növündə qətimkan tədbiri seçilib. İstintaq komitəsi bu hallarla bağlı təhqiqatın davam etdirildiyini, qanunazidd əməllərin qarşısının bundan sonra alınacağını bildirib.

*Səxavət HƏMİD,*
*XQ*

# "Sevgimin yurdu"na "Mən qayıdıram..."

## *Bu kitabların azərbaycanlı müəllifinin əsərləri mindən artıq dildə nəşr olunub*




**Bakının Park Bulvar Ticarət Mərkəzində "Əli və Nino" kitab mağazasında Rusiyada yaşayan məşhur yazıçı soydaşımız Eldar Əhədovun dünya şöhrətli yazarların Azərbaycana səyahətlərindən bəhs edən "Mən qayıdıram..." kitabının təqdimatı keçirildi.**

Azərbaycan oxucularının o qədər də yaxşı tanımadığı Eldar Əhədov Rusiya Yazıçılar İttifaqı, "XXI əsrin yazıçıları" İttifaqı, Azərbaycan Yazıçılar Birliyi kimi yaradıcılıq qurumlarının üzvüdür. Uzun illərdir ki, Rusiyanın Krasnoyarsk diyarında yaşayır. Yazıçının 2 kitabı ABŞ-də, bir çox əsərləri isə Rusiya, Bolqarıstan, İsrail, Almaniya, Ukrayna, Qazaxıstan, Belarus, Meksika, Serbiya, Hindistan, Misir və eləcə də Vətəni Azərbaycanda nəşr edilib.

Soydaşımız rus, Azərbaycan, ingilis, ispan, italyan və serb dillərində 76 şeir və nəsr kitabının müəllifidir. 2012-ci ildə beşcildlik seçilmiş əsərləri işıq üzü görüb. "Sənə dua edirəm" əsəri dünyanın mindən çox dilinə, o cümlədən ərəb, yunan, ingilis, ispan, çin dillərinə tərcümə olunub. Bakıda təqdimatı keçirilən "Mən qayıdıram..." kitabı onun Azərbaycanla bağlı "Sevgimin yurdu", "Xarıbülbül. Azərbaycan dastanı"ndan sonra növbəti populyar əsəridir.

Azərbaycan əsilli yazıçı bir ay əvvəl Dünya Yazıçılar Təşkilatının keçirdiyi konqresdə dünya ədəbiyyatına verdiyi şəxsi töhfələrinə görə gümüş medalla təltif edilib. Dünya şöhrətli britaniyalı şair Riçard Berenqarten Kembric Universitetində keçirilən mərasimdə Eldar Əhədovu "Rus dilində yazan görkəmli Azərbaycan şairi", "Neizvestnaya Sibir" jurnalı isə illər əvvəl onu Rusiyanın ən istedadlı yazıçılarından biri adlandırıb. 2019-cu ildə yaradıcılığı "Başqa dildə




əsərlər yaradaraq milli kimliyi qoruyub saxladığına görə" Avrasiya gümüş medalına layiq görülüb.

Xatırladaq ki, Bakıda doğulmuş Eldar Əhədov Sankt-Peterburq Dağ-Mədən Universitetinin məzunudur. Ali təhsilini başa vurduqdan sonra 40 il Uzaq Şimalda, Orta və Şərqi Sibirdə çalışıb. Tədqiqat işlərini insan ayağı dəyməyən məkanlarda – Qütbarxası sahələrdən monqol çöllərinə qədər, Yamaldan Tuvayadək tayqanın və tundranın əlçatmaz yerlərində həyata keçirib. Uzaq Şimalda 2 çay onun adını daşıyır.

Eldar Əhədovun yaradıcılığının pərəstişkarları sırasında Nobel Sülh Mükafatı laureatı Bəxtiyar Siracov, Azərbaycanın xalq yazıçıları Çingiz Abdullayev və Natiq Rəsulzadə kimi tanınmış soydaşlarımız, doğma Bakının bir çox yüksək zövqlü oxucuları var.

Azərbaycan əsilli yazıçı Eldar Əhədovun "Əli və Nino"da oxucularla görüşü böyük ruh yüksəkliyi ilə keçdi. Yazıçı görüşünə gələnlərin suallarını cavablandırdı, yaradıcılıq uğurlarından və növbəti layihələrindən danışdı.

*Namiq QƏDİMOĞLU*
*XQ*

# Ombudsman Cenevrədə müzakirələr aparıb

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının (GANHRI) Cenevrə şəhərində keçirilən illik iclası çərçivəsində "Biznes və insan hüquqları: Milli insan hüquqları təsisatlarının rolu və təcrübələri" mövzusunda tematik sessiyada iştirak edib.**



Sessiyada çıxışı zamanı Ombudsman biznes və insan hüquqları sahəsində həyata keçirdiyi fəaliyyət barədə tədbir iştirakçılarına məlumat verib, bu sahədə beynəlxalq təşkilatlar, o cümlədən, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə əməkdaşlığın mövcud olduğunu diqqətə çatdırıb.

Səfər çərçivəsində Səbinə Əliyeva BMT-nin İnkişaf Proqramının Biznes və insan hüquqları üzrə qlobal rəhbəri Livio Sarandrea ilə görüş keçirib. Görüşdə biznes və insan hüquqları sahəsində milli qiymətləndirmə sənədi ilə əlaqədar müzakirələr aparılıb.

# Xocalıda naməlum məzar aşkarlanıb

**Xocalıda insana məxsus sümük fraqmentləri aşkar edilib. Bu barədə XQ-yə Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib.**

Qeyd edilib ki, işğaldan azad olunmuş Xocalı rayonunun Malıbəyli kəndi ərazisində mayın 8-də həyata keçirilən tikinti-qazma işləri zamanı insana məxsus olması ehtimal edilən müxtəlif sümük fraqmentlərinin aşkar edilməsi faktı üzrə Xocalı Rayon Prokurorluğunda araşdırma aparılır.

# Beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanda qovuşur və şaxələnir



**"Fitch Solutions" (FS) beynəlxalq reytinq agentliyinin hesabatında qeyd edilir ki, yeni və mövcud ticarət dəhlizləri Azərbaycanda növbəti onillikdə investisiya artımının mühüm sahəsi olacaq. FS analitiklərinin fikrincə, Şimal-Cənub və Orta Dəhliz boyunca əhəmiyyətli ticarət infrastrukturunun inkişafı ixracı və tranzit ödənişlərindən dövlət gəlirlərini artıracaq.**

FS-nin hesabatında Rusiya-Ukrayna müharibəsinin Çini Mərkəzi Asiya və Qafqaz vasitəsilə Avropaya birləşdirən Orta Dəhlizə qlobal marağın yenidən artmasına səbəb olduğu vurğulanaraq qeyd edilib: "Dünya Bankı tərəfindən Orta Dəhliz üzrə ticarət həcminin 2030-cu ilə qədər 3 dəfə artacağı, Azərbaycanın isə Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanı Qafqaza, oradan da Avropaya birləşdirən bu ticarət yolunun mühüm hissəsi olacağı proqnozlaşdırılıb".

Hesabatda Rusiyanın İranla ticarətini və cənuba əmtəə ixracını artımaq üçün Şimal-Cənub Dəhlizi boyunca infrastrukturu yaxşılaşdırmaqda maraqlı olduğu bildirilib. Elə buna görə də 2023-cü ilin martından cari ilin fevralına qədər Azərbaycan və İran arasında dəmir yolu yükdaşımaları 28 faiz artıb, Rusiyadan Azərbaycana idxal da illik müqayisədə 16 faiz yüksələrək 3,2 milyard ABŞ dollarını keçib.

FS-nin proqnoz açıqlamasında, həmçinin bildirilir ki, ticarət həcminin daha çox artacağı ilə bağlı gözləntilər Çin və Avropa İttifaqı arasında Orta Dəhliz marşrutu ilə yükdaşıma qabiliyyətini 5 dəfə artıracaq.

Çinin Təhlil İnstitutunun baş elmi əməkdaşı Din Tsyanvey də mediaya məlumatında vurğulayıb ki, Orta Dəhliz yaxın gələcəkdə qlobal tədarük zəncirinin ən mühüm hissəsi kimi yeni sürətli inkişaf mərhələsinə daxil olmaqla Avrasiyada yeni iri ticarət marşrutuna çevriləcək. Bu nəqliyyat marşrutunda daha çox ölkələr iştirak edəcək, yükdaşıma həcmi isə mühüm dərəcədə artacaq. Onun sözlərinə görə, Orta Dəhlizin gələcək inkişafı heç də asan olmayacaq və çox sayda problemlərlə qarşılaşacaq. Bu, özünü geosiyasi, xüsusilə şəxsi geosiyasi ambisiyalarını üstün tutan müxtəlif qüvvələrin təsirində göstərəcək. Bir sözlə, dominantlıq uğrunda mübarizə daha da güclənəcək.

Qeyd edək ki, Orta Dəhlizin çoxtərəfli multimodal nəqliyyat infrastrukturu Xəzər və Qara dəniz bərə terminallarını Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə, Ukrayna və Polşanın dəmir yolu sistemləri ilə birləşdirir. Orta Dəhliz yük axınının Çindən Türkiyə, o cümlədən Avropa ölkələrinə və əks istiqamətdə artmasına şərait yaradır. Bu dəhlizlə hərəkət edən marşrut qatarı orta hesabla 20-25 gün ərzində yükləri Çindən Avropaya çatdırır və bu, qeyd olunan nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir.

Prezident İlham Əliyev "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumdakı çıxışında yeni və mövcud ticarət dəhlizlərinin fəaliyyətindən bəhs edərkən Azərbaycanın dəmir yolu infrastrukturunun inkişafı istiqamətində görülən işlər barədə də fikirlərini diqqətə çatdırıb: "Bizim Rusiya və İran sərhədi ilə birləşdirən dəmir yolu infrastrukturumuz var. Tezliklə biz yeni dəmir yolu infrastrukturunu inşa etməyə başlayacağıq, çünki təkcə Rusiyadan Fars körfəzinə azı 15 milyon ton yükün gəlməyini gözləyirik. Əgər biz əks istiqamətdən yük əlavə etsək, düşünürəm ki, 15 milyon ton, sadəcə, başlanğıcdır. Hazırda bizim Şimal-Cənub dəmir yolumuzun Azərbaycan seqmenti 6-7 milyon ton yük qəbul edə bilir ki, bu, bizim üçün və tranzitorlar üçün yetərlidir".

Yeri gəlmişkən, Orta Dəhlizin vacib seqmenti hesab olunan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin 184 kilometrlik Gürcüstan hissəsində aparılan təmir-genişləndirmə işləri artıq yekunlaşıb. Bununla da ölkəmizin Şərq-Qərb marşrutu üzərində mühüm nəqliyyat qovşağına çevrilməsi gerçəkləşib. "Azərbaycan Dəmir Yolları" QSC-nin məlumatına görə, mayın 20-dən etibarən BTQ dəmir yolu xətti üzrə yükdaşımalara start veriləcəyi nəzərdə tutulub.

Xatırladaq ki, bu dəmir yolu xəttinin modernləşdirilməsinin əsas məqsədi Orta Dəhlizin rəqabət qabiliyyətini artırmaq və BTQ-ni dəhlizin əsas yükdaşıma arteriyalarından birinə çevirməkdir. Çin və Mərkəzi Asiya ölkələrindən quru yolla daşınan yüklərin Azərbaycan ərazisindən Avropaya daha sürətli çatdırılmasında BTQ dəmir yolu xəttinin əhəmiyyəti olduqca böyükdür.

Genişləndirmədən sonra BTQ-nin illik yükaşırma gücü 1 milyon tondan 5 milyon tona çatıb. Yükaşırma həcminin 5 milyon tona çatdırılması hədəfi Prezident İlham Əliyevin tapşırığı əsasında müəyyən edilmişdi və ötən ildən etibarən məhz bu istiqamətdə aktiv şəkildə genişləndirmə işlərinə başlanmışdı.

"Azərbaycan Dəmir Yolları"nın məlumatında bildirilir ki, son 20 ildə dəmir yolu ilə tranzit yükdaşımalarda əhəmiyyətli artım qeydə alınıb. Məsələn, 2019-cu ildə 3,8 milyon ton tranzit yükü daşınmışdısa, 2023-cü ildə bu rəqəm 6,8 milyon tona çatıb. Ötən ilin ilk 4 ayı ilə müqayisədə cari ilin yanvar-aprel aylarında daşınan tranzit yüklərin həcmi 14 faiz artıb. Azot gübrələri, buğda unu və qara metal borular kimi yüklərin həcmində 120-200 faiz artım qeydə alınıb. BTQ-nin də tərkib hissəsi olduğu Şərq-Qərb dəhlizi üzrə isə bu ilin birinci rübündə 10 faiz daha çox tranzit yükü daşınıb.

Yenilənmiş BTQ xətti qardaş ölkə olan Türkiyə ilə quruda birbaşa dəmir yolu əlaqəsini təmin edəcək, ölkələrimiz arasında daha çox yüklərin daşınmasına töhfə verəcək. Modernləşdirilmiş BTQ dəmir yolu ilə indi daha çox yük daha tez daşına biləcək. Yəni 1 milyon ton illik yükaşırma həcminin 5 milyon tona çatması ilə BTQ Şərqdən Qərbə və əks istiqamətə ölkəmiz üzərindən yükdaşımaların həcm və sürətinə müsbət təsir göstərəcək.

Onu da vurğulayaq ki, cari ilin yanvar ayında Çindən konteyner blok qatarlarla yükdaşımanın bərpası reallaşıb, ilk qatar qəbul edilib. Ümumiyyətlə, 2024-cü il ərzində daha çox blok qatarın Azərbaycana göndərilməsi nəzərdə tutulub.

Tranzit yüklər Çin-Qazaxıstan sərhədindən Azərbaycandan keçməklə Gürcüstan limanlarına ortalama 10 günə çatıb. İdxal yüklər üçün bu müddət 8 gün olub. "Azərbaycan Dəmir Yolları" tərəfindən yüklər Bakı Dəniz Ticarət Limanından birbaşa qatarlara yüklənərək aidiyyəti üzrə çatdırılıb.

Bu ilin ilk dörd ayında Şərq-Qərb dəhlizi üzrə ümumilikdə 34 blok qatar olmaqla 6319 TEU konteyner yük daşınıb. Onlardan 10 blok qatar (4020 TEU konteyner) tranzit yükü, 24 blok qatar və (2299 TEU konteyner) idxal yükü olub. 2023-cü ildə ADY tərəfindən, ümumilikdə, 105 min 265 TEU konteyner daşınıb ki, bu da 2022-ci illə müqayisədə 30 faiz çoxdur.

Beləliklə, tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan, həm də digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir, daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasına imkan yaradır.

***Vaqif BAYRAMOV***
***XQ***

**Dünyanın enerji bazarında müşahidə edilən qeyri-sabitliyə, həmçinin qlobal iqtisadi fəallığın zəifləməsinə baxmayaraq, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) cari ilin ilk rübünü uğurla başa vurmağa nail olub. Hesabat dövrü ərzində əldə edilən uğurlara isə şirkət üzrə idarəetmənin təkmilləşdirilməsi, müəssisələrin inteqrasiyalı fəaliyyəti, rəqəmsal enerji texnologiyalarının tətbiqi, biznes dayanıqlılığının gücləndirilməsi və əməliyyat səmərəliliyinin artırılması sayəsində nail olunub. Bu kimi müsbət amillərin nəticəsidir ki, 2024-cü ilin ilk rübündə SOCAR-ın əsas istehsalat göstəricilərində müsbət tendensiya müşahidə olunub. Səmərəli fəaliyyət istehsalat göstəricilərinə də öz müsbət təsirini göstərib.**

# Milli neft şirkətinin yüksəliş marafonu

*Yanvar–mart aylarında 1,9 milyon ton neft və 2 milyard kubmetr qaz hasil edilib*



Hazırda ölkəmizin quru və dəniz əraziləri üzrə 50-dən artıq yataqda beynəlxalq standartların tələblərinə uyğun olaraq yeni texniki vasitələr və texnologiyalardan istifadə edilməklə, ətraf mühitə ziyan vurmadan və digər amillər nəzərə alınmaqla axtarış-kəşfiyyat və qazma işləri aparılır. Azərbaycan Respublikası Dövlət Neft Şirkətindən verilən məlumata görə, ölkədə neftçıxarmanın sabit saxlanması, qaz hasilatının isə artırılması istiqamətində tədbirlər cari ilin birinci rübündə də davam etdirilib. Belə ki, hesabat dövründə SOCAR tərəfindən 17 min 644 metr qazma işləri həyata keçirilib. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə bir qədər azdır.

2023-cü ilin yanvar-mart aylarında şirkət tərəfindən 1 milyon 884 min 502 ton neft və 1 milyard 985 milyon 942 min kubmetr qaz hasil olunub. Konsorsium iştirakçıları ilə birlikdə istismar olunan "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan, eləcə də "Şahdəniz" və digər yataqlardan çıxarılan həcmlər də nəzərə alınmaqla hesabat dövründə ölkə üzrə, ümumilikdə, 7 milyon 257 min 208 ton xam neft və 12 milyard 577 milyon 434 min kubmetr qaz istehsal edilib. İlin əvvəlindən ölkə üzrə neft hasilatında cüzi azalma qeydə alınsa da, qaz istehsalı 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz artıb.

Yeri gəlmişkən, ABŞ-ın Energetika Nazirliyi yanında Energetika İnformasiyası Administrasiyasının hesabatına əsasən, cari ilin birinci rübündə Azərbaycanda ortalama gündəlik neft hasilatı 470 min barel səviyyəsində olub. Məlumata görə, bu göstərici 2023-ci ilin birinci rübündə 520 min barel, ikinci rübündə 500 min barel, üçüncü və dördüncü rüblərində isə 490 min barel təşkil edib. Xatırladaq ki, bu ilin mart ayında respublikada gündəlik neft (kondensatla birlikdə) hasilatı 605 min barel olub. Bunun da 481 min barelini xam neft, 124 min barelini isə kondensat təşkil edib.

Bir məqamı da qeyd edək ki, Azərbaycan "OPEC+" (OPEC və təşkilata daxil olmayan ölkələri əhatə edən neft istehsalının azaltması üzrə təşəbbüs) razılaşmasının iştirakçısıdır. "OPEC+" ölkələri nazirlərinin 36-cı iclasında əldə edilmiş razılaşmaya görə, 2024-cü il üçün Azərbaycanın hasilat kvotası gündəlik 551 min barel müəyyən eidlib.

Xam neftin və təbii qazın dünya bazarlarına çıxarılması məqsədilə şaxələndirilmiş boru kəmərləri sisteminin yaradılması və müvəffəqiyyətlə istismar olunması ölkə neft sənayesinin şəksiz üstünlüklərindəndir. Azərbaycanın şaxələndirilmiş ixrac sisteminin uğurlu fəaliyyəti əvvəlki dövrlərdə olduğu kimi, 2024-cü ilin yanvar-mart aylarında da davam edib. Hesabat dövründə SOCAR tərəfindən dünya bazarına 3 milyon 911 min 173 ton ton xam neft ixrac olunub. Xatırladaq ki, bura şirkətin öz imkanları ilə çıxardığı neft həcmləri ilə birlikdə ölkəmizdə fəaliyyət göstərən beynəlxalq konsorsiumlar tərəfindən hasil olunan neftin Azərbaycan dövlətinə və SOCAR-a məxsus mənfəət payları da daxildir.

Qaz ixracına gəldikdə isə, cari ilin birinci rübündə Azərbaycandan, ümumilikdə, 10 ölkəyə 6 milyard 479 milyon 755 min kubmetr təbii qaz nəql olunub. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,3 faiz çoxdur.

Son illər ölkə əhalisinin "mavi yanacaq"la təminatının daha da yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilir, indiyədək qaz almayan yaşayış məntəqələrində lazımi infrastruktur yaradılır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2023-cü ildə SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi tərəfindən regionlarda 400 kilometrə yaxın müxtəlif diametrli yeni qaz kəmərləri çəkilib. Bununla yanaşı, istehlakçıların qaz təchizatının yaxşılaşdırılması və texniki qaz itkilərinin azaldılması məqsədilə 270 kilometrə yaxın müxtəlif diametrli qaz kəmərləri əsaslı təmir olunub. İl ərzində "Azəriqaz"ın daxili maliyyə resursları hesabına müxtəlif bölgələrdə 111 yaşayış məntəqəsi və yeni yaşayış massivi qazlaşdırılıb. Bütün bu işlərin nəticəsidir ki, ölkə üzrə qazlaşdırmanın səviyyəsi getdikcə artır. Müqayisə üçün qeyd edək ki, 2009-cu ildə Azərbaycanda qaz şəbəkəsinin əhatə coğrafiyası 62,2 faiz təşkil edirdisə, artıq bu göstərici 96,4 faizə çatıb. Bu da 14 il ərzində 34,2 faiz artım deməkdir. Yeni yaşayış məntəqələrinin "mavi yanacaq"la təchizatı isə öz növbəsində ölkə üzrə qaz istehlakının artmasına səbəb olub. Təkcə onu qeyd etmək kifayətdir ki, son 1 ildə ölkədə 60 mindən çox yeni abonent qeydiyyata alınıb. Bununla da, "mavi yanacaq"dan istifadə edən abonentlərin ümumi sayı 2 milyon 500 mini ötüb. SOCAR-ın rüblük hesabatına əsasən, cari ilin birinci rübündə ölkə üzrə 4 milyard 930 milyon 836 min kubmetr təbii qaz istehlak edilib. Təbii qaz istehlakı ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz artıb.

Azərbaycan dünya bazarında təkcə neft və qazın deyil, həm də neft məhsullarının ixracatçısı kimi tanınır. Son illər ölkəmizin neft emalı kompleksində bir sıra yenidənqurma işləri həyata keçirilib ki, bu da neft məhsullarının istehsalının artırılmasına və keyfiyyətinin yaxşılaşdırılmasına səbəb olub. Cari ilin birinci rübündə SOCAR-ın Azərbaycandakı emal kompleksində 1 milyon 654 min 301 ton neft emal olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə bir qədər çoxdur. Hesabat dövründə ölkə üzrə, həmçinin 923 milyon 702 min 845 kubmetr təbii qaz emal edilib. Emal olunan qaz həcmləri 2023-cü ilin müvafiq dövrünün göstəricisini 3,5 faiz üstələyib.

İlin ilk rübündə SOCAR-ın Azərbaycandakı müəssisələrində istehsal olunan 495 min 518 ton neft, neft-kimya və qaz-kimya məhsulları xarici ölkələrə ixrac edilib. Bu sahədə ixracın həcmi ötən ilin analoji dövrü ilə müqayisədə 3,6 faiz çox olub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Sənaye zonalarının ixrac uğurları

**İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, respublikada 2024-cü ilin I rübündə sənaye zonalarında 640,3 milyon manat dəyərində məhsul satışı həyata keçirilib, bunun da 223,6 milyon manatı ixracın payına düşüb.**



Bu dövrdə sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 14,6 faiz, ixracında isə 28,2 faiz təşkil edib.

2015-ci ildən 2024-cü ilin I rübünün sonunadək sənaye zonalarında 12,74 milyard manat dəyərində məhsul satılıb ki, bunun da 4,1 milyard manatlıq hissəsi ixraca yönəldilib.

Bununla yanaşı, sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 70-dən artıq ölkəsinə ixrac edilib. Sənaye zonalarına sahibkarların cəlb olunması, investisiyaların yatırılması və yeni iş yerlərinin yaradılması istiqamətlərində müsbət addımlar atılıb.

Qeyd edək ki, 2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,79 milyard manat olan 142 sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,7 milyard manatdan çox investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manat investisiyanın yatırılması və 6 min 500-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

***XQ***



# Sosial sığorta – 1,8 milyard manat

**2024-cü ilin yanvar-aprel ayları ərzində muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 1,8 milyard manatdan çox olub.**

Dövlət Vergi Xidmətinin bununla bağlı yaydığı məlumata görə, bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,7 faiz və ya 190,1 milyon manat çoxdur. Qeyd edilib ki, qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrünə nisbətən 14 faiz artaraq 1,2 milyard manata yaxın olub.

İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 2023-cü ilin yanvar-aprel ayları ilə müqayisədə 13,8 faiz artaraq 64,5 milyon manatdan çox olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 17,1 faiz artıb və 48,9 milyon manata çatıb.

İcbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrünə nisbətən 9,2 faiz artaraq 318,3 milyon manat təşkil edib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar isə 10,2 faiz artıb və 225,1 milyon manat olub.

***XQ***

# 180 mindən çox yeni "ASAN İmza"

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən aldığımız məlumatda bildirilir ki, cari ilin ötən 4 ayında vergi ödəyicilərindən daxil olmuş 11 mindən çox yazılı müraciət cavablandırılıb, onlara 4,9 milyona yaxın məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub) göndərilib. Bu dövrdə 180 min 527 "ASAN İmza" sertifikatı verilib.**




Hesabat dövründə 2 min 261 vergi ödəyicisinin iştirakı ilə 119 görüş keçirilib, 1887 vergi ödəyicisinə ünvanlı xidmət göstərilib, vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə onların mobil nömrələrinə 1,2 milyondan çox SMS göndərilib.

***XQ***

# “Azərbaycana fəda edilmiş şərəfli ömür”



**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə bağlı silsilə tədbirlər həyata keçirilib. Unudulmaz dahi şəxsiyyətin mənalı həyat yolundan, zəngin və çoxşaxəli irsindən bəhs edən “Azərbaycana fəda edilmiş şərəfli ömür” adlı geniş videomaterial bu sıradandır.**

Kitabxanadan “XQ”yə bildirilib ki, videomaterial ulu öndərin 1969–1982-ci illərdə Azərbaycanın rəhbəri kimi gördüyü tarixi əhəmiyyətli işlər haqqında geniş məlumatla başlanır. Materialda Heydər Əliyevin uzaqgörən siyasəti ilə milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımızın öz təbii sərvətlərinin tam sahibinə çevrilməsi, qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resursları əldə etməsi, Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması, təhsil, iqtisadiyyat, səhiyyə, mədəniyyət kimi sahələrdə köklü islahatların həyata keçirilməsi, demokratik, müstəqil, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması, ölkəmizin beynəlxalq siyasi müstəvidə tanıdılması istiqamətində olan uğurlu fəaliyyəti haqqında məlumatlar öz əksini tapır. Burada Ulu öndərin müsahibələrindən fraqmentlər də təqdim edilib.

Materialda bu il 20 illiyini qeyd edən Heydər Əliyev Fondunun fəaliyyət istiqamətləri, həyata keçirdiyi layihələr barəsində geniş bilgilər verilib. Bundan əlavə, 2023-cü ildə kitabxanada Ulu öndərin 100 illiyi ilə əlaqədar həyata keçirilmiş “Tarix yaradan şəxsiyyət – Heydər Əliyev 100” layihəsi çərçivəsində Ümummilli liderə həsr edilən elektron məlumat bazasına əlavələr edilməklə yeni bölmələr artırılıb. Mətnlər bir neçə dildə səsləndirilib. “Kitablar”, “Dövrü mətbuat nümunələri”, “İzomateriallar”, “Elektron resurslar” kimi bölmələrin materialları yeni təsvirlər və məlumatlarla daha da dolğunlaşdırılıb.

Silsilə materiallarla onlayn formatda kitabxananın rəsmi veb saytı vasitəsilə tanış olmaq mümkündür.

***XQ***



# “Heydər Əliyev və multikulturalizm”

**Azərbaycan Yazıçılar Birliyinin “Natəvan” klubunda “Heydər Əliyev və multikulturalizm” adlı dəyirmi masa keçirilib.**

Məclisin aparıcısı, AYB-də Multikulturalizm məsələləri üzrə yeni təyin olunan məsul şəxs, şair Xatirə Fərəcli bildirib ki, dəyirmi masanın təşkili Ulu öndər Heydər Əliyev şəxsiyyətinə, mənəvi irsinə sevgi və diqqətin nümayişidir. O, Heydər Əliyevin multikulturalizm dəyərlərinə verdiyi töhfələrdən konkret faktlarla söz açıb.

Tədbirdə iştirak edən AYB-nin katibləri İlqar Fəhmi və “Simurq” Mədəniyyət Assosiasiyasının prezidenti Fuad Məmmədov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri, jurnalist Yadigar Məmmədli, Azərbaycan Milli Konservatoriyasının kafedra müdiri Firudin Qurbansoy, ölkəmizdə yaşayan milli azlıqların nümayəndələri çıxışlarında Ulu ondərin azərbaycançılıq ideyasının təbliğində və yayılmasında gördüyü əhəmiyyətli işlərdən bəhs ediblər.

Qeyd olunub ki, ölkəmizdə multikulturalizm modelinin yaradılmasında Heydər Əliyevin xidməti danılmazdır və bu gün Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin siyasətində prioritet təşkil edir. Yazıçılarımız da bu mövzuda çoxlu dəyərli əsərlər yaradıblar və inam var ki, bundan sonra da multikulturalizm onların yaradıcılığında aparıcı mövzulardan olacaq.

***XQ***

# Belçikalı qonaq Ədəbiyyat Muzeyində

**Belçika–Azərbaycan Mədəniyyət Cəmiyyətinin təsisçisi, ssenarist Kevin Van Nuffel Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qonağı olub.**



Belçika Krallığının Azərbaycandakı Səfirliyinin xətti ilə təşkil olunmuş səfər çərçivəsində rəsmi qonağı muzeyin Beynəlxalq əlaqələr və dünya muzeyləri şöbəsinin müdiri, kulturologiya üzrə fəlsəfə doktoru Nailə Əliyeva müşayiət edib. O, qonağı Nizami Muzeyinin ekspozisiya zalları ilə tanış edərək Azərbaycan ədəbiyyatı haqqında məlumatlandırıb.

Ekspozisiya ilə tanışlıqdan sonra qonaq muzeyin direktoru akademik Rafael Hüseynovla görüşüb.

Belçika Krallığı ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin yüksələn xətlə inkişaf etdiyini deyən muzeyin direktoru qonağa Azərbaycan ədəbiyyatının qədim və zəngin inkişaf yolu haqqında məlumat verib.

Klassik Şərq ədəbiyyatına böyük maraq göstərən Kevin Van Nuffel görüş əsnasında Azərbaycanın çox zəngin mədəni irsə sahib olduğunu qeyd edib. O, XII yüzillikdə qədim Gəncədə Məhsəti Gəncəvi kimi qüdrətli rübai ustadının parlamasını Azərbaycan xalqının yüksək poetik istedadı ilə əlaqələndirərək bunun dünyada fenomen hadisə olduğunu bildirib.

Görüş zamanı Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi ilə Belçika–Azərbaycan Mədəniyyət Cəmiyyəti arasında birgə əməkdaşlığın perspektivləri də müzakirə edilib.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Milli xatirənin kitab abidəsi

**Müsahibimiz Respublika “Xatirə Kitabı” Redaksiyasının baş redaktoru Nəzakət Məmmədovadır.**



***– Nəzakət xanım, düz 79 ildir ki, Azərbaycan xalqı II Dünya müharibəsinin ağrı-acılarını xatirələrində yaşadır. Xalqın haqqa dərin inamı mayın 9-da Qələbə müjdəsi ilə cilalansa da, ölən, itən, taleyi naməlum qalan igidlərimiz də olub. Sizin rəhbərliyinizlə buraxılan xatirə kitabları onların adlarını nə dərəcədə əbədiləşdirə bilir?***

– Müharibə olum-ölüm məsələsidir, itkisiz başa gəlmir. XX əsrin ortalarında Azərbaycanın igid oğulları da Hitler faşizminə qarşı öz canları, qanları ilə mübarizə aparıblar və faşizm Qafqazdan Reyxstaqa qədər geri oturdulub. II Dünya savaşında respublikamızdan cəbhəyə yollananların yarıdan çoxu döyüş meydanlarında həlak olub, aralarında itkin düşənlər də çox olub. Bu mənada, Böyük Vətən müharibəsində xalqımızın verdiyi itkiləri bəlli etmək, bunu tarixləşdirmək, müharibənin vurduğu yaraları fakt kimi əbədiyyətə ünvanlamaq, bir xatirə olaraq yaddaşlara hopdurmaq, silinməz tarixə çevirmək üçün, şübhəsiz, vacib addımlar atılmalı idi və ölkəmizdə bu proses 1 may 1997-ci ildən Ümummilli lider Heydər Əliyevin göstərişi ilə birbaşa Respublika “Xatirə Kitabı” Redaksiyasına tapşırıldı.



Düzdür, keçmiş İttifaq dövründə II Dünya müharibəsində həlak olan, itkin düşən döyüşçülər haqqında ensiklopediya çapa hazırlanırdı. Nəşrin respublikamız üçün nəzərdə tutulmuş 20 cildindən cəmi 3 cildi çap olunub. Biz işə başlayanda fəaliyyətimizi yalnız bunlarla məhdudlaşdırmadıq. Gərgin iş prosesi və araşdırmalar nəticəsində aşkar etdik ki, xalqımızın qəhrəman oğul və qızlarının adları təkcə SSRİ-nin şəhər və rayonlarının tarixində öz əksini tapmır, uzaq diyarlar – Polşa, Macarıstan, Fransa, İtaliya və Yuqoslaviyada da onların qəhrəmanlıqları salnamə kimi səciyyələnir. Bu ölkələrin Qardaşlıq qəbiristanlıqlarında faşizmlə mübarizədə həlak olmuş minlərlə Azərbaycan övladı uyuyur. Qərara gəldik ki, siyahıya onlar da, həmçinin müharibədən sonrakı hərbi qarşıdurmalarda, Əfqanıstanda və Çernobıl faciəsində, 20 Yanvar və Xocalı hadisələrində həlak olanlar da daxil edilsin. Növbəti cildlərdə isə Qarabağda şəhidlik zirvəsinə ucalmış, itkin düşmüş vətəndaşlarımızdan bəhs etdik. Kitabın, ümumilikdə, 20-yə yaxın cildi çap olunub. Beləcə, yaddaş kitablarımız daha da dolğunlaşıb.

Bu gün də redaksiyamızın əsas amalı həmvətənlərimizin döyüş yollarını, qəhrəmanlıqlarını, həlak olduqları, itkin düşdükləri yeri və s. araşdırmaq, doğru-dürüst məlumat əldə etmək və onların xatirələrinə vəfa borcumuzu yerinə yetirməkdir. Düşünürəm ki, üzərimizə düşən missiyanı layiqincə yerinə yetirməklə dövlətçilik işinə təkan verir, böyük bir tarixi epoxanın olaylarını açıq-aydın gələcək nəsillərə göstəririk.

***– Əslində, “Xatirə Kitabı” müharibə ağrılarını özündə geniş əks etdirən ensiklopedik tarixi salnamədir. Bu nəşrlərdə insan talelərinin qaranlıq məqamlarına işıq salınır...***

– Hər bir ölkənin “Xatirə kitabı”nda bizim Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu ilə birgə araşdırmalar əsasında hazırladığımız “Xatirə Kitabı” da nəşr olunduğu gündən minlərlə soydaşımız barədə ictimaiyyətə bəlli olmayan həqiqətləri üzə çıxarıb, öz milli vətənpərvərlik iradəsini nümayiş etdirib. Bu nəşr dövlət büdcəsindən maliyyələşdiyi üçün satılmır, kitabda adı olan şəhid ailələrinə pulsuz paylanır.

“Xatirə Kitabı: 44 gün – tarixi Zəfər” kitabının 3 cildinə ərazi bütövlüyümüz uğrunda canından keçmiş şəhidimiz haqqında məlumatlar daxil edilib. Eyni zamanda, Respublika “Xatirə Kitabı” redaksiyası “Bakı-Xəbər” qəzeti ilə birgə layihə əsasında “Şəhidlər ölməz, Vətən bölünməz!” seriyasından bir neçə kitab çap edib və bu kimi kitabların yenə də hazırlanması istiqamətində ardıcıl işlər görülür.

***– Bildiyimizə görə, redaksiyanızın sifarişi ilə sənədli qəhrəmanlıq filmləri də çəkilir...***

– Elədir. Bir neçə ay əvvəl Nizami Kino Mərkəzində redaksiyamızın “Vətən daşı... və ya 44 günün dastanı” layihəsi əsasında çəkilmiş növbəti 4 film nümayiş olunub. Bu filmlər Vətən müharibəsində şəhid olmuş Murad Əsədov, Dəyanət Əliyev, Toğrul Abbasov və Mətləb Quliyevin şərəfli həyat və döyüş yolunu özündə əks etdirir. Ümumilikdə, bu layihə çərçivəsində 8 film çəkilib.

Bir daha vurğulayım ki, 9 May Qələbə Günü xalqımız üçün xüsusi əhəmiyyət daşıyır və bu möhtəşəm günün tarixə qızıl hərflərlə yazılması ölkəmiz üçün olduqca zəruridir. Xatirə kitablarının nəşri həm də ona dəlalət edir ki, heç kim unudulmur, heç nə yaddan çıxmır! 9 May, eyni zamanda İkinci Dünya müharibəsində nasist Almaniyası ilə əməkdaşlıq etmiş njdeləri yetirən və onlara heykəllər qoyan xain ermənilərlə bizi fərqləndirən cəhətlər qabardılır. Qəhrəmanlıq hekayələri həm də gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

Əlbəttə, müharibə heç zaman heç bir xalqa fayda verməyib. Bu gün də bir sıra ölkələrdə müharibə dalğaları geniş yayılmaqdadır. Lakin dünya, eləcə də Azərbaycan öz humanist idealları ilə müharibəyə qarşıdır və hər zaman bu kontekstdən çıxış edəcək.

***Ə.DOSTƏLİ***
***XQ***

**Gənclik şəhərindəki Əli Kərim adına “Poeziya Evi”ndə hər zaman bu və ya digər kitabla bağlı təqdimatlar, “İmza günləri” keçirilib. Amma budəfəki qədər qələbəlik olmayıb. Çünki şeir-sənət məkanında VI Milli Kitab Sərgisinə start verilib və müxtəlif nəşriyyatların buraxdığı minlərlə kitab endirimli qiymətlərlə satışa çıxarılıb, tanınmış şair və yazıçılar oxucularla görüşə gəliblər.**

Bu gün anadan olmasının 101 illiyi qeyd olunan Ulu öndər Heydər Əliyevin adını daşıyan parkda yerləşən “Poeziya Evi” sərgi ilə əlaqədar bayramsayağı bəzədilib. Uzaqdan eşidilən həzin musiqi sədaları hər kəsi yaxın gəlib qələbəliyə qoşulmağa səsləyir. Biz də bayrama qatılırıq.

**Jurnalist dostum Fərman Qaradağlı da ürək sözlərini söyləyir:**

– Elə ötən payız Sumqayıtdakı Kimyaçı Mədəniyyət Sarayında belə bir möhtəşəm bayram – III Sumqayıt Kitab Sərgisi təşkil olunmuşdu. Bu da kitabçılar və kitabsevərlər üçün növbəti gözəl imkandır. Ayrı-ayrı stendlərə düzülmüş çeşidli kitablar ilk baxışdan müasir poliqrafik dizaynı və mövzu rəngarəngliyi ilə seçilir. Nə istəsən, seçib ala bilərsən. Təşkilatçılar sağ olsunlar!

# Sumqayıtda kitab bayramı







Baş tərəfdə Sumqayıt Milli Kamera Ansamblının ifasında klassik musiqilər səslənir. Onları dinləyib zövq alanlar da çoxdur, kitab piştaxtalarına baxa-baxa yeni nəşrlərlə tanış olanlar da. Ansamblın bədii rəhbəri və dirijoru Şərqiyə Mustafayeva belə bir yerdə konsert verməyin əsl zövq işi olduğunu vurğulayır.

Çox keçmədən sərginin açılış mərasimi başlanır. Tanınmış yazıçı-dramaturq Əyyub Qiyas deyir ki, “Qanun” Nəşrlər Evinin təşkilatçılığı ilə sərgilənən bayram neçə-neçə nəşriyyatı, kitab evlərini, mağaza şəbəkələrini bir çətir altına toplayıb. Sərgi eyni zamanda, Sumqayıtın qarşıdan gələn 75 illik yubileyinə həsr olunub. Proqram zəngindir, müxtəlif panellər, müzakirələr, görüşlər, “İmza günləri” olacaq.

“Qanun” Nəşrlər Evinin rəhbəri Şahbaz Xuduoğlu, Abşeron–Xızı Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə, qocaman şair Əvəz Mahmud Lələdağ, Poeziya Evinin direktoru İbrahim İlyaslı, tərcüməçi-redaktor Şərif Ağayar və başqaları da sərginin uğurla keçməsini, tələb və təklifin uzlaşdırılmasını, hər kəsin kitabla ünsiyyətinin daha da artmasını arzulayırlar. Qeyd olunur ki, böyük Nizami Gəncəvi demişkən, kitab oxumaq gizli xəzinələrdən dürr çıxarmağa bərabərdir. Bu, həm dünyagörüşünü, bilgiləri artırır, nitq qabiliyyətini cilalayır. Qoy, hər kəs kitablarla yaxın dost olsun!”

Beləcə, dördgünlük kitab sərgisinə start verilir. Burada “Qanun”la bərabər, “Alatoran”, “Ting”, “Üçbucaq”, “Kosmo” nəşriyyatlarının, “Ziya Bilim Evi”nin məhsulları nümayiş etdirilir. “Ali və Nino”, “Kitab al”, “Karamazov”, “Kitabçı”, “Novella”, “Papilion” kitab evləri və mağazaları ucuz qiymətə dəyərli ədəbiyyat nümunələri təklif edirlər.

**Sərgidə çoxlu tanış simaya rast gəlirik. Ünlü qələm sahibi – Azərbaycan və Belarus Yazıçılar Birliyinin üzvü, “Qızıl Kəlmə” və “Rəsul Rza” mükafatları laureatı, filologiya üzrə fəlsəfə doktoru Kamran Nəzirli ilə həmsöhbət oluruq.**

– Bu, bir kitab bumudur, – deyə yazıçı təəssüratını bölüşür. – Son vaxtlar Bakıda və ölkəmizin müxtəlif şəhərlərində belə bayramların keçirilməsi ənənəyə çevrilir. Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı, Bakı Beynəlxalq Kitab Sərgisi, Uşaq Kitab Festivalı... bütün bunlar, ilk növbədə, insanlarda mütaliə mədəniyyətini yüksəldir. Bir qələm əhli kimi deyim ki, belə bayramlar adama olduqca xoş təsir bağışlayır. Kitabsevərlərin sərfəli qiymətə ədəbiyyat seçimi imkanı da genişdir, müəlliflərlə, naşirlərlə görüşlər də əsl fürsətdir. Təşkilatçılara hər hansı kitabla bağlı onlayn müraciət etmək də olur.

Bir azdan nasir, şair, tərcüməçi, kinodramaturq, “Şərəf” ordenli Baba Vəziroğlunun “Qalanı xatirədir” kitabının təqdimatı və “İmza günü” başlanır. Ardınca isə “Ağ qan” kitabının müəllifi, psixoloq Samirə Amon və “Ömür dediyin” kitabının müəllifi şair Hikmət Fərzəli ilə oxucuların görüşləri keçiriləcək. Sumqayıt Dostlar Klubunun təqdimatında yazıçı Hümbət Quliyevin moderatorluğu ilə “Sumqayıt maraqlı insanlar şəhəridir”, Təranə Hüsüyevanın moderatorluğu ilə Səməd Vurğun adına Sumqayıt Mərkəzi Kitabxana Sisteminin təqdimatında “Sumqayıt nə oxuyur?” adlı maraqlı diskussiyaların da maraqlı olacağı gözlənilir. Axşam “Endofin” Rok Qrupunun ifasında musiqi nömrələri səsləndirilir.

Qeyd edək ki, bu gün VI Kitab sərgisi çərçivəsində “Ulu öndər və Sumqayıt”, “44 günlük müharibə və Sumqayıt” diskussiyaları, 15 cildlik “Seçilmiş əsərləri”nin 11-ci cildi təqdim olunan Xalq şairi Sabir Rüstəmxanlı ilə, “Zərif qadınlar”ədəbi birliyinin üzvləri ilə görüşlər, “Unudulmaz Əli Kərim” mövzusunda Cavanşir Yusifli, Nadir Yalçın və Şərif Ağayarın söhbətləri, “Xoşbəxt uşaqlar böyüdək” adlı seminar olacaq. “M Teatr”ın təqdimatında isə “Qoğal” uşaq tamaşası göstəriləcək.

Növbəti günlərdə şair Dayandur Sevgin, Aida Adıgözəl, Lilpar Cəmşidqızı, Mürşüd Mehdi, Nigar Mahi oxucularla görüşəcək və yeni kitablarını onlara təqdim edəcəklər. “Ədəbiyyat və illüstrasiya” panelində (moderator Çimnaz Vəliyeva) yazıçı Orxan Adıgözəl, rəssam Ruhulla Həsənzadə fikirlərini bölüşəcəklər. Kitab yarmarkasında gənclik şəhərinin 75 illiyinə həsr olunan “Sumqayıt saatı”nda yerli şairlər poetik nümunələrini təqdim edəcəklər. Sumqayıta həsr olunmuş şeirlər oxunacaq. Aparıcı AYB Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin olacaq. “Turan” milli rəqs qrupunun çıxışı da nəzərdə tutulur.

VI Milli Kitab Sərgisinin son günündə isə şair Əşrəf Veysəlli, yazıçılar Elçin Hüseynbəyli və Həmid Herisçi, eləcə də gənc şairlər Şükür və Şirəslan Çaylı ilə görüşlər olacaq. Elşən Hüseynovun moderatorluğu ilə isə “Uşaq inkişafında oyun terapiyasının əhəmiyyəti” mövzusunda seminar keçiriləcək.

***Şakir RƏHMAN (foto),***
***Əli NƏCƏFXANLI***
***XQ***

Dünyaya açılan qapı

# Hörmət görmək istəyən Azərbaycana gəlsin!

## *Ölkəmizin turizm sənayesi inamlı addımlar atır*

**Sivil, mədəni ölkələr üçün turizm həm yaxşı gəlir, həm də yaxın, etibarlı dost qazanmaq fürsətidir. XXI əsrin "qara qu quşu" adlandırılan COVID pandemiyası bir müddət bu sahədə ciddi problemlər yaratdı. Amma xoşbəxtlikdən indi təşviş və həyəcan dolu günlər arxada qalıb. Turizm qlobal səviyyədə yenidən dirçəlir.**

Xoşbəxtlikdən Azərbaycan həm yerli, həm də xarici turizmin inkişafı üçün geniş imkanları olan ölkələrdəndir. Bu böyük potensialdan səmərəli faydalanmağın hansı yolları var? Azərbaycan Turizm və Menecment Universitetinin professoru, tarix elmləri doktoru, tanınmış kulturoloq Minaxanım Əsədli ilə söhbətimiz məhz ölkəmizdə turizm uğurları və perspektivləri barədədir.

**– Professor, turistlər niyə bu qədər arzuolunan qonaqlar hesab olunurlar?**

– Turistlər erkən yazda uçub gələn qaranquşlar kimidir. O məkanlara üz tuturlar ki, orada hüzur, dinclik, mehribanlıq var. Qaranquşlar dava-dalaş, söyüş-qiybət olan evlərin eyvanlarında yuva qurmurlar...



Bir də ki, onlar bizi sayıb-seçiblərsə, biz də onları hörmətlə qarşılamağı bacarmalıyıq. Xalqımızın gözəl bir məsəli var: Qonaq gəlmək səndən, qarşılamaq məndən. Bizdəki əmin-amanlıq, gözəl təbiətimiz, müasir infrastruktur, qonaqpərvərliyimiz onları Azərbaycanı ziyarət etməyə sövq edir.

İndi əsas vəzifəmiz fürsət düşdükcə yerli və əcnəbi turistlərə fərq qoymadan tariximizin keçmişi, mədəni həyatı barədə də geniş bilgilər verməkdir. Turizm sənayesi üzrə mütəxəssislər bunu turizmin tarixi-mədəni istiqaməti adlandırırlar.

Azərbaycan hökuməti, müvafiq qurumlar ölkəmizdə tarixi-mədəni turizmi daha sürətlə inkişaf etdirmək üçün məqsədyönlü tədbirlər müəyyənləşdiriblər. İstər paytaxtda, istərsə də bölgələrdə bu istiqamətdə bir çox uğurlu layihələr icra olunur.

**– Yeri gəlmişkən, Şuşa tarixi-mədəni turizmin ən önəmli məkanlarından birinə çevrilə bilərmi?**

– Şuşa artıq tarixi-mədəni turizmin ən cəlbedici məkanlarından biridir. Onu görməyə gələnlərin sayı günbəgün artır. Təkcə yerli turistlər deyil, əcnəbilər də bir an azalmayan maraqla görmək istəyirlər.

Şuşa açıq səma altında muzeylər kompleksidir. Bura həm də xalqımızın musiqi beşiyidir. Şuşanı "Qafqazın Vyanası" adlandıranlara haqq qazandırmamaq olmur. Qoca Şərqin ilk peşəkar bəstəkarı dahi Üzeyir Hacıbəylinin vətənidir Şuşa! Burada həm də gözəl şairlərimiz Xan qızı Natəvanın, Molla Pənah Vaqifin, ölməz müğənni Bülbülün və digər sənət korifeylərinin ruhu dolaşır.

Şuşada həmçinin çox sayda memarlıq abidələrimiz var. Hazırda bu gözəl şəhər bərpa edilərək yenidən qurulur. Təqdirəlayiq haldır ki, bu zaman şəhərin əvvəlki siması qorunub saxlanılır.

2021-ci ildə Şuşa şəhəri Azərbaycanın, 2023-cü ildə bütün türk dünyasının, 2024-cü ildə isə, bütövlükdə, islam dünyasının mədəniyyət paytaxtı adlandırılıb. Bəli, Şuşaya təkcə ölkəmizdə deyil, bütün türk və müsəlman dünyasında sonsuz sevgi var.

**– Son illər ölkəmizin ayrı-ayrı bölgələrinə yeni turist marşrutları açılıb. Məmləkətimiz bu gün qonaqlı-qaralıdır...**

– Bu, çox yaxşı haldır. Ölkəmizdə turizmin ayrı-ayrı sahələrinin inkişafı üçün geniş imkanlar var. Son illər çimərlik, dağ, eləcə də sağlamlıq turizmi inkişaf edir. Məsələn, Xaçmaz rayonunun Nabran bölgəsində çimərlik turizmi sahəsində yaxşı uğurlar əldə edilir.

Sağlamlıq turizmindən söz düşəndə isə ən çox Masallı rayonu, eləcə də Naftalan şəhəri yada düşür. Hələ qədim dönəmlərdən Masallıda yer altından çıxan qaynar sulardan müalicə məqsədilə istifadə ediblər. Yaxşı haldır ki, bu gün Cənub bölgəsində müasir tələblərə cavab verən istirahət mərkəzləri var.

Qədim və gözəl Naxçıvanda turizmin inkişafı üçün böyük potensial mövcuddur. Təsəvvür edin ki, Zəngəzur dəhlizi açılandan sonra Naxçıvanın qədim tarix və mədəniyyət abidələrini görmək arzusuna düşənlərin sayı birə-beşqat artacaq.

Bu gün ölkəmizdəki bir çox turizm marşrutları beynəlxalq səviyyədə təbliğ olunur. Bu məqamda "Böyük İpək yolu", "Xalçaçılıq", "Aleksandr Düma Qafqazda", "Azərbaycanda alman məskənləri" turizm layihələrinin adlarını qeyd etmək olar.

**– Çalışdığınız universitet turizm sahəsində ixtisaslaşıb. Bu təhsil ocağı kifayət qədər peşəkar kadrlar hazırlaya bilirmi?**

– Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) kollektivi, həqiqətən, peşəkar kadrların hazırlanmasına böyük məsuliyyətlə yanaşır. Tələbələrə hərtərəfli nəzəri və təcrübi biliklər verməyə çalışırıq. Bu zaman turizm sahəsində kadrların hazırlanmasında beynəlxalq təcrübədən də yararlanmağa cəhd edirik.

Hələ 2007-ci ildən ATMU Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti ilə kadr hazırlığı üzrə birgə layihə icra edir. Tələbələr üçün tədris prosesinin 1 semestri Avstriyada təşkil edilir. Eyni zamanda, avstriyalı tələbələr də 1 semestr bizim pedaqoqların mühazirələrini dinləyirlər. Bu zaman iki ölkə gəncləri arasında səmimi dostluq əlaqələri yaranır.

**– Eşitdiyimə görə, siz tələbələrinizi İçərişəhəri qarış-qarış gəzdirməkdən**



**xüsusi zövq alırsınız. Bu, doğrudurmu?**

– Əlbəttə. Mən Bakıda doğulmuşam və hələ uşaqlıq çağlarımdan Xəzərin sahilinə sığınan bu bənzərsiz şəhərə heyranam. İçərişəhər əslində paytaxt içində paytaxtdır. Burada xalqımızın keçmişi ilə bugünü qovuşub.

Hiss olunur ki, pandemiyadan sonra İçərişəhəri ziyarət edən əcnəbi turistlərin sayı çox artıb. Burada ara-sıra əcnəbi qonaqlarla ünsiyyətdə oluram. Onlara dünya şöhrətli cazmen musiqiçi Vaqif Mustafazadənin, görkəmli fırça ustası Tahir Salahovun ev muzeylərini ziyarət etməyi məsləhət görürəm. Dəfələrlə olub ki, şəxsən turistləri buradakı miniatür kitablar muzeyinə aparmışam.

Məni ən çox sevindirən həm də odur ki, yuxarı sinif şagirdlərinin İçərişəhərə tez-tez ekskursiyaları təşkil olunur. Ölkəmizin hər yerindən bura gəlirlər. Bu məqamda mərhum görkəmli alim, xalqımızın sevimli ziyalısı Xudu Məmmədovun bu sözləri yadıma düşür. O böyük



insan deyirdi ki, yeniyetmə və gənclər qarşısında Vətəni hədsiz dərəcədə tərifləməyə ehtiyac yoxdur. Sadəcə, məmləkəti onlara yaxından tanıtmaq lazımdır...

**– Sizcə, KİV, sosial şəbəkələr turizmin inkişafı üçün hansı xidmətlər göstərə bilər?**

– Mənə elə gəlir ki, media ilə turizmin sıx əlaqələrinin qurulması hər iki tərəfin xeyrinə olardı. Bu istiqamətdə müəyyən uğurlar var. Son vaxtlar turizmlə bağlı bir çox maraqlı reklam çarxları hazırlanıb.

Bütövlükdə, daha çox iş görmək olar və lazımdır. Məsələn, bölgələrdəki ən nümunəvi istirahət məkanları barədə reportajlar hazırlamaq olar. Yeri gəlmişkən, KİV mənsubları əcnəbi turistləri aldatmaq, ciblərini soymaq niyyətinə düşənləri də ictimai qınağın hədəfinə çevirə bilər.

Təkcə media deyil, milli kinematoqrafiya da turizmin inkişafına dəstək verə bilər. Dünya təcrübəsi göstərir ki, turizm bölgələrində uğurlu bədii filmlərin, maraqlı televiziya seriallarının çəkilməsi və yaxın-uzaq ölkələrdə nümayiş etdirilməsi həmin ünvanlara marağı artırır və turist axınına səbəb olur.

Yeri gəlmişkən, qardaş Türkiyədə bu istiqamətdə uğurlu işlər görülür. Biz onların təcrübəsindən mütləq yararlanmalıyıq. Mən əminəm ki, Azərbaycan yaxın gələcəkdə turizm sahəsində dünya liderlərindən birinə çevrilə bilər. Bunun üçün hər birimiz əlimizdən gələni etməyə borcluyuq.

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***


## "Bakı Avtonəqliyyat-2" ASC səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikası Mərkəzi Bankının "səhmdarların ümumi yığıncağının məsafədən (onlayn) keçirilməsinə dair" Təlimatına uyğun olaraq, 27 iyun 2024-cü il saat 11:00-da "Bakı Avtonəqliyyat-2" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyində aşağıdakı məsələlər durur:

1. "Bakı Avtonəqliyyat - 2" ASC-nin 2023-cü il üçün maliyyə hesabatının təsdiq edilməsi.
2. Cəmiyyətin idarəetmə orqanlarının yeni tərkibinin seçilməsi.
3. Digər məsələlər.

Ümumi yığıncağın onlayn şəkildə keçiriləcək iclasına qatılmaq qaydaları:

• İnternetə qoşulmuş komputer, noutbuk, planşet və ya smart telefonla Zoom proqramını yükləmədən aşağıdakı link vasitəsilə birbaşa daxil olmaq olar:

https://us04web.zoom.us/j/71029312557?pwd=di3KR2aj7PrK27yOzjOREVhlaV4F4O.1

• İnternetə komputer, noutbuk, planşet və ya smart telefona Zoom proqramını yüklədikdən sonra aşağıdakı ID kodu və şifrə vasitəsilə daxil olmaq mümkündür.

Əlaqə telefonu: +994502955594

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

***"Bakı Avtonəqliyyat-2"***
***ASC-nin idarə heyəti***

## "Lənkəran Sənaye Cihaz" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da cəmiyyətin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin yekunlarına dair idarə heyətinin hesabatı.
2. Təşkilati məsələlər: (idarə heyəti, müşahidə şurası və təftiş komissiyası sədrinin və üzvlərinin seçilməsi ).
3. Digər məsələlər.

## "Gəncə Qənnadı" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da cəmiyyətin Gəncə şəhəri, Şəmkir şossesi 1 nömrəli ünvanında, inzibati binada səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin yekunlarına dair idarə heyətinin hesabatı.
2. Təşkilati məsələlər: ( idarə heyəti, müşahidə şurası və təftiş komissiyası sədrinin və üzvlərinin seçilməsi ).
3. Cəmiyyətə məxsus istismara yararsız əsas vəsaitlərin silinməsi .
4. Digər məsələlər.

## "Astara Kəndnəqliyyat" ASC səhmdarlarının nəzərinə !

28 iyun 2024-cü il saat 11.00-da cəmiyyətin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin yekunlarına dair idarə heyətinin hesabatı.
2. Digər məsələlər.

**"Astara Kəndnəqliyyat" ASC-nin idarə heyəti.**

## "EF-QAZ" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da cəmiyyətin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin yekunlarına dair idarə heyətinin hesabatı.
2. Digər məsələlər.

## "Rabitə Tikinti" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da cəmiyyətin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin yekunlarına dair idarə heyətinin hesabatı.
2. Digər məsələlər.

***"Rabitə Tikinti" ASC-nin idarə heyəti***

## "Kəndsutəchizat" QSC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da cəmiyyətin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin yekunlarına dair idarə heyətinin hesabatı.
2. İdarə heyəti üzvlərinin seçilməsi.
3. Səhmlərin alqı-satqı məsələsinin müzakirəsi.
4. Digər məsələlər.

***"Kəndsutəchizat" QSC-nin idarə heyəti***

## "Kürdəmir Tikinti Mexanikləşdirmə" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da cəmiyyətin Kürdəmir şəhəri, Bakı prospekti, 53 nömrəli ünvanda yerləşən inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin yekunlarına dair idarə heyətinin hesabatı.
2. Təşkilati məsələlər: ( idarə heyəti, müşahidə şurası və təftiş (audit) komissiyası sədrinin və üzvlərinin seçilməsi).
3. Cəmiyyətin Kürdəmir şəhəri, Bakı prospekti, 53 nömrəli ünvanda yerləşən əmlakının satışı.
4. Cəmiyyətə məxsus istismara yararsız inventarların, əsas vəsaitlərin silinməsi və ya satılması.
5. Cəmiyyətin hüquqi ünvanının dəyişdirilməsi.
6. Digər məsələlər.


Həyatın en kəsiyi

# *Hər pəncərədən dünya gözəl görünmür*

### (yaşantı)

**Gözlərinizin önünə iki çarpayılı bir palata gətirin. Hər iki çarpayıda yaşlı xəstə var. Çarpayılardan biri pəncərə qarşısında, o biri isə divarın dibindədir. Xəstələr ölüm mələyinin tezliklə onları aparacağı fikrindədirlər. Ancaq mələk haradasa gecikir və həftələr ötsə də gəlib çıxmır...**

Pəncərə qarşısında yatan xəstə tez-tez bayıra baxır və gördüklərini otaq yoldaşına danışır:

– Bu gün Günəş daha parlaqdır, hər yanı əlvan rənglərə boyayıb. Axşamkı narın yağışdan sonra şəhər çox gözəl görünür. Mən əvvəllər belə səhərlərdə sahilə gəzməyə gedər, dənizin sakit, qırçınlı ləpələrinə tamaşa edər və sonra fırtınanın sahilə atdığı rəngbərəng balıqqulağıları yığardım. Sanki dəniz onları mənə pay göndərirdi. Daha sonra sahildəki qayalıqda oturub uzaqlarda görünən gəmilərə baxardım... Mənim xanımım gəmi ilə səyahətə çıxmağı çox sevərdi. Buna görə də biz arabir belə səfərlərə gedərdik. O, dünyasını dəyişəndən sonra mən sərnişin gəmilərinə sahildən baxar, özümü aldatmağa çalışardım ki, bax, o, indi həmin gəmidədir və göyərtədən mənə əl eləyir...

Gərək insan bəzən ağrılardan, sıxıntılı düşüncələrdən yaxa qurtarmaq üçün buna bənzər macəralar uydurmağı bacarsın. Onsuz da, "yüz fikir bir borcu ödəmir",



– deyirlər. Ömür-gün yoldaşım altı ildən çoxdur dünyasını dəyişib. Mənsə səhərlər süfrə hazırlayanda özüm də bilmədən bəzən iki fincana çay süzürəm, stolun üstünə iki çay qaşığı, iki bıçaq qoyuram. Xəyalımda özüm-özümə deyirəm ki, yəqin hələ oyanmayıb, oyanan kimi gəlib mənə "sabahın xeyir" deyəcək və sonra gülümsəyərək zarafatla: "sənin dəmlədiyin çaydan doymaq olmur ki...", söyləyəcək. Sonra birgə yeyib-içib işə yollanacağıq... Bu etdiklərimlə sanki onun mənimlə daim yanaşı olduğuna özümü inandırmaq istəyirəm. Axı, əslində insan cismən bu dünyanı tərk edir, ruhu isə əzizləri ilə yanaşı gəzib-dolanır. Buna görə də güclü insanlar sevgiləri ilə ölümə sanki meydan oxuyur, ömür-gün yoldaşının son nəfəsədək onunla qoşa addımladığına inanırlar...

– Sən qəribə adama oxşayırsan, dostum. Yaxşı, düzünü de, sən ölümdən qorxmursan? – deyə divarın dibindəki çarpayıda uzanan xəstə soruşdu.

– Həyatda canlı olan hər şey ölümdən qorxur. Mən ən əziz insanlarımı torpağa vermişəm. Buna görə də dəfələrlə ölüb-dirilmişəm. Allahın verdiyi canı isə O gözəgörünməzdən başqa kimsə ala bilməz. Amma cəmiyyətdə elələrilə rastlaşırsan ki, o zaman insan olduğuna da utanırsan və yaşamağın dadı-duzu qaçır, insanlar arasında qalmaq istəmirsən.

– Kimdir o insanlar?

– Pulun adamları. Yəni pul üçün, sərvət üçün hər cür dona girənlər. Məşhurlardan biri deyib ki, insanların çox pul qazanmaq istəməsi qorxulu deyil, pulun qazandığı adamlar isə çox qorxuludur. Axı, kim bilmir ki, pul çox şeydi, amma hər şey deyil...

– Yaxşı, yaxşı, başqa şeydən danış, bayırda nə var-nə yox?

– Hə, dəniz bu gün hələ ki, sakitdir. Parkda isə hələlik heç kim görünmür. Yelləncəklər balacaları gözləyir. Budur, dünənki sevgililər əl-ələ tutub gəlirlər. Oğlan əlini dənizə doğru uzadıb nəsə deyir. Yəqin, onu dəniz qədər sevdiyini söyləyir. Qız isə ağ buludları, göy üzünü göstərir və demək istəyir ki, mənsə səni göylər qədər sevirəm. Onlar necə də bir-birinə yaraşırlar. Hələ parkdakı rənbərəng gül-çiçəkləri görəsən, yəqin ki, yenə gül bayramına hazırlaşırlar...

Günlər beləcə keçib gedir, ancaq ölüm mələyinin nə vaxt peyda olacağını kimsə bilmirdi. Əhvalları yaxşı olanda, ağrıları azalanda yenə pəncərə önündə yatan bayırda gördüklərini xəstə yoldaşına danışırdı. O, bunu xəstə yoldaşının, bir gün də olsa, çox yaşaması üçün edirdi.

Bir gün pəncərə önündə yatan xəstənin vəziyyəti qəfil ağırlaşdı. Deyəsən, ürəyi tutmuşdu. Əgər palata yoldaşı düyməni basıb həkimi çağırsaydı, bəlkə də, həyata qayıda bilərdi. Amma o, bunu etmədi. Fikirləşirdi ki, yoldaşı ölsə onu pəncərənin önündəki çarpayıya keçirəcəklər və günlərlə otaq yoldaşından eşitdiklərini öz gözlərilə görəcək.

Az sonra palata yoldaşı öldü...

Ertəsi günü onu istəyilə pəncərənin qarşısındakı çarpayıya keçirdilər. Gözlədiyi an gəlmişdi. O, həyəcanla həyatın gözəlliklərini görmək həvəsilə pəncərədən baxdı. Ancaq...

Ancaq bayırda köhnə divardan başqa heç nə görmədi.

Bəli, dünya bir pəncərədir. Ancaq hər pəncərədən dünya gözəl görünmür.

**Səməd MƏLİKZADƏ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 96 (30500) 10 may 2024-cü il, cümə

İDMAN

# Güləşçilərimizdən “Paris-2024”ə daha 3 lisenziya




**Türkiyənin İstanbul şəhərində keçirilən Dünya Olimpiya təsnifat turnirində Azərbaycanın yunan-Roma güləşçiləri Murad Məmmədov (60 kq), Rafiq Hüseynov (87 kq) və Sabah Şəriəti (130 kq) uğurla çıxış edərək Paris Yay Olimpiya Oyunlarına lisenziya qazanıblar.**

Murad yarımfinalda rumıniyalı Razvan Arnauta, Rafiq isə gürcüstanlı Laşa Qobadzeyə qalib gəlməklə, Paris Olimpiadasına vəsiqə əldə ediblər. Komandamızın digər üzvü Sabah Şəriəti isə belaruslu Pavel Qlinçuku sonuncu xal prinsipinə əsasən (1:1) məğlub edərək buna nail olub.

Qeyd edək ki, buna qədər sərbəst güləşçilərimiz olimpiadaya maksimum sayda – 6, “klassiklərimiz” isə 2 lisenziya qazanıblar.

# “Günəşli” II minifutbol turnirinin qalibidir



**Bakının kənd və qəsəbələri arasında keçirilən II minifutbol turniri başa çatıb. Bakı Tennis Akademiyasında keçirilən final oyununda “Günəşli” və “Aşağı Güzdək” komandaları mübarizə aparıblar. Matçda qalib gələn “Günəşli” II minifutbol turnirinin qalibi olub. Üçüncü yer uğrunda “Biləcəri”ni məğlub edən “Mərdəkan” bürünc medala sahib çıxıb.**

Medalçılara mükafatları gənclər və idman naziri Fərid Qayıbov, AFFA-nın vitse-prezidenti Sərxan Hacıyev, veteran futbolçu və idman səfiri İlqar Qurbanov və Azərbaycan Tennis Federasiyasının vitse-prezidenti Mehman Qocayev təqdim ediblər.

# Premyer Liqada 35-ci turun oyunları




**XXXV turun oyun cədvəli açıqlanıb.**

Misli Premyer Liqasında görüşlər 3 gün ərzində keçiriləcək. Belə ki, mayın 17-də “Qarabağ” “Turan Tovuz”la (Tofiq Bəhramov adına Respublika Stadionu, 20:30) qarşılaşacaq. Bir gün sonra saat 17:00-da “Sabah” – “Sumqayıt” (“Bank Respublika Arena”), “Səbail” – “Neftçi” (“ASCO Arena”) və “Kəpəz” – “Zirə” (Tovuz şəhər stadionu) qarşılaşmaları start götürəcək. Mayın 19-da 16:00-da isə Qəbələ şəhər stadionunda “Qəbələ” ilə “Araz-Naxçıvan” üz-üzə gələcək.

*L.QURBANOVA*
*XQ*

# Adil İsgəndərovdan səhnə “pasport”u almış aktrisa

**Şekspir deyirdi ki, aktyorlar öz dövrlərinin salnaməsini yazırlar. Bu dəfə “XQ”nin oxucularına Xalq artisti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Bəsti Cəfərova ilə söhbəti təqdim edirik.**

***– Azərbaycanın Xalq artisti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru. Səhnə və auditoriya. Sizin üçün hansı önəmlidir?***

– Belə bir şablon deyim var: Mənim üçün mükafat, fəxri ad önəmli deyil, əsas sənətdir. Mənə elə gəlir ki, fəxri adın, mükafatların yeri bir başqadır, çünki onların arxasında böyük zəhmət dayanır. Bu baxımdan mənim üçün hər ikisi əzizdir, həm fəxri ad, həm də elmi dərəcə. Birini o birindən ayıra bilmərəm.

***– Prezidentin Fəxri diplomuna layiq görülmüsünüz. Bütün bunları sənətin zirvəsinə çatmağın göstəricisi hesab etmək olarmı?***

– Mükafatlar mənə yox, sənətimə verilir. Heç zaman mükafata görə iş görməmişəm. Dost da, düşmən də bilir ki, bu sənəti sevərək gəlmişəm. Qırx altı ildir ki, səhnədəyəm, amma hər dəfə işimə həvəslə və məsuliyyətlə, ilk dəfə səhnəyə çıxırmış kimi yanaşıram. Bəli, səhnə mənim həyatımdır. Hansısa rolu oynayanda düşünməmişəm ki, buna görə mənə mükafat versinlər. Taleyimdən çox razıyam ki, fəxri adları, mükafatları vaxtında veriblər, gözlətməyiblər. Aktyor ömrü yaşayıram, bəlli bir yaşım var, amma yenə səhnədə olmaq, tamaşaçını təəccübləndirmək istəyirəm.

***– Deyirlər ki, aktyor peşəkarlaşdıqca əvvəlki həyəcanı itir, çıxışı ona yerinə yetirdiyi adi iş kimi gəlir...***

– Həyəcan tam keçməsə də, əvvəlki kimi olmur. Onu peşəkar məsuliyyəti əvəzləyir. Düşünürsən, illərdir səhnədəyəm, bu dəfə də ən yaxşısını etməliyəm. Özünə daha çox güvənirsən. Dönüb arxaya baxanda fəxr edirəm ki, gözəl obrazlar yaratmışam. Bu, indi də davam edir.

***– Bayaq bir ifadə işlətdiniz – dost da bilir, düşmən də. Maraqlıdır, sənətdə düşmən kimə deyilir?***

– Sənət aləmi intriqasız olmur. Hərdən deyirlər: intriqasız teatr maraqsız olur. Mən işimi heç vaxt kiminləsə rəqabət, intriqa üstündə qurmamışam. Sənətdə bəlli bir düşmənim də olmayıb. Qırx altı ildə neçə direktorla, baş rejissorla işləmişəm. Hələ indi özümdə cəsarət tapıb hansısa obrazı oynamaq istəyimi dilə gətirirəm. Mənim arzum–istəyimlə qoyulan tamaşalar var, artıq o mərhələyə gəlib çatmışam. Rejissorların da təqdim etdiyi pyeslər var. Bu da mənim üçün şərəfdir.

***– Akademik teatra birbaşa tələbəlikdən gəlmək ciddi bioqrafik göstəricidir. Bu, necə baş verdi?***

– Hələ instituta qədər Lütfi Məmmədbəyovun dram dərnəyinə gedirdim. O, Akademik Milli Dram Teatrında rejissor işləyirdi. İnstitutda kurs rəhbərim Adil İsgəndərov olub. 1977-ci il idi, bir gün Lütfi Məmmədbəyov məni teatra çağırdı və dedi ki, səni Tofiq Kazımova təqdim edəcəm. Birinci kursda oxuyurdum. Tofiq müəllim həmin vaxt Axundzadənin “Müsyö Jordan dərviş Məstəli şah” əsərini tamaşaya qoymağa hazırlaşırdı. Məni çox danışdırdı, dinlədi, diqqətlə müşahidə etdi. Elə anladım ki, xoşuna gəldim. Amma sonra xeyli vaxt keçdi, xəbər çıxmadı. Düşündüm ki, yəqin bəyənmədi, gedib soruşmaq, maraqlanmaq xasiyyətimdə yoxdur. Üçüncü kursda oxuyanda mənə bir əsər verib dedilər ki, Tofiq Kazımov göndərib. Əkrəm Əylislinin “Quşu uçan budaqlar” əsərində Səltənət roluna dəvət olundum. Tofiq Kazımov əsəri verib Lütfi müəllimə və deyib ki, “o göyçək qızı” çağır, artıq təsdiqlənib, rol onundur. Deməк, yadında qalmışam. Tofiq Kazımov gənclərə meydan açan novator rejissorlardan idi. Hamını maraq götürmüşdü ki, rol təsdiqlənib, amma heç kim bilmir bu Bəsti Cəfərova kimdir. İlk premyeram 1978-ci ildə oldu. O vaxtdan taleyimi Akademik Milli Dram Teatrına bağladım. Bu teatr mənim evimdir.



***– Dediyiniz kimi, tələbə ikən ilk addımınızı bu teatrda, həm də baş rolla atmışınız. Eyni vaxtda Vaqif İbrahimoğlunun Tədris Teatrında işləmisiniz. Fərqli estetikalı iki səhnəni uzlaşdırmaq çətin deyildi?***

– Vaqif İbrahimoğlu Rəsul Rzanın “Qanun” televiziya tamaşasını hazırlamaq istəyirdi. Ora dəvət etmişdi. Teatrda ilk addımım uğurlu oldu. Ardıcıl surətdə yeni rollara dəvət alırdım. Tofiq Kazımov dünyasını dəyişəndən sonra Vaqif İbrahimoğlu mənə dedi ki, o, səni inkişaf etdirmək istəyirdi, indi onun missiyasını öz üzərimə götürəcəm. Deyirdi ki, həmişə əsas rolları oynayacaqsan, amma hərdən səni epizodik rollarda da sınayacam ki, təcrübən artsın. Ekzüperinin “Balaca şahzadə” əsərində xırda bir rol verdi. İndi komediya da oynayıram, drama da. Qətibə İnanc da oluram, Xanuman da. Ampula çeşidinə görə Vaqif İbrahimoğluya borcluyam.

***– İç dünyanıza hansı daha yaxındır – Nayman ana, Qətibə İnanc, yoxsa Xanuma, Felemona Marturano?***

–Hələ ilk kurslarda oxuyanda Adil İsgəndərov dedi ki, Bəsti sənətdə qalacaq. Ona yaxşı qismət çıxsa, sənəti atmayacaq. Həmişə düşünürdüm ki, görəsən, Adil müəllim o fikri nəyə əsasən deyirdi. İndi özüm pedaqoqam, iyirmi ildir dərs deyirəm və görürəm ki, pedaqoq tələbənin nəyə qadir olub-olmadığını yaxşı bilir. O, məni faciə janrının aktrisası kimi görürdü. Üçüncü kursda “Dağılan tifaq”da Sona xanımı oynayırdım. Əlbəttə, dramatik janr mənə daha doğmadır, komediya isə yaradıcılığıma ayrı rəng qatır.

***– Televiziya tamaşalarında da çəkilmisiniz. Xüsusilə, “Solğun çiçəklər”dəki Pəri obrazında, bədii anlamda, nifrət, qazanmışdınız...***

– Çox təşəkkür edirəm.

***– İndi, sanki, bu sahədə bir boşluq var. Bunu hiss edirsinizmi?***

– Sözün düzü, yox, çünki indi teletamaşaların yerini seriallar tutub. Dəvət olunuram, amma getmirəm. O missiyanı üstümə götürməyə ehtiyat edirəm. Təbiətcə elə adamam ki, gərək gördüyüm iş mükəmməl olsun, yarımçıq işi xoşlamıram. Bütün gücümü teatra verirəm. Pedaqoji fəaliyyətim də çox önəmlidir. Artıq bəlli bir yaşım var, əlavə işin altına girib öhdəsindən gəlməsəm, bunu özümə bağışlamaram. Telekanallarda haqqımda verilişlər çəkilir, məmnuniyyətlə gedirəm, çünki ölüm-itim dünyasıdır, fondda bizim də lentimiz qalsın...

***– Sənət yolunuzda kinonun da izi var...***

– Cəmi bir filmdə, Oktay Mirqasımovun “Günaydın, mələyim”də çəkilmişəm. İstərdim kinoya çəkilim, amma bunu özümə dərd eləmirəm, teatr artistiyəm.

***– Milli səhnəmizin sabahını necə görürsünüz?***

– Yaxşı görürəm, yeni bədii rəhbərimiz Mehriban Ələkbərzadə teatrımızın yetirməsidir. Yeni, yaxşı işlərə başlamışıq. Ümidimiz böyükdür. Qırx altı il bir igidin ömrüdür. Burada ad-san qazanmışam, yaxşı obrazlar oynamışam. İstəyirəm ki, teatra istedadlı artistlər gəlsin. Adil İsgəndərovdan dərs almışam, müəyyən təcrübəm var, yetirməm olan gəncləri bizim teatrın səhnəsində görmək istəyirəm. Təkcə mənim tələbələrim deyil, bütün istedadlı gənclər teatrlarımıza gəlsinlər.

*Söhbəti qələmə aldı:*
*Ramilə QURBANLI*
*XQ*



# Bildirçinin dünya səyahəti

**Alimlər Türkiyənin İğdır vilayətində peyk ötürücüsü quraşdırılan bildirçinçalan quşunun (şahinin növü) marşrutunu izləyiblər. Məlum olub ki, quş Azərbaycan da daxil olmaqla, Asiya, Avropa və Afrikanın 34 ölkəsindən keçib və bu səfərdə 48 min 865 kilometr məsafə qət edib. Bu barədə Türkiyənin Araz Quş Araşdırma və Təlim Mərkəzindən bildirilib.**

Məlumata görə, 2022-ci ili aprelin 14-də peyk ötürücüsü ilə təbiətə buraxılan şahin nəsil artırmaq üçün Rusiyanın Qazaxıstanla sərhəd ərazisinə yaxın yerləri, qışlaq yeri kimi isə Namibiyanı seçib. Maraqlıdır ki, Araz çayı vadisi isə şahinin əsas yaşayış və qidalanma məkanı olub.

Qeyd edək ki, latınca adı “Accipiter nisus” olan bu quş növü heyvanlar aləminin xordalılar tipinin quşlar sinfinin qırğıkimilər dəstəsinə aiddir.

*S. FİDAN*
*XQ*

# Dünya əhalisinin 92 faizi 65 yaşına çatmır...

**Planetimizdə 7,8 milyard insan yaşayır. Onlardan 60 faizi Asiyada, 15 faizi Afrikada, 11 faizi Avropada, 9 faizi Cənubi Amerikada, 5 faizi Şimali Amerikada yerləşib. Əhalinin 51 faizi şəhərlərdə, 49 faizi isə kəndlərdə məskunlaşıb. 7,8 milyard insanın çoxu – 62 faizi ana dilində, 12 faizi Çin dilində, 5 faizi ispan və ingilis dillərində, 3 faizi ərəb, hind, benqal və portuqal dillərində, 2 faizi isə rus, yapon və s. dillərdə danışır.**

Maraqlıdır ki, dünya əhalisinin 23 faizinin yaşamağa mənzili yoxdur. Planet sakinlərinin 15 faizi pis qidalanır, böyük əksəriyyətin ərzaq ilə bağlı problemi yoxdur. İnsanların 48 faizinin gündəlik yaşayış xərcləri 2 ABŞ dollarından azdır. Adamların 13 faizi təmiz suya həsrətdir.

Dünya insanlarının 75 faizinin mobil telefonu var. Cəmi 30 faizinin internetə çıxışı var. Planet sakinlərinin yalnız 83 faizi yazıb-oxuya bilir. Bütün insanların cəmi 7 faizi ali təhsil alıb.

Dünya əhalisinin 33 faizi xristian, 22 faizi müsəlman, 14 faizi hindu, 7 faizi buddist, 12 faizi digər dinlərə mənsubdur. 12 faiz insanın isə dini inancı yoxdur.

Qoca dünyada ölüm cavanlaşır. Belə ki, əhalinin 26 faizi 14 ildən az yaşayır, 66 faizi 15-64 yaş arasında dünyasını dəyişir, 8 faizi isə 65 yaşdan çox yaşayır. Deməli, dünya əhalisinin 92 faizi 65 yaşına çatmadan vəfat edir.



Əziz bəşər övladı! Əgər sizin eviniz varsa, təmiz su içirsinizsə, internetə çıxış probleminiz yoxdursa, üstəlik ali təhsil almışsınızsa, siz dünyada bəxti gətirən 5 faizdən az olan qrupa daxilsiniz.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# Aranda yağmursuz, dağlarda yağış və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata əsasən, mayın 10-da Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Mülayim cənub küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Gecə 11-16°, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 20-25°, dağlarda gecə 3-8°, gündüz 11-16° isti olacaq.

*Q.QASIMOV*
*XQ*



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3936
SİFARİŞ 962
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00